Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 7 (6050) 23 fevral 2024-cü il | Qiyməti 40 qəpik

## YENƏ POLİSİ HƏDƏFƏ GÖTÜRÜBLƏR




Bax:səh-3

## Ramazan ayı bu tarixdə başlayacaq



**Ramazan ayının ilk günü martın 11-nə təsadüf edəcək.**

Adalet.az xəbər verir ki, bu barədə Qafqaz Müsəlmanları İdarəsinin təqvimində qeyd edilib. Bildirilib ki, Qədr gecələri 28, 30 mart, 1 və 5 aprelə təsadüf edəcək. Ramazan bayramı isə aprelin 10-11-də olacaq.

## MÜƏLLİM ÇIXIB O UŞAQLARA BİR ŞİLLƏ VURSAYDI, VAY, DƏDƏM, VAY!

**Sosial şəbəkə partlayır, beş nəfərin qatili də yaddan çıxıb. Hamı 156 saylı məktəbdə baş verən iyrənc hərəkəti müzakirə edir. Əslində bu, iyrənc hərəkət deyil, sinif yoldaşları bir qızı linç edirlər.**

İndi belə bir vaxtda qəfil bir müəllim gəlib çıxsaydı, həmin linç edən şagirdlərin hərəsinə bir şapalaq vursaydı, görün nə mənzərə yaranardı? Şagirdin linç hərəkətinə məruz qalması təmiz yaddan çıxardı, hamı düşərdi müəllimin üstünə. Şapalaq dəyən uşaqların valideynləri də bir tərəfdən. Bu dəfə müəllim linç edilərdi, işdən çıxarılardı, nə bilim daha nə.

Və saytlarda, mətbuatda yazacaqdılar ki, uşaqlardı da zarafat ediblər. Necə ki məktəbin direktoru açıqlama verdi ki, şagird də, valideyni də məktəbə dəvət olunub, psixoloq söhbət aparıb, şagird deyib ki, zarafat etmişəm. Buna türklər ”eşşək zarafatı” deyirlər.

Nə qədər ki müəllimlər basqı altında yaşayacaq, şagirdlərdən qorxacaq, tərbiyəsiz uşaqlara güldən ağır bir söz deyə bilməyəcək, belə hadisələrin də sayı artacaq.

## AH, NECƏ KEF ÇƏKMƏLİ ƏYYAM İDİ...




**Cənab Prezident İlham Əliyev Münhendə BMT rəhbərliyi ilə görüşəndə deyib ki, ATƏT-in Minsk qrupu ləğv olunmalıdır. Doğrudan da bu qrup fəaliyyəti boyunca bir qara qəpiklik iş görə bilməyib. Amma əvəzində yaxşı maaş alıblar, gəliblər Bakıya görmədikləri günləri görüblər. Səhər qəhvəaltısında Gəncə qaymağı, Gədəbəy balı, Şamaxı şoru, kürü, kənd yumurtası, Şəmkir konyakı. Günorta quzu qabırğası, erkəyin ağ əti, döymə kabab, tut arağı. Axşam da cücə plov, şah plov, fisincan plov, yeyib-içib kef ediblər. Bir az da boş-boş zəvziyib gediblər İrəvana. İrəvanda da Həkərinin qızıl balığı, İrəvan konyakı vurublar özləri üçün, amma orda boş-boş danışmayıblar. Bir az dolu danışıblar, ermənilərə deyiblər ki, arxayın olun arxanızda durmuşuq, nə qədər biz varıq Qarabağ sizindir.**

Və sonda Qarabağ Ermənistanın yox, əsl sahibi Azərbaycanın oldu.

Mənim fikrimcə, yaxşı olar ki, ATƏT-in Minsk qrupunu göndərsinlər Qəzza zolağına, bir az Ərəbistanın isti havası onları hövsələdən çıxarsın.

Amma getməzlər. Kim cənnət Azərbaycanı və Göyçəni qoyub gedər Qəzzaya. Ona görə də indi başqa bir adla tökülüb gəliblər Ermənistana və sərhəd boyu durbinlə Azərbaycana baxıb kef çəkdikləri günləri yada salırlar.

## ŞEYTAN İSTEFA VERİB



**Mən ”Dolu” romanında yazmışdım ki, Əzrayıl gedir Allahın qəbuluna və istefa ərizəsi yazıb deyir ki, mən bu gündən Əzrayıl olmaq istəmirəm. Səbəb də onu göstərir ki, insanlar bir-birlərini heç mənim də ağlıma gəlməyəcək elə vəhşiliklə qırırlar ki, day mənə ehtiyac yoxdur.**

**İndi deyəsən, şeytan da istefa ərizəsi yazıb. Çünki yer üzündə o qədər şeytanlar yaranıb ki, day ona ehtiyac yoxdur. Söhbət adi adamlardan getmir, söhbət bütövlükdə dünyanı silkələyə biləcək, məhv edə biləcək şeytan dövlətlərdən gedir. Yəni Amerika varsa, Fransa varsa, NATO varsa day şeytana nə ehtiyac?**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## MƏNFUR SOVET HÖKUMƏTİ VAXTI "ƏXLAQ" DƏRSİ VARDI



***Bu dərsi də adətən ”Tarix” və ”İctimaiyyət” müəllimləri deyirdi. Deyəsən, indi ”İctimaiyyət” dərsi keçmirlər. Eləcə də ”Əxlaq” dərsi vardı. Bu dərsdə müəllimlər şagirdlərə özlərini necə aparmalı olduqlarını, bir-biriləri ilə münasibətlərində necə rəftar etmələrini, müəllimlərə necə münasibət göstərmələrini, valideynləri ilə münasibətləri necə tənzimləməli olduqlarını və sair və ilaxır öyrədirdilər. Özü də çox qəribədir ki, ”Əxlaq” dərsindən ”2” alan uşaqları məktəbdən qovurdular.***

Bax:səh-3

## GÜNÜN LƏTİFƏSİ

### *GÜNÜN ANEKDOTU KAMRAN GÜLLƏRDƏN*

Rayondan gələn bir kişi çörək zavodunda işə girir. Kollektivdə xeyli qadın olduğuna görə arvadı onu bərk qısqanır. Bir gün küçədə rast gəldiyi tanışı onunla hal-əhval tutandan sonra işi ilə maraqlanır:

**- Allaha şükür, eşitmişəm Çörək zavodunda işə girmisən, nə qədər alırsan?**



- Əmoğlu, günümə iki çörək verirlər, o da axşam tikələyib arvada and içməyə gedir.

Bu anekdotu oxuyanda yadıma ustad Seyran Səxavətin rəhmətlik qardaşı Xanlar düşdü.

O da rayonda yaşayarkən hər gün çörəkçidən iki çörək artıq alırmış.

Çörəkçi soruşur:

**- Xanlar müəllim, bu qədər çörəyi neyləyirsən?**

- Heç, onun ikisi and içmək üçündü.

# Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralına təbrik məktubu göndərib



**Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda təbrik məktubu göndərib.**

Məktubda deyilir:

"Əziz Qardaşım,

22 fevral - Səudiyyə Ərəbistanı Krallığının Təsis Olunması Günü münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında İslam həmrəyliyi, qardaşlıq, qarşılıqlı dəstək və etimad kimi sağlam təməllər üzərində qurulmuş dostluq və əməkdaşlıq əlaqələrinə böyük önəm veririk. Aramızda mövcud olan yüksək səviyyəli siyasi dialoq bir sıra sahələrdə səmərəli əməkdaşlığımız ilə müşayiət olunmaqdadır.

Ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə Səudiyyə Ərəbistanının ilk gündən göstərdiyi dəstəyini yüksək qiymətləndiririk.

Əminəm ki, qardaş xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Səudiyyə Ərəbistanı əlaqələrinin dərinləşdirilməsi, həm ikitərəfli əsasda, həm beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətimizin bundan sonra da uğurla davam etdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# Yaponiya-Azərbaycan Parlamentlərarası Dostluq Liqasının sədri Prezident İlham Əliyevi təbrik edib

**Yaponiya parlamenti Nümayəndələr Palatasının üzvü, Yaponiya-Azərbaycan Parlamentlərarası Dostluq Liqasının sədri Akira Amari Prezident İlham Əliyevə təbrik məktubu göndərib.**

Təbrikdə deyilir:

"Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Yaponiya-Azərbaycan Parlamentlərarası Dostluq Liqası adından səmimi təbriklərimi çatdırıram.

Diplomatik münasibətlərinin qurulmasının 32-ci ildönümünü qeyd edən ölkələrimizin dostluq və tərəfdaşlıq əlaqələrinin Zati-alinizin dəstəyi ilə daha da möhkəmlənəcəyinə əminəm.

Ölkələrimizin parlamentlərarası münasibətləri davamlı şəkildə inkişaf edir.

1998-ci ildə əsası qoyulmuş Yaponiya-Azərbaycan Parlamentlərarası Dostluq Liqasının keçən il 25-ci ildönümü qeyd edilmişdir. Dostluq Liqasının əsası qoyulduğu gündən sədr olaraq ölkələrimizin əlaqələrinin inkişafı üçün səylərimi əsirgəməmişəm.

Keçən il ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında xüsusi xidmətlərimə görə Zati-alinizin məni "Dostluq" ordeni ilə təltif etməsi şəxsim üçün çox böyük şərəfdir. Azərbaycan-Yaponiya dostluq münasibətlərinin inkişafı üçün bundan sonra da var gücümlə çalışacağam.

Zati-alinizə cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edir, Sizinlə görüşə biləcəyimiz günü səbirsizliklə gözləyirəm".

## *Sahibə Qafarova Ermənistana çağırış etdi: "Konstitusiyanı dəyişdirin"*

**"Azərbaycan Milli Məclisi Asiya Parlament Assambleyasına (APA) mühüm çərçivə kimi baxır".**

Adalet.az-ın məlumatına əsasən, bunu Azərbaycan parlamentinin sədri Sahibə Qafarova Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında çıxışı zamanı deyib.



"Parlamentlərimizi bir araya gətirməklə ölkələrimizin səylərini ümumi məqsədlər üçün daha da səfərbər edirik. Eyni zamanda, bu məqsədlərə nail olmaq üçün parlament bu işə öz töhfəsini verir", - deyə o əlavə edib.

O bildirib ki, APA parlamentlərarası dialoqu dərinləşdirməklə əlaqədar birgə istəyi əks etdirir: "İnanıram ki, təşkilatın institusional potensialının inkişafı əməkdaşlığımızı daha da gücləndirəcək".

Sədr Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən də danışıb. O deyib ki, normallaşma üçün Ermənistan konstitusiyasını dəyişməli və Azərbaycana qarşı ərazi iddialarından əl çəkməlidir.

S.Qafarova bildirib ki, Azərbaycanın Ermənistana münasibətlərin normallaşdırılması və sülh sazişinin imzalanması təklifi beynəlxalq hüququn əsas prinsiplərinə əsaslanır:

"Üç ildən artıq erməni siyasi və hərbi təxribatlarından sonra sülh sazişinin imzalanması hələ də mümkündür", - Sahibə Qafarova bildirib.

## *Asiya Parlament Assambleyasına sədrlik Azərbaycana keçib*

**Azərbaycan Milli Məclisi Asiya Parlament Assambleyasına sədrliyi iki il müddətinə öz üzərinə götürür.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan parlamentinin sədri Sahibə Qafarova Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında çıxışı zamanı deyib.

Spiker qeyd edib ki, qardaş Türkiyədən sədrliyi təhvil almaq qürurvericidir. Onun sözlərinə görə, bu gün humanitar böhranlar, münaqişələr, yoxsulluq, iqlim dəyişikliyi, ayrı-seçkiliyin artması, irqçilik, ksenofobiya və islamafobiya kimi günümüzün aktual problemləri də Asiya regionuna mənfi təsir göstərir:

"Etiraf etmək lazımdır ki, bütün bu çağırışları tək-tək yox, yalnız birgə səylərlə kollektiv şəkildə həll etmək olar. Bu, regionumuzda sülh, təhlükəsizlik, sabitlik və davamlı inkişafa da aiddir.

Təbii, insan resurslarını, müxtəlif sahələrdə əldə etdiyi nailiyyətləri nəzərə alaraq hesab edirəm ki, regionumuz bu çağırışların öhdəsindən gəlmək üçün kifayət qədər imkanlara malikdir".

## *Rəsmi Bakı Makronun səsləndirdiyi iddiaları pislədi*

**21 fevral 2024-cü il tarixində Fransa Respublikasının Prezidenti Emmanuel Makronun Parisdə Ermənistan Baş naziri ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi və Ermənistanı birtərəfli qaydada müdafiə edən əsassız iddialarını qətiyyətlə pisləyirik.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

Bildirilib ki, 30 ilə yaxın müddətdə hüquqları pozulmuş, ərazilərindən didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların hüquqları barədə indiyə qədər heç bir şərh verməyən Fransanın öz istəkləri və heç bir zorakılıq tətbiq olunmadan Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışması tamamilə yersizdir.

Bununla yanaşı, Alma-Ata bəyannaməsi və müəyyən xəritələr çərçivəsində ərazi bütövlüyünün vacibliyinə toxunan Fransa tərəfinin, nəyə görə məhz bu kimi razılaşmalara zidd olaraq 30 ilə yaxın müddətdə davam etmiş Ermənistan təcavüzünə və Azərbaycan ərazilərinin işğalına, habelə hal-hazırda Ermənistanın Azərbaycanın 8 kəndini hələ də işğal altında saxlamasına qarşı çıxmaması sualına aydınlıq gətirməsi daha faydalı olardı.

Heç bir təhrikedici amil olmadan 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistanın tənqid edilməsi əvəzinə, Azərbaycanın qeyri-proporsional cavab tədbiri görməkdə təqsirləndirilməsi qəbuledilməzdir və bu kimi qərəzli yanaşmalara son qoyulmalıdır.

Fransanın bölgədə yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasətin heç bir nəticə verməyəcəyini bir daha bəyan edirik.

<u>*Aqil ABBAS*</u>

# BMT, SƏN HANSI YIRTIĞA YAMAQSAN?

***Əziz oxucular, mən adətən Birləşmiş Millətlər Təşkilatı deyil, Birləşimiş Millətlər Çayxanası yazıram. Çünki o təşkilatın dedi-qodu yığıncağı olan çayxanadan heç bir fərqi yoxdur. Eləcə də bu təşkilatı heç filan yerinə alan da yoxdu. Gözünün qabağında Ermənistan azərbaycanlıları vəhşicəsinə qırdı, soyqırım törətdi, şəhər və kəndlərimizi dağıtdı. Bir məlum 4 qətnamə çıxartdılar, o qətnamələri də Ermənistan burnunu, bəlkə də filan yerini silib atdı. Özü də bu qətnaməni çıxaranların üçü dünyanın hegemon dövlətləri idi və Təhlükəsizlik Şurasının üzvləri idi. Həmin dövlətlər sonra bir girdirmə ATƏT yaratdılar, həmin ATƏT də bir təs yeyə bilmədi, daha doğrusu, yemək istəmədi. Məcbur olub həmin təsi onlara biz yedirtməli olduq.***



***İndi də gözünün qabağında Rusiya-Ukrayna müharibəsi pik həddindədi, on minlərlə insan həlak olub, şəhər və kəndlər də bizim Ağdamın gününə düşüb.***

***Gözünün qabağında İsrail-Fələstin müharibəsi davam edir. İndiyəcən 30 min adam ölüb, sən də boş-boş heç kimə lazım olmayan bəyanat verirsən, ərəbləri sülhə çağırırsan.***

***Bir dəfə Sovet hökuməti, bir dəfə də ABŞ Əfqanıstanı darmadağın elədi, susdun.***

***Çox yazmaq olar, oxucunu yormayım. İndi də nənəyin yaylığını götürüb hönkür-hönkür ağlayırsan ki, Sudanda on milyon insan yurdundan-yuvasından qaçqın düşüb və aclıqdan əziyyət çəkir. Mən də eşidib ağlayıram, sən də. Day nə fərqimiz var ki? Mən yetim oğlanam, əlim çatmır ağlayıram, sən ki yetim deyilsən? Yüzdən çox üzvün var, buyur, üzv olan dövlətləri məcbur elə hər biri öz imkanı daxilində Sudandakı acından qırılan camaata ərzaq yardımı eləsin.***

***Amma səndə adında olan "G" yoxdu, cənab G.t.teriş.***

# ƏHSƏN OL MURAD DADAŞOVA Kİ!

**Üzeyir bəyin "Leyli və Məcnun"u ilk dəfə səhnəyə qoyulanda dövri mətbuatda bu opera haqqında palaz-palaz tərifli yazılar getmişdi. Yalnız Mirzə Cəlil bu qiymətli sənət əsəri haqqında bircə cümlə yazmışdı: "Əhsən ol sənətkara ki, üç yüz milyonluq müsəlman xalqını bir yerə cəm edib huşi-guş ilə üç saat bir nöqtəyə baxmağa məcbur elədi".**

**İndi fevralın 20-də "Xəzər" televiziyası görkəmli xanəndə, muğam ustadı Arif Babayevin 86 yaşının tamam olması ilə bağlı ad günü keçirtdi. "Xəzər" möhtəşəm bir veriliş təqdim etdi. Və inanıram ki, həmin veriliş televiziyalarımızın həmin günki proqramlarından daha çox reytinq yığdı. Aparıcı Lalə xanıma da eşq olsun, aparıcılıq qabiliyyətini, savadını, muğamımıza, Arif Babayevə sevgisini əla nümayiş etdirdi.**

**Mən də bir az uzun yazdım. Əslində bircə cümlə yazmalıydım: "Əhsən ol Murad Dadaşova ki, on milyonluq Azərbaycan xalqını bir yerə cəm edib üç saatdan artıq bir nöqtəyə baxmağa məcbur elədi".**

## *Pentaqon silahlanma xərclərini 10 milyard dollar azaldacaq*

**Pentaqon 2025-ci maliyyə ilində ABŞ-ın borc tavanı ilə bağlı əldə edilən razılaşmaya uyğun olaraq yenidən silahlanma xərclərini təxminən 10 milyard dollar azaldacaq. "Politico" qəzeti bu barədə öz mənbələrinə istinadən məlumat yayıb.**

ABŞ prezidenti Cozef Baydenin 2023-cü ilin iyun ayında dövlət borcu tavanına dair imzaladığı qanun layihəsi federal qurumların xərclərinin bir faiz azaldılmasını nəzərdə tutur. Beləliklə, Pentaqonun 2025-ci maliyyə ili üçün 850 milyard dollardan bir qədər az maliyyə sorğusu təqdim edəcəyi gözlənilir. Bu rəqəm 2023-cü ilin martındakı sorğu ilə müqayisədə 10 milyard dollar azdır.

Mənbənin məlumatına görə, ABŞ Müdafiə Nazirliyi əməkdaşlarının maaşlarını azaltmaq fikrində deyil. Odur ki, büdcə ixtisarı Silahlı Qüvvələrin yenidən silahlanması xərclərinin azaldılması hesabına həyata keçiriləcək.

Pentaqon F-35 qırıcılarının alınması xərclərini 18 faiz azaltmağı, əvvəlcə planlaşdırıldığı kimi, iki deyil, bir ədəd "Virciniya" sinfinə aid atom sualtı qayığı almağı, köhnəlmiş "OH-58 Kiowa" kəşfiyyat helikopterlərinin dəyişdirilməsi planından imtina etməyi, həmçinin "UH-60 Black Hawk" helikopterlərinin modernləşdirilməsi proqramını məhdudlaşdırmağı planlaşdırır.

**Qeyd edək ki, yanvarın əvvəlində ABŞ-ın dövlət borcu 34 trilyon dolları ötüb. 2023-cü ildə bu göstərici 4 trilyon dollardan çox artıb.**

# MƏNFUR SOVET HÖKUMƏTİ VAXTI "ƏXLAQ" DƏRSİ VARDI

*Bu dərsi də adətən ”Tarix” və ”İctimaiyyət” müəllimləri deyirdi. Deyəsən, indi ”İctimaiyyət” dərsi keçmirlər. Eləcə də ”Əxlaq” dərsi vardı. Bu dərsdə müəllimlər şagirdlərə özlərini necə aparmalı olduqlarını, bir-biriləri ilə münasibətlərində necə rəftar etmələrini, müəllimlərə necə münasibət göstərmələrini, valideynləri ilə münasibətləri necə tənzimləməli olduqlarını və sair və ilaxır öyrədirdilər. Özü də çox qəribədir ki, ”Əxlaq” dərsindən ”2” alan uşaqları məktəbdən qovurdular.*

*Hər bir rayonda internat məktəbi vardı, belə uşaqları ora yönləndirirdilər. Ya da bir məktəb nizam-intizamda xüsusilə fərqlənirdi, valideynləri belə uşaqları həmin məktəbə aparırdılar.*

*Ağdamda 3 nömrəli bir məktəb vardı, ”Surxay müəllimin məktəbi” deyirdilər. Surxay müəllim Makarenko tipli bir məktəb direktoru idi. Məktəbdə o qədər güclü nizam-intizam yaratmışdı ki, uşaqlar oranı ”gestapo” adlandırırdı. Bir dəfə bu barədə yazmışam, təkrar etmək istəmirəm. Mənim bir xalam oğlu vardı, Cahid Allahverdiyev, həddindən çox davakar idi. 5 nömrəlidən qovmuşdular 1 nömrəliyə, 1 nömrəlidən qovmuşdular 8 nömrəliyə, 8 nömrəlidən qovulanda atası hətta aparıb Qəbələdə məktəbə qoydu ki, bir qədər Ağdamdan uzaq olsun, dostlardan uzaq olsun.*

*Sonra da orda nəsə oldu atası gətirib verdi Surxay müəllimin öhdəsinə. Az keçmədi Surxay müəllim onu elədi quzu balası. Yaxşı oxumağa başladı, məktəbi qurtarandan sonra da getdi girdi Polis Akademiyasına və indi mayor rütbəsində təqaüddədir, 3 nömrəliyə nadinc, dəcəl uşaq kimi köçürülən şagirdlərin arasında indi alim var, yazıçı var, mühəndis var və sair və ilaxır.*

*İndi Surxay müəllim kimi məktəb direktorları yoxdur. Demək olar ki, direktorların 90-95 faizi zərif cinsin nümayəndələridi, qadınlardı. Təbii ki, onların içində təcrübəli, zabitəli, elə Surxay müəllim xasiyyətdə olan qadınlar da var, amma təəssüf ki, çox azdır.*

*Yadınıza düşürsə, bu yaxınlarda bir məktəb direktoru bir şagirdi yüngül bir şillə ilə cəzalandırmışdı, media və sosial şəbəkələr partlayırdı.*

*Türklər deyir, ”Hoca vuran yerdə gül bitər”, amma bizdə hoca vuran yerdə özü linç edilir, hətta məktəbdən qovulur, valideynlər üstünə hücum edir.*

*Mən də vaxtilə müəllim olmuşam deyə müəllimlərin vəziyyətini çox gözəl bilirəm. Hətta bu barədə Parlamentdə də danışmışam.*

*Və məni həmişə bir şey təəccübləndirib, niyə ”Əxlaq” dərsi məktəblərdən yığışdırılıb? Bizə əxlaq lazım deyilmi? Və bizə əxlaq lazım olmayanda, ”Əxlaq” dərsi keçirilməyəndə 156 saylı məktəbdə olan hadisələr baş verir.*

*Yeri gəlmişkən,mənfur Sovet zamanı attestatların adı ”Kamal” attestatı idi. Orta məktəb ali məktəb üçün kadr hazırlayan təşkilat deyil, orta məktəb cəmiyyət üçün sağlam düşüncəli, kamil insan yetişdirən bir təşkilatdır. İndi attestatlardan ”kamal” sözü də yığışdırılıb. Deməli, bizə day ”kamal” da lazım deyil.*

*Uzun sözün qısası, nə qədər ki müəllimlər basqı altında qalacaq, 3500 manatlıq telefonla dərsə gələn şagirdlərdən və onların valideynlərindən çəkinəcək, orta məktəblərimiz kamil insan deyil, 156 saylı məktəbdə öz məktəb yoldaşlarını linç edən şagirdlər yetişdirəcək.*

*Və sonda. 1976-cı ildə Ağsu şəhərində internat məktəbdə müəllim işləyirdim. 10-cu sinifdə bir şagird özünü çox yekəbaş aparırdı. Mən də 22-23 yaşlarında universiteti təzə bitirmiş dəliqanlı bir oğlan idim. Həmin şagirdi saldım şapalağın altına, eşşək sudan gəlincə, biz tərəflərdə də eşşək sudan gec gəlir, möhkəm çırpdım. Ağzı-burnu da qanadı, dərsdən də qovdum. Aləm dəydi bir-birinə. Məktəbin direktoru Nadir müəllim dedi ki, səni tutacaqlar, məni işdən çıxaracaqlar. Maarif müdiri də bərk qorxmuşdu, zəng elədi ki, sən neyləmisən, hamımızı zibilə salmısan. Döydüyün şagird rayon prokurorunun oğludur. Nə isə, dedim yaxşı eləmişəm, özünü adam kimi aparaydı döyməyəydim. Səhəri günü məni çağırdılar prokurorun yanına. Getdim. Yerindən qalxıb mənimlə görüşdü, üzbəüz oturdu, çay gətirtdi, dedi:*

*- Müəllim, uşaq bir həftə dərsə gəlməyəcək. Çünki səndən sonra özüm onu möhkəm döymüşəm. Demişəm ki, sən nə qələt eləmisən ki, müəllim səni bu günə qoyub.*

*Nə məni tutdular, nə də direktoru işdən çıxartdılar.*

*Belə kişilər vardı ey.*

*Amma onu da deyim ki, ondan sonra məktəbə girəndə ən şuluq şagirdlər də özlərini yığışdırırdılar.*

# YENƏ POLİSİ HƏDƏFƏ GÖTÜRÜBLƏR

*Yenə polis hədəfə alınıb. O polis ki ölkənin əmin-amanlığını qoruyur. O polis ki Vətən müharibəsində bu torpaq üçün canından keçir, bizim evdə rahat yatmağımızın və şəhərdə sərbəst gəzib-dolaşmağımızın qarantıdır. Eyni zamanda cinayətkarlarla mübarizədə canını fəda etməkdən çəkinmir.*

*Konstitusiyamıza görə, 8 saatlıq iş günüdür, amma polis bizim əmin-amanlığımıza görə məcbur olub 15-16, bəzən 17 saat işləyir, gecəsi-gündüzü yoxdur. Yolda maşının xarab olur - polis, maşının qarda batıb, yenə polis imdada çatır. Halbuki bu, onların vəzifə borcu deyil.*

*Yaxşı yadımdadır, Xalq Cəbhəsinin gurhagur vaxtı idi, hələ hakimiyyətə gəlməmişdilər. Bütün mətbuat qalxmışdı Daxili İşlər Nazirliyinin üzərinə. Jurnalistlər vurhavur yazırdılar ki, Daxili İşlər Nazirliyi kimə lazımdı? Onda belə bir məqalə ilə çıxış elədim ki, xanımınla küçədə gedirsən, bir xoşagəlməz hadisə baş verdi, ay yoldaş jurnalist, əgər DİN ləğv olunsa onda kimə müraciət edəcəksən, Jurnalistlər İttifaqına?*

*Polisin gözdən salınması təkcə cinayətkarlığın artmasına səbəb olmur, həm də dövlətin laxlaması deməkdir.*

*İndi belə bir müzakirə gedir ki, 5 nəfərin qatilinə kim sürücülük vəsiqəsi verib? Sürücülük vəsiqəsini Dövlət Yol Polisi verir, vəsiqə almağa gələnlər isə polisdə tibbi müayinədən keçmir. Hansısa bir poliklinikadan sağlamlıq kağızı alır, amma bu kifayət deyil. Ondan sonra Narkoloji dispanserdən və Psixiatrik xəstəxanadan həmin müəssisələrdə qeydiyyatda olmadığı barədə arayış gətirir. Və bu arayışlardan sonra imtahana buraxılır. Və əgər həmin şəxs narkomandırsa və ya psixi xəstədirsə, buna Dövlət Yol Polisi məsuliyyət daşımır. Məsuliyyəti həmin şəxsə sağlamlıq arayışı verən Narkoloji dispanser və Psixiatrik xəstəxana daşıyır.*

*Bunu hər bir sürücülük vəsiqəsi alan da, sadə insanlar da bilir. Amma nədənsə dünyanın bütün ciki-bikini bilən jurnalistlər özlərini elə aparırlar ki, guya bilmirlər. Reytinq xətrinə polisi hədəfə alırlar. Ay sizin reytinqinizə quzum kəsim. Siz polisi hədəfə aldıqca, özünüz cinayətkarların hədəfinə çevrilirsiniz, bunu bilirsinizmi?*

*Unutmayın ki, polis bizim atamızdı, qardaşımızdı, övladımızdı, bacımızdı. Eləcə də əgər araşdırsaq görərik ki, polisi hədəfə götürən jurnalistlərin nə qədər qohum-əqrəbası həmin sistemdə çalışır. Və polisin necə fəaliyyət göstərdiyindən az-çox xəbərləri var.*

*70-ci illərdə təsərrüfat rəhbərləri səhər saat 6-da, hələ uşaqları yuxudan durmamış işə gedirdilər, evə də uşaqlar yatandan sonra gecə saat 1-2-də dönürdülər. Onda belə bir anekdot çıxmışdı.*

*Bir gün kolxoz sədri evə tez gəlir. Uşaq nəhayət, atasını görür, amma təbii ki, tanımır. Məktəbli oğlu ona hücum edib deyir:*

*- Sən kimsən və bizim evdə nə gəzirsən?*

*İndi polis işçiləri də həmin kolxoz sədrləri kimi, yuxarıda qeyd etdiyim kimi, səhər saat 6-da uşaqları hələ oyanmamış evdən çıxır, evə gecə saat 1-də uşaqları yatmış olanda dönür. Dövlətçiliyimizin xatirinə, xalqın əmin-amanlığı xatirinə, bizim xatirimizə!*

*Və unutmayın ki, polis maaşı 8 saatlıq iş gününə alır. Əl çəkin polisi hədəfə almaqdan, ən azı öz xətrinizə görə.*

# QURBAN QURBANOVUN AYĞIR ATLARI



**Adətən ”Qarabağ” komandasına ”köhlən atlar” deyirlər.**

**Bilirsiniz, Qarabağ atları dünyanın ən gözəl atları sayılan ərəb atlarından nə ilə fərqlənir? Ərəb atları boylu-buxunludur və kiçik məsafədə Qarabağ atlarını ötürlər, amma uzaq məsafəyə qaçışda Qarabağ atları ərəb atlarını yolda qoyub, ”siz gözləyin, biz gəlirik” deyə ötüb keçirlər. Qarabağ atlarının döşləri geniş, enlidir, nəfəsləri çoxdur.**

**Başqa bir fərqi ondadır ki, Qarabağ atları manevrli atlardı, döyüş atlarıdır. Düşmənin nizələrindən, qılınclarından həm özü sıyrılıb çıxmağı bacarır, həm də üstündəki igidi qəfil zərbələrdən qoruyur. Bundan başqa, döyüş zamanı həm qabaq ayaqları ilə, həm də ağzı ilə parça-parça edir (necə ki Portuqaliyada ”Braqa”nı parçaladılar).**



**Təmiz qanlı Qarabağ atını qaşovlayırsan çıxarırsan günəşin altına, üstündə abbası boyda qızıl pullar parıldayır, qızıl balıq kimi.**

**İşğaldan əvvəl Ağdamda məşhur Atçılıq zavodu vardı, Qarabağ atlarını orda yetişdirirdilər. Bu atları yetişdirən də bir nəsil idi. Və bu nəsil zavodun sahibi İsmayıl bəy tərəfindən 100-150 il əvvəl Qazaxdan gətirilmişdi.**

**70-80-ci illərdə bu nəslin nümayəndəsi Əli adlı bir oğlan idi.**

**Mən tez-tez bu zavoda gedər, atlara baxmaqdan, ilxının qaçışından ləzzət alardım.**

**Bir dəfə Əli bəy qəribə bir söhbət elədi. Heç demə, SSRİ Müdafiə Nazirliyinin əmri ilə atlar rus dilində təlim keçməliymiş, həmişə də belə edirmişlər. SSRİ-də keçirilən yarışlarda çempion ola bilmirmiş Qarabağ atları. Bir dəfə növbəti çempionata hazırlaşarkən Əli bəy atlara Azərbaycan dilində təlim keçir. Yenə də aparır çempioanata, təhvil verir rus çaparlara. Çapar nə qədər edir at onun sözünə baxmır. Müdafiə Nazirliyinin məsul işçisi Əli bəyə qəzəblənir. Əli bəy də deyir ki, icazə verin bu çempionatda atımı özüm çapım. Məcbur olub razılaşırlar və Əli bəyin çapdığı at çempion olur. Elə adı da Çempion qalır.**

**Amma bu, Əli bəyə baha başa gəlir. Müdafiə Nazirliyi Ağdam rayon Partiya Komitəsinə rəsmi məktub yazaraq təlimçinin cəzalandırılmasını tələb edir. Az qalıblarmış ki, onu partiyadan və işdən çıxardalar.**

**Deyəcəksiniz bunun futbola nə dəxli var? Çox dəxli var, xüsusilə də xaricdən gətirilən məşqçilər, həmin o rus çaparı kimi, bizim nəinki atlardan, nə də xalqımızın dilindən, mentalitetindən xəbəri yoxdur.**

**Ayğırın köhlən atdan fərqi odur ki, ayğır ipə-sapa yatmır, nəfəsi doğma olmayan heç kimi yaxına buraxmır, yerlə-göylə əlləşir.**

**İndi Qurban Qurbanovun köhlən atları əslində ayğırlardır. Təlimçisi də onların dilini bilən, mentalitetini bilən, doğma nəfəsini hiss etdikləri xocamız Qurban Qurbanovdur.**

**Ona görə də uzun illərdir bu ayğırlar Avropanı tapdaq-tapdaq eləyib, kişnərtiləri də bütün dünyaya yayılıb.**

**Allah qorusun, xüsusilə də gözdən-nəzərdən.**

**Hələ görün Ağdam abadlaşandan sonra bu komanda yeni tikilən İmarətdə necə şahə qalxacaq?**

# SOVET HÖKUMƏTİ İT BOĞUŞDURMAĞI QADAĞAN ETMİŞDİ

**Amma gizlicə Bakı şəhərində, bəzi rayonlarda it boğuşdururdular. Yaxşı da tamaşaçı yığılırdı. Hətta bəzi həvəskarlar var idi ki, tamaşa üçün durub Bakıdan rayonlara gedirdilər və yaxud rayondan Bakıya gəlirdilər. Hələ xoruz döyüşdürməsi də vardı. Bizim Qədir Rüstəmov da xoruz döyüşdürməsini sevərdi. Daşkənddən dostları ona bir adamyeyən xoruz göndərmişdilər, onu elə bəh-bəhlə saxlayardı ki, qoz-fındıq yedirdərdi.**



İndi it boğuşdurmaq və xoruz döyüşdürmək qadağandır və deyəsən, qadağa da möhkəm işləyir. Çünki hələ belə bir hadisənin nə şahidi olmuşam, nə də eşitmişəm.

Görünür, day buna ehtiyac yoxdur. Çünki özəl kanallar bu missiyanı öz üzərinə götürüb.

Hər gün demək olar ki, bir neçə kanalda təbii ki, it yox, adam boğuşdururlar.

Və heç kim də buna əhəmiyyət vermir. Heç kim deyəndə, dövlət qurumlarından danışıram. Ona görə də ötən il ölkədə boşananların sayı 40 faizi ötüb, məişət qətlləri artıb, hətta dava-dalaş orta məktəblərə də sıçrayıb. ”İctimai” Televiziyada maraqlı bir veriliş gedir: ”Sabaha saxlamayaq”.

Yaxşı olar ki, bir-iki verilişi də yuxarıda qeyd etdiyim məsələyə həsr etsinlər.

**Yoxsa, sabaha saxlasaq, gec olacaq.**



*Mir Şahin Ağayev*

## Deyasən, nəyisə sonadək izah edə bilməmişəm

**Bəzi ”qınaq ustalarına”:**

**-guya belə videoların yayıması qınaqdır...**

**Əvvəla, təcrübə göstərir ki, belə ”ictimai qınaqların” ciddi mənada heç bir faydası yoxdur. Çünki məzmununun mühüm bir hissəsini ”deşikdən baxan yengə”, ”qızını döyməyən dizini döyər” düşüncəsi tutan korafəhim zehniyyət belə ”qınaqlara” tədbir-təsir vasitəsi tək yox, sadəcə öz səviyyəsiz zövqünün gözünü, qarnını doyurmaq aləti tək baxır. Burda onlarla misal çəkə bilərəm ki, hər biri mənim nə qədər haqlı olduğumu sübut edər. Məsələn: hanı bir müddət əvvəl öz yaşıdını döyən və bu aktın videosunu yayan məktəbli əhvalatının sonu? Məşqçisinin məşq zamanı öldürdüyü cocuq..Başqa bir körpə balamızın hekayəti: gərək ki, ayaqyoluna gedə bilmirdi.. Bunlar olsun uşaq məsələsi. Bəs böyüklər necə: ((( İdmançını döyərək videoya çəkən idmançıların hərəkətini yaxşı ”qınamadıq” ki? Bəs Goranboyda xəstəxananın direktorunun döyülməsi... əla ”qınamaqdayıq” axı. Əlillik üçün gələn idmançı cüssəlini necə? Onun vurun çənəsini sındırdığı şəxs də müharibə iştirakçısı idi...Əhmədin qətlini deşikdən izlədik-”qınadıq”. Bu ”ictimai qınaq” faktları bir-birini doğurdu, ya bir-birinin qarşısını aldı?... Dediyim bidur ki, bu gün virtual məkanda, onun sosial şəbəkə seqmentində sadəcə hərc-mərclikdir. Nə ictimailəşdirmə, hansı ictimailəşdirmə? Kömək etmək, əl uzatmaq zamanı çəkiliş etməyək.**

**Kənardan durub baxmayaq. Əgər çəkməyə bilmiriksə, çəkiriksə, yaymayaq!!! Çəkdiyimizi aparıb təqdim edək hüquq-mühafizə orqanlarına! Bu fakt barədə, yəni müraciət etməyimiz barədə məlumatı paylaşaq! Bunu nəzarətdə saxlayaq. Reaksiya olmasa bu etinasızlığı qınayaq: ”qınaqçılar”!) Amma belə eləmirik, polisə vermirik, çünki ”işverən” deyər hansısa zırrama. Yayırıq! İctimailəşdirmək adına-hələ**

**həyatı sonadək anlamayan balalarımızın gələcəyinə balta çalırıq! Qınaq üçün deyil, çox bəyənilmək, çox baxılmaq üçün paylaşırıq bu videoları. Guya bunu cəmiyyətin diqqətinə**

**çatdırmaq üçün edirik. Amma əslində çox pis iş tuturuq! Mən bundan danışıram. Tədris olunmalıdır sosial şəbəkələrlə davranış: məktəblərdə, hətta bağçalarda! Mənə nəyi və necə yazmağı öyrətmək lazım deyil. Valideyn məsuliyyəti! Əsas olan budur! Məktəb uşaqların reablitasiya mərkəzi deyil. Məktəbə normal uşaqlar, ailə tərbiyəsi görən balalar göndərək məktəbə, bəlalar yox! Özümüzün görmədiyimiz işə görə kənarı günahıandırmayaq! SOS! SOS!! SOS!!!!!!ial şəbəkələrlə düzgün rəftar edək! Bu seqment qura bildiyi kimi, qıra, dağıda da bilir!**

## MƏTBUAT ƏHMƏD ƏHMƏDOV ÜÇÜN YAXŞI İŞLƏYİR



**Saytlar və sosil şəbəkələr bütün gücü ilə bu qatilin istintaqına mane olur, onun dəli olduğunu sübut etməyə çalışır. Bu qatili ömürlük cəzadan xilas eləmək üçün qohum-əqrəbaları mətbuata ciddi yardım edirlər. Axtarıb tapırlar ki, haçansa Psixiatriya xəstəxanasında yatıb, ona elə bir diaqnoz qoyublar ki, nə sülh vaxtı, nə də müharibə vaxtı orduda qulluq edə bilməz.**

Yəqin ki, kənardan hansısa bir qüvvə çalışır ki, qatili dəli çıxarsın və onu göndərsin dəlixanaya, 1 il, ya 2 il dəlixanada yatmaqla yenidən azadlığa çıxsın. Yenidən əlinə balta götürsün, istənilən adamı və ya deyilən adamı baltalasın.

Mən inanmıram ki, istintaq orqanları bu küyə gedə. Müstəntiq deyiləm, amma çox gözəl anlayıram ki, bu qatil dəli-filan deyil.

Azərbaycanda belə bir söz var, biri dəlilik edəndə deyirlər ki, əşi, fikir verməyin dəlidi. Onun dəlilik etdiyi adam da qayıdıb deyir:

”Dəlidi, getsin öz başını vursun divara”. Onun şəklinə baxın, idmançı yaraşıqlı bir oğlandı və üz-gözündən də dəlilik tökülmür.

**Yəqin ki istintaq orqanları bizim bilmədiyimiz çox həqiqətləri üzə çıxaracaq. Gözləyək, istintaqa mane olmayaq və özümüzdən Amerika kəşf etməyək.**

# Ləzzət və peşmançılıq

**Ləzzət sözü dilimizdə xoşa gəlmək, bəyənmək, həzz vermək, zövq almaq və s. kimi müxtəlif mənalarda işlədilir. Belə ki,insanın yaşadığı dünyada kifayət qədər gözəlliklər var və hər bir ağıllı insanın həmin gözəlliklərdən normal qaydada ləzzət alması üçün də imkan və şərait mövcutdur. Məşhur rəssamın yuxusuz gecələrinin şahidi olan ən gözəl rəsm əsərinə baxmaq, qədim ustad memarın yaratdığı müqəddəs qadın heykəlinə tamaşa etmək, yüksək dağlardan iti surətlə axıb gələn şəlalənin töküldüyü yerdə yaratdığı heyrətləndirici mənzərəyə baxmaq, qəlbi istək və məhəbbətdən yanan bülbüllərin gül bağçasında böyük həvəslə və cəh-cəhlə nəğmə oxumasını dinləmək, dağ qoynunda və meçə ətəyində ciyərlərə işləyən saf və təmiz havanı udmaq, zümzüməli bulaqların gözündən buz kimi ürəklərə məlhəm olan soyuq və şəfaverici sudan içmək, təbii çəmənliklərdəki təbiətin toxuduğu əlvan çeşnili xalçalara diqqət etmək və gül-çiçəyin bihuşedici xoş ətrini duymaq, təbiətin qoynunda göy otların üstündə oturub muğam üçlüyünün ifasında qəlbə məlhəm olan möhtəşəm muğamlarımızdan feyzyab olmağın nə qədər xoş hisslər və şirin ovqat yaratdığını təkcə Allah bilir. Lakin ləzzət almağın da müəyyən vaxtı, yeri, ölçüsü-qədəri, həddi-hüdudu və öz halallığı vardır. Çünki, bu qoca dünya eyş-işrətə və ləzzətə uyan, həddini aşdığına görə öz sayıqlığını və ona tapşırılan vəzifəsinə nəzarətini itirən və ifrat dərəcədə ləzzətin dadına və şirinliyinə aludə olan çox hökmdarları taxtdan salmış, igid və cəsur sərkərdələrin boynunu vurdurmuşdur.**

Ləzzətdən asılı vəziyyətə düşmüş, öz müstəqilliyini itirən yüksək çinli məmurları vəzifədən uzaqlaşdırmış, qayda-qanunu pozan neçə-neçə adamların edam edilməsinə və müxtəlif cəzalar almasına səbəb olmuşdur. Öz şəxsi hisslərini cilovlaya bilməmək, ləzzətin quluna çevirilmək cəmiyyətin özəyi sayılan bir çox ailələrin dağılmasına, ev-eşiksiz qalmasına, günahsız uşaqların nəzarətsiz yaşamasına şərait yaratmışdır. Ləzzət həddi, sərhədi aşanda o insan üçün, xüsusilə gənc nəsil üçün ən böyük bəla olur. O tütündən istifadə,narkotik vasitə və psixotrop maddədən asılılıq, spirtli içkilərə aludəçilikdən də qorxulu və yırtıcı bir düşmənə çevirilir. Ona görə ki, bütün pis vərdişlərə yol açan, insanları şirnikləndirən, düz yoldan azdıran elə onların beynində yaranan müvəqqəti və aldadıcı ləzzət hissidir. Ləzzət hissi mənəm-mənəm deyən çox oğlanların bəxt qapılarının bağlanmasına, onların müflisləşməsinə, əmlaklarının əlindən çıxmasına, ailədə, el-oba içində, cəmiyyətdə hörmətsiz və etibarsız vəziyyətə düşməsinə, eləcə də çoxlu xəstəliklərə, ölümlərə, müxtəlif növ intiharlara, saysız faciələrə və bədbəxtliklərə səbəb olmuşdur.

Ləzzət dedikdə hər hansı bir şeydən (obyekdən,vasitədən) duyulan dad, tam, şirinlik, xoş hiss və s. kimi başa düşülür. Bir şeydən (obyekdən) ləzzət almaq üçün onu əvvəlcə bəyənmək, ondan həzz və zövq almaq, qəlb dolusu xoşlamaq, həvəs və istəklə onu qəbul etmək vacibdir. Bir şey (yemək-içmək və b. ) bizə ləzzət verdikdə isə o həqiqətən ürəyimizcə olur, zövqümüzü və könlümüzü oxşayır, qəlbəyatımlı olur, onu sözsüz bəyənirik. Əyər insanda həvəs, istək və məhəbbət yoxdursa, o ləzzətin nə olduğunu bilməz. Ləzzət bir dad hissi olub, razılığı, xoşlamağı bildirməklə məmnunluq hissini ifadə edir. İnsan daim həyatı boyu işığa, gözəlliyə can atdığı kimi, o, həmişə ləzzətə çatmağa da çalışır. Ləzzət xoşhallıq, rahatlıq, şən əhval-ruhiyyə deməkdir. Lakin alınan maddi və mənəvi ləzzət zəhmətlə, yəni alın tərilə qazanıldıqda halal, daha gözəl və möhtəşəm olur. Bəzən isə heç halalıq yada düşmür. Qeyri- qanuni yollarla, başqasının əməyi, istismarı və ya maliyyə vəsaiti, əmlakı hesabına ləzzət əldə edənlər meydana çıxır. Onlar aldatma, dələduzluq, hədə-qorxu gəlmə, soyub- talama ,vəzifədən sui-istifadə etmə, oğurluq, quldurluq, koorupsiya, silahlı basqın və s. yollarla ləzzət almaq, öz istək və arzu, meyl-maraqlarını yerinə yetirmiş olurlar. Lakin çox keçmir ki, belə nadan insanların, xüsusilə hələ həyatda bərk-boş nə olduğunu bilməyən başıpozuq gənclərin müvəqqəti qazandıqları həmin ləzzət və həzz onları həbs, peşmançılıq, maddi və mənəvi zərər, biabırçılıq və rüsvayçılıq kimi vəziyyətlərlə üzləşdirir. Yaşadığımız cəmiyyətdə hələ də pis vərdişləri ləzzət mənbəi kimi qəbul edən bəzi nadan insanlar, xüsusən təcrübəsiz gənclər vardır. Asan üsulla və qeyri qanunu yollarla ləzzət duymaq, əldə etmək eşqi hələ qədim zamanlardan mövcud olmuşdur. Həmin qeyri-qanuni, yəni halalıq qazanmayan ləzzətin mənbəi elə nəfs özüdür. İslam peyğəmbəri Məhəmməd əleyhissalam hədislərin birində buyurmuşdur: ” İnsanların ən sücaətlisi, öz nəfsi istəytinə qalib gələn şəxsdir”, ”Pəhləvan camaata qalib gələn deyil, öz nəfsinə qalib gələn kimsədir”.

İmam Əli əlleyhissalamın bir məşhur kəlamı əsrlər keçsə də bu gün də çox aktual səslənir: ”Nadan öz nəfsinin, istəyinin quludur”, ”Sizi nəfsi istəkdən uzaq durmağı tövsiyə edirəm. Çünki nəfsi istək korluğa çağırır və o dünya və axirətdə azğınlıqdır”.

Dünyada ləzzət, maddi və mənəvi maraq, eləcə də şəxsi istəklə bağlı baş verən zorakılığı, cnayət hadisələrini və terorçuluğu tədqiq edən mütəxəssislər dünya ölkələri arasındakı cinayət nisbətini müqayisə etmişlər. Bir sıra ölkələr yer üzünün cənnət-məkanı, bəziləri isə cəhənnəm vadisi hesab olunmuşdur. Məsələn, Avropa qitəsində Avstriyada yaşayan 9 milyon əhali arasında 2023-cü ildə cəmi 40 cinayət hadisəsi baş vermişdir. Ancaq qitənin digər ölkəsi İsveç isə cinsi zorakllığa görə Avropada birinci yerdə qərar tutmuşdur.

Respublikamızda hüquq-mühafizə orqanları ölkə vətəndaşlarının qanuni hüquqlarının qorunmasına vicdanla yanaşır, bu sahədə onların üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirirlər. Azərbaycanda son 20 ildə törədilən cinayət hadisələrinin statistikası diqqətlə təhlil edilib. Məlum olub ki, 2003-2023-cü illərdə ölkədə özünün maraq, istək və ləzzət hissini həyata keçirmək istəyən 24 minə yaxın cinayətkar qrup və dəstə zərərsizləşdirilmiş, şəxsi məqsədlərə xidmət etmək üçün qanunsuz saxlanılan 22 mindən çox silah yığılmış, 20 tona yaxın narkotik vasitə qanunsuz dövriyyədən çıxarılmışdır.

Lüğətdə peşmançılıq sözü peşman olmaq ,təəssüflə, təəssüf hissilə, gördüyü bir işə sonradan təəssüflənmək, peşmançılıq çəkmək, xəcalətli olmaq, özünü üzmək,özünü danlamaq, məzəmmət etmək və ya lənətləmək kimi izah olunur. Peşmançılıq verməyən ləzzət insanda əsl rahatlıq və xoş ovqat yaradan bir hissdir. Dərin ağıllı insanlar kamil və yetkin şəxsiyyət kimi ailədə və cəmiyyətdə öz layiqli yerini tutan şəxslərdir. Onlar həyatda heç zaman aldığı ləzzətdən peşman olmazlar.Çünki o şəxslər görəcəyi hər işi, hərəkəti və əməli qabaqcadan yüz dəfə ölçüb-biçər, sonra isə yerinə yetirərlər. İnsanın ən böyük düşməni onun nəfsidir. Nəfs bəzi nadan, səbirsiz, zəif və dayaz düşüncəli insanların, o cümlədən, həyatda heç bir çətinlik görməyən, hələ də ana-ata himayəsində gün keçirən bəzi gənclərin əl-qolunu bağlamaqda çətinlik çəkmir.Xüsusilə, şəhvət hissi belə insanlara qalib gəldikdə onların heyvani hissləri insani hisslərini üstələyir. Yaşamağın dadını, ləzzətini duymaq böyük xoşbəxtlikdir. Bu dadın, ləzzətin duyğusunu itirən insanlar cismən yaşasalar da onlar mənəvi cəhətdən həyatda ölmüş hesab olunurlar. Bizim duyğularımız hiss üzvlərimizə təsir edən cizim və hadisələrin müxtəlif cür xassələrinin beynimizdə inikası kimi ifadə olunur.İnsan övladında zövqlər müxtəlif olduğu kimi onların aldıqları ləzzətlər də müxtəlifdir.Məsələn, qəlbin ən çox ehtiyacı olan, onu cavan və gümrah saxlayan duyğular mərhəmət, sədaqət, cəsarət, məhəbbət və s. hisslərdir. Əlçatmaz arzular, boş-boş xəyallar, qara və neqativ fikirlər, pis vərdişlər və adətlər, şər iş və əməllər insanın ürəyinin işığının tədricən zəifləməsinə və fəaliyyətinin yavaş-yavaş sönməsinə səbəb olur. Bu əsasən ən çox özünə qapanma zamanı və uzun müddət durğun və hərəkətsiz vəziyyətdə qalmaqla, fasiləsiz fikir çəkmək və ifrat dərəcədə məyyus olmaqla bağlıdır.

**Müdriklər insan həyatını ömrün uzunluğuna görə deyil, onun məzmununa və gördüyü layiqli, gözəl və xeyirxah işlərə görə qiymətləndirərlər. Bütün təhsil, iş, idman, səyahət, istirahət və s. uğurlar hamı insana ləzzət verir. Biz maraqlı kitabı oxuduqda, kinofilmə və teatr tamaşasına baxdıqda, həzin musiqini dinlədikdə, keçmiş xatirələrdən şirin söhbət açdıqda ürəkdolusu ləzzət alırıq. Sanki həmin anlarda qəlbimiz sevinc və fərəh hissi ilə dolur. Gələn hər yeni gün isə yaxşı və xeyirxah əməlləri ilə onların ömrünü-gününü bəzəsin.**

**Zakir Bayramlı,**
**Şair-publisist, AY və AJ birliklərinin üzvü**

## Xankəndidəki “milli qəhrəman”ın heykəli söküldü: Ermənilər yasa batdı

**Ermənilərin 1994-cü ildə Ermənistanın Milli Qəhrəmanı adına layiq görülmüş bir milyonçuları olub. Aleks adı ilə ABŞ-da, Alek adı ilə Ermənistanda çağırılıb.**

Soyadı Manukyandır. Var -dövlətini, ömrünü, həyatını Ermənistanın çiçəklənməsinə həsr etmiş qatı millətçi, türk düşməni. ABŞ-da sahibkarlıqla məşğul olmaqla bərabər ixtisasca da texnoloq olub. O, Erməni Ümumi Xeyriyyə İttifaqının prezidenti olub və ermənilər üçün fəal xeyriyyəçilik fəaliyyəti ilə tanınıb. Alek 1901-ci ildə Tükrkiyədə doğulub , ibtidai və orta təhsilini yerli erməni məktəblərində alır. Amma 19 yaşı olanda ABŞ-n Miçiqan vilayətinə köçür . Deməli, fabrikdə çalışır və eyni zamanda böyüklər üçün axşam kurslarında erməni dili dərsləri keçir. Manukyan daha sonra şəhərdən şəhərə köçərək 1924-cü ildə Detroitdə məskunlaşır. Orada avtomobil hissələri fabrikində iş tapır və 1929-cu ildə öz şirkətini qurur. Bu, sonradan illik mənfəəti 3 milyard dollardan çox olan çoxmillətli ”Masco Corporation”a çevrilir.

Manukyan ABŞ-də erməni təhsilinin yaradılmasına xüsusi diqqət yetirmi.dir. 1963-cü ildə Miçiqanda özəl məktəb açır. O, 1968-ci ildə erməni diasporunda və Ermənistan SSR-də proqramları dəstəkləmək üçün Aleks Manukyan Mədəniyyət Fondunu təsis edir. Bu gəlir 1996-cı ildə 95 yaşında ölür. Təsəvvür edin, bu bəyənmədiyimiz erməni, mənsub olduğu xalqa o qədər xeyriyyəçilik işləri görür ki, 2006-cı ildə Aleks Manukyana (öləndən sonra)həsr olunmuş Ermənistanın poçt markası buraxılır. İrəvanda bir küçə onun adını daşıyır.

Keçmiş sarsaxlar - Qarabağ erməniləri də onun varidatından kifayət qədər istifadə etdikləri üçün gətirib Xankəndinin mərkəzi küçələrindən birində Alekin heykəlini ucaldırlar. Və hazırda sosial şəbəkələrin erməni seqmenti və Ermənistan mediası haray çəkir ki,”Azərbaycan mədəni soyqırımının növbəti qurbanı xeyriyyəçi Alek Manukyanın heykəli olub”.

Uzun sözün qısası, ermənilər 1988-ci ildən etibarən işğal etdikləri Xankəndidə heykəlini ucaltdıqları Alek Manukyanın heykəli də Stepan Şaumyanın, Nelson Stepanyanın, Qaregin Njdenin, Vazgen Sarkisyanın, Monte Melkonyanın, Aşot Bekorun heukəllərinin yanında dincəlir.

Bu axmaq toplumun həyasızlığı o həddə çatıbdır ki, başqasının torpağını zəbt ediblər, hələ bir utanmadan oraya bir heykəldə ucaldıblar. Torpağın sahibi də torpağını alıb və ordakı yad heykəli də uçurub. Axı, icazəsiz tikilib... İndi ay ermənilər sizcə, dünya Azərbaycana deyəcək ki, niyə Alikin heykəlin götürmüsən? Yox!Yaxşı, bu şivən nəyə lazım?

**Əntiqə Rəşid**

## Şəhid atası Allahın dərgahına qovuşdu...



**Biz həmişə şəhidlərimizlə fəxr eləmişik. Onları böyüdən ata-ana çox böyük insanlardır.**

Füzuli rayonunun Böyük Bəhmənli kəndindən olan şəhid Elçin Süleymanovun atası Tehran qardaşımız da belə gözəl insanlardan biri idi. O, oğlu Elçinin dərdinə dözə bilmədi və fevralın 18-də Böyük Bəhmənli kəndində Allahın dərgahına qovuşdu! Fevralın 19-da isə onu kənd qəbiristanlığında dəfn etdilər.

Şəhid atasını son mənzilə minlərlə insan yola saldı. İynə atsan adam əlindən yerə düşməzdi. Şəhidlərə və onların ailəsinə bu xalqın məhəbbəti sonsuzdur. Şəhid atasının qardaşı Təbriz Süleymanov dəfndə iştirak edənlərə öz minnətdarlığını bildirdi, dedi ki, bəhmənlilər, siz mənim qardaşımı son mənzilə çox böyük çoşqu ilə yola saldınız və heç bir görünməyən həmrəylik göstərdiniz!

Bundan həm şəhid Elçinimizin, həm də qardaşımın ruhu şad oldu! Allah sizə toy qismət eləsin, biz də balalarınızın toyuna gələrik!!!

## Özəl kanallar niyə belə edirlər?!



**Özəl televiziya kanallarını bu gün bir şey düşündürür-pul qazanmaq!**

Təbii ki, pul qazanmaqda heç bir eyib yoxdur! Eyib onda olar ki, pula görə milli dəyərlər, humanizm, insanı keyfiyyətlər və əxlaq ayaqlar altında qalır. Və demək olar ki, bu dəyərlər özəl televiziya kanalları tərəfindən ardıcıl olaraq aşağılanır.

Sanki onlar Azərbaycan mədəniyyətinə terror edir və bundan ləzzət alırlar. Onların işi-gücü toy müğənnilərini və savadsız həkimləri reklam edib pul qazanmaqdır. O kanalların hansına baxırsan bütün günü çalıb-oynamaqdır.

Elə bil ki, bu ölkə 30-40 müğənnidən, 5-10 həkimdən və 4-5 vəkildən ibarətdir! Hansı kanallara baxırsan, ancaq onları görmək olar! Azərbaycanda gözəl ailələr, ziyalılar, istedadlı insanlar var. Nə qədər vətənpərvər gənclərimiz, qazilərimiz, igid oğlanlarımız var! Məgər onları efirə dəvət eləmək olmaz?! Olar ey, axı onlardan pul almaq olmur! O günü xalq artisti Əlibaba Məmmədovun tələbəsi olmuş Təhmiraz Şirinovu hansısa kanalda gördüm.

Qoca yaşında canlı oxudu, hamı məəttəl qaldı. Bax indi televiziyaları hər gün gəzənlər görüm belə oxuya bilərlər?! Çətin ki, oxusunlar! Özəl televiziyalar, nə olar, bir dəfə də şeytanın qıçını sındırıb İslam Rzayevin oxuduğu mahnıları səsləndirin! Belə böyük sənətkarı yada salsanız yəqin ki, xənçərinizin qaşı düşməz! Və bir də Azərbaycanın böyük ziyalılarının səsini eşidin və bunu qulaqardına vurmayın!!!

## "Aldatma günü" nə vaxtdır?



**El arasında "gülüş gününə" "aldatma günü" də deyirlər.**

Çünki həmin gün gülüşdən çox insanlar birbirilə zarafatlaşır və aldadırlar. Bunlar hamısı aydındır. Bizsə, nə kimisə aldatmaq, nə də güldürmək istəyirik. Sadəcə olaraq Füzuli camaatının dilindən düşməyən bir fikri xatırlamaq istəyirik. Füzulilər deyir ki, hər həftənin ikinci günü rayonda aldatma günüdür.

Tay kim-kimi aldadır, bax onu bilmədik. Amma bildiyimiz odur ki, sadə insanlar heç vaxt camaatı aldatmaz. Camaatı aldatsa-aldatsa... Nə isə... Və bir də axı, aldatma günü (gülüş günü) 1 apreldir. Ona da hələ bir aydan çox vaxt var!!!

## Məhərrəm Astaralının mahnılarını nənəm də oxuyar...



**İndiki "ulduz" müğənnilər asan oxunan mahnıların dalınca qaçırlar.**

Və daha doğrusu, toy üçün yazımış mahnılara böyük maraq göstərirlər! Məsələn, toy müğənniləri Məhərrəm Astaralının mahnıları üçün "ölür"lər. Manaf Ağayev, Şəbnəm Tövuzlu, Bahar Lətifqızı... bu mahnılarla qaz vurub, qazan doldururlar. Belə mahnıları oxumağa nə var ki, onu nənəm də oxuyar! Oğul odur ki, Cahangir Cahangirovun, Emin Sabitoğunun, Oqtay Kazımın, Bəhram Nəsibovun, Ramiz Mirişlinin ... mahnılarını oxusun! Görək adını çəkdiyimiz müğənnilər, eləcə də gözümüzü televizorda "mazol" eləyən Nəfəs, Damla, Zeynəb, Mənzurə... bu mahnıları oxuya bilərlərmi? Bacarırlarsa, buyursunlar!!!

## Yumurtadan tük qırxanlar



**Bizim çoxumuzun kənd yumurtasından xoşu gəlir, çünki bu yumurtalar fabrik yumurtalarından daha dadlı və keyfiyyətlidir!**

Qış aylarında isə fabrik yumurtaları kimi, kənd yumurtalarının da qiyməti bahalaşır. Əgər yazda və yayda bu yumurtanın biri 15 qəpiyə satılırsa, qışpayız aylarında həmin yumurta 40 qəpikdən aşağı satışa çıxarılmır. Özü də kənddən bu yumurtanın birini 25-30 qəpiyə tapmaq olar. Alverçilərsə onu gətirib, Bakıda 40 qəpiyə satırlar. Hələ bəzi işbazlar kənd yumurtasını lap baha - 50 qəpiyə camaata sırıyırlar! Aydındır ki, soyuq aylarda yumurta istehsalı dəfələrlə azalır. Bu qıtlıqdan istifadə edən alverçilərsə, yumurtadan tük qırxır, kefləri istədikləri kimi pul qazanırlar! Əziyyət çəkənlər qalır kənarda, müftə yeyənlər kef çəkirlər!!!

**EMİL FAİQOĞLU**

# İDRAK HƏKİMİN ƏLLƏRİ QIZILDIR...



**Sirr deyil ki, bu gün bir çox insanlar müalicə və əməliyyat üçün xarici ölkələrə üz tuturlar. Heç kimi qınamalı deyil. Hamı istəyir ki, yaxşı həkim onu müalicə etsin! Amma axtaranda ölkəmizdə heç də o xaricdəki həkimlərdən geri qalmayan və əksinə daha yaxşı olan çox savadlı, istedadlı və səmimi həkimlərimiz var.**

Sadəcə olaraq, onları arayıb-axtarmaq və belə həkimlərin yanına getmək lazımdır. Belə istedadlı, savadlı və qeyri-adi bir həkimlik təcrübəsinə malik olan insanlardan biri də "Diaqnoz" tibb mərkəzində işləyən nevropatoloq İdrak Həsənovdur. O, İdrak Həsənov ki, onun yanına ən ağır xəstələr gedib. Və onlar da bir neçə kurs müalicədən sonra tam sağalıb, ayağa qalxıblar və sonradan dağa-daşa düşməyiblər. Ağrıların və çətinlikləri olanda yenidən İdrak həkimə üz tutublar. İdrak həkim də kimliyindən asılı olmayaraq, həmişə yanına gələnləri diqqətlə müayinə edib və düzgün müalicə aparıb. Elə bu düzgün müalicədən də insanlar şəfa tapıblar. Belində, boynunda, müxtəlif yerlərində ağrısı və yırtığı olan pasiyentlər onun müalicəsindən sonra ayağa qalxıb, yeriyib və iş başına qayıdıblar. Hətta səhiyyənin çox yüksək səviyyədə inkişaf etdiyi İsraildə müalicə alan tanınmş bir insan tam sağalmayıb, sonradan İdrak həkimin yanına gəlib və onun intensiv müalicələrindən sonra sağalıb, yenidən işə qayıdıb. O, deyir ki, mənim imkanım olsaydı, İdrak Həsənov kimi həkimlərin əlini qızıla tutardım. Çünki onların əlləri qızıldır. Heç bir xarici ölkədə müalicə oluna bilmədim, amma məni bu həkim sağaltdı. Ona görə də belə həkimlərin qədrini bilməliyik. Biz də hər ikimiz müxtəlif vaxtlarda İdrak həkimin müalicələrini qəbul eləmişik. Çox yerdə müalicə olunsaq da sağala bilməmişik. Hətta birimizə dedilər ki, əməliyyat olunmalısan. Ancaq İdrak həkim bizi müayinə edəndən sonra dedi ki, əməliyyatdan sonra da yırtıqlar yarana bilər və ağrılarınız çoxalar. O, əməliyyatsız bizi müalicə etdi. İndi ildə bir dəfə onun yanına gedirik, müalicə götürürük və çox sağlam, ağrısız-acısız yaşayırıq. Hətta bizim qardaşlarımızın birinin belində 15 mm. yırtıq var idi, onu da İdrak həkim tam müalicə etdi.

**İdrak həkim bütün xəstələrə eyni münasibət bəsləyir: istər varlı ol, istərsə də kasıb. Öz səmimiyyəti və insani dəyərləri ilə pasiyentlərə həmişə müsbət enerji və xoş aura verir. Onun köməkçisi Yeganə Elçin qızı Xamıyeva da çox bacarıqlı, səmimi və savadlı bir tibb işçisidir. O, müalicə prosesində xəstələrlə ünsiyyətdə olur, bax, onda Yeganə xanımın səmimiyyətinin, şirin dilinin, insanlığının şahidi oluruq. Sözümüzün canı ondan ibarətdir ki, ölkəmizdə bu sahə üzrə ən yaxşı mütəxəssislərdən biri İdrak Həsənovdur və belə həkimlərin də qədrini bilmək lazımdır. Çünki xaricdə çox savadlı həkimlər ola bilər. Amma ölkəmizdə İdrak həkim kimi mütəxəssislərin olması onu deməyə əsas verir ki, bizim məmləkətdə də onlardan geri qalmayan həkimlərimiz var! Allah belə həkimləri qorusun!**

**SƏMƏNDƏR MƏMMƏDOV**
**FAİQ QİSMƏTOĞLU**

# Ermənistanda nə baş verir? - ƏZİZ ƏLİBƏYLİ İLƏ SİYASİ GÜNDƏM

**Azərbaycan-Ermənistan arasında sülh danışıqlarının getdiyi dövrdə sərhəddə insidentlər, Ermənistanın sərhəd bölgəsindəki kəndlərinin tərk olunması və Paşinyana qarşı etirazlar son günlərin gündəmini təşkil edir.**

Adalet.az Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli ilə bu barədə söhbət edib.

Ermənistanın hazırkı vəziyyəti ilə bağlı - ""Hibrit müharibə" adlı bir anlayış var. Yəni ənənəvi müharibə qaydalarının və innovativ müharibə qaydalarının tətbiq olunması, ya da iç-içə müharibə içində müharibənin tətbiq olunması anlamına gəlir. Ermənistandakı ictimai-siyasi vəziyyət həmişə bu hərbi vəziyyətə daxil olmaqla hibrit formada idarə olunur. Məsələn, bir hadisə baş verirsə, onun sifarişçiləri ən müxtəlif formada ondan fayda götürən şəxslər olur. Yəni konkret siyasi qüvvə üzərində qiymətləndirmək Ermənistanın daxili siyasi mühitinə yanlışlıq olar" - deyə politoloq bildirib.

Əziz Əlibəyli insidentlərdə başqabaşqa dövlətlərin maraqlarına diqqət çəkib:

"Ötən həftə baş verən insidentlə bağlı Azərbaycan dərhal açıqladı ki, bu Qərb tezisləri üzərindən baş verən qarşıdurmadır. Tutaq ki arxasında növbəti dəfə Azərbaycana basqı edən mərkəzlərin mövqeləri dayanır, onlar bölgədə Rusiyanın mövqelərinin güclənməsinin əleyhinə reaksiya verirlər, Azərbaycandan tələb bu olur ki antirusiya koalisiyasına qoşulsun. Çünki təsir mexanizmlərindən biri Avropa İttifaqının müşahidə missiyasıdır. Bu həm də o dönəmə rast gəlirdi ki, Azərbaycanda seçkilərin leqallığı ilə bağlı Avropa qurumları fikir səsləndirməli idi. Azərbaycanı günahkar çıxarıb sonra seçkilərə qiymətvermə prosesinə getsinlər. Bu, Qərb baxışıdır.

Rusiyanın da öz baxışları var. Hansı ki Rusiya da burada müəyyən maraqlar güdür.

Ümumiyyətlə Cənubi Ermənistan hazırda Ermənistanın taleyini həll edə biləcək gündəm mövzusunu təşkil etməkdədir. "Olum ya qalım" məsələsi



Cənubi Ermənistanda olacaq. Bu kommunikasiyalara görədir, bu İranla sərhəddə görədir, bu Rusiyanın sərhəd qoşunlarının fəaliyyətinə görədir, bu o bölgədə Azərbaycanla Türkiyənin reallaşdırmaq istədiyi dəhlizə görədir.

Çoxlu sayda faktorlar var. Həm də bir çox dövlətlərin maraqlarının toqquşduğu coğrafi zona həmişə cəlbedici olur".

O, Ermənistanın sərhəd kəndlərində boşalma prosesi haqqında danışarkən bildirib ki, bu proses müharibə aparan, müharibə şəraitində olan, ya da müharibə təhlükəsi altında olan cəmiyyətlərə xasdır.

Birmənalı şəkildə bunun elmi izahı var: müharibə psixologiyası və müharibə qorxuları altında sosial mühitin zədələnməsi. Ermənistan bu fobiyanı yaşayır. Ermənistanın sərhəd bölgəsində əhalini köçürməsən belə onların bu bölgədən getməsi qarşısıalınmaz bir prosesdir. Ermənistanın Azərbaycanla sərhəddi 1000 kilometdən artıqdır və sərhəd boyu bu proses yaşanmaqdadır. Ermənistan üçün bu ibrət olmalıdır. Başqalarının başına nə gətirsən, bir gün öz başına da eyni şey gələcək. Tarixin həmişə təkrarlanır".

**Politoloq bu hadisələrin fonunda Paşinyana qarşı etirazlardan da danışıb: "Onun sözlərində görə, indi nə baş verəcəksə Ermənistanın sosial və siyasi mühitinə təsir edir və hakimiyyətdə Paşinyan olduğuna görə birbaşa əlaqələndirmələr önə çıxır. Amma Paşinyan idarəetmədə müəyyən diverfikasiları və alternativləri mövzu olaraq istehsal eləməyi qıymadı. Sərhəd kəndləri boşalır, axı bunun hərbi əsasları da var. Çünki Azərbaycan-Ermənistan sərhədi mövcud olmayıb yüz il ərzində. Bu açıq şəkildə faktdır. Azərbaycanın sərhəd kəndlərinin, sərhəd ərazilərinin torpaq resursu - otlaq kimi, əkin kimi, meşə kimi - hamısı ermənilərin sərhəd kəndlərinin xidmətində olub. İndi bu imkanlar əldən çıxıb. Və onların ənənəvi fəaliyyət sahələri - heyvandarlıq, əkinçilik - əldən çıxıb. Bunlar müəyyən istehsala söykənirdi axı?! Paşinyan isə idarəetmədəki islahatlarla başa salmaq istəyir ki, yeni bir baxış gətirəcəyik, amma heç bir yeni baxış yoxdur. Və bunlar sosial mühitdə gərginlik yaratdığına görə Rusiyanın ənənəvi dəstəklədiyi baxış bugün siyasi etirazlar formasında meydana çıxır və Paşinyan da geniş istifadə olunur. "**

**Eminquey**

# MEHRİBAN XANIM ƏLİYEVA PREZİDENT İLHAM ƏLİYEVİN LİDER PORTRETİNİ UĞURLA TAMAMLAYIR

**Böyük və nadir insanlar dünyaya gəldiyi andan yüksək və ali missiyanın daşıyıcıları olurlar. Müdriklər deyirlər ki, anadan olarkən insana qoyulan ad onun taleyinə də sirayət edir. Həyat prinsipi mehribanlıq olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın adı yüz minlərin, milyonların qəlbində xeyirxahlıq ünvanına çevrilib. Rusiya Federasiyasının Həştərxan vilayətində çıxan ”Volqa” ictimai-siyasi qəzetində Mehriban Əliyeva haqqında ”Xeyirxahlıq rəmzi” sərlövhəli məqalədə yazıldığı kimi: ”Bu gözəl qadının adının mənası da ”xeyirxahlıq, şəfqət, səmimiyyət deməkdir.” ABŞ-ın nüfuzlu ”Washington Times” qəzetində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyeva haqqında dərc etdiyi məqalədə yazır: ”Azərbaycanın birinci xanımı: Müsəlman qadınlar üçün nümunəvi qadın obrazıdır”. Mehriban Əliyeva alim ailəsində anadan olub.**

O, görkəmli yazıçı Mir Cəlal Paşayevin nəvəsidir. Mehriban xanım Əliyevanın atası Azərbaycanın görkəmli alimi, fizika-riyaziyyat elmləri doktoru, akademik Arif Paşayev Bakıdakı Milli Aviasiya Akademiyasının rektorudur. Arif Paşayevin istehsalata buraxdığı qurğular dünyanın bir çox elm mərkəzlərində, hərbi sənayedə və digər istehsalat sahələrində müvəffəqiyyətlə tətbiq olunaraq, elmi nəticələr ixtira səviyyəsində işlənib beynəlxalq sərgi və müsabiqələrdə qızıl, gümüş medallar və diplomlarla təltif olunmuş, bir sıra sənaye müəssisələrində tətbiq edilmişdir. Akademik Arif Paşayevin xidmətləri sayəsində Milli Aviasiya Akademiyası ölkə üzrə kosmos haqqında əsas elmi-tədqiqat mərkəzinə çevrilmişdir.

Anası Aida xanım İmanquliyeva görkəmli filoloq və ərəbşünas idi. Aida xanım Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ərəb şöbəsində təhsil almış, Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirmişdi. Elm sahəsində yeniliklərə imza atan professor, həm də yüksək idarəçilik keyfiyyətləri, ictimai-siyasi fəallığı, böyük vətəndaşlığı ilə seçilirdi. Şərqşünaslıq İnstitutun direktoru olmuş Aida xanım yalnız yaradıcılığı ilə deyil, həm də təşkilatçılıq bacarığı, rəhbərlik fəaliyyəti ilə öz həyatının missiyasına - yaşadığı mühit və rejim çərçivəsində milli özünüdərkinin qorunub saxlanılması, inkişafı idealına sadiq qalıb. İlk azərbaycanlı qadın - ərəbşünas - elmlər doktoru olan Aida xanım İmanquliyeva öz həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin kökləri bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf etmişdir.

Mehriban xanımın həyat müəllimləri isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva olmuşlar. Mehriban xanımın dediyi kimi, ”Əlbəttə, hər şəxsin formalaşmasında ailənin, ailə mühitinin, ailə tərbiyəsinin rolu əvəzsizdir. Ailəyə bağlılıq, ailə dəyərləri, uşaqlara qayğı, böyüklərə hörmət Azərbaycan xalqına məxsus olan ən gözəl xüsusiyyətlərdən biridir... Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm.”.

Müasir dövrümüzdə ulu öndər Heydər Əliyevin müdrikliyinə əsaslanan həyat fəlsəfəsi bir elm olaraq öyrənilir. Ulu öndər Heydər Əliyev irsinin təbliğində adını daşıyan Heydər Əliyev Fondu böyük missiyanın daşıyıcısı olaraq ardıcıl olaraq təqdirə layiq işlər görür. Heydər Əliyevin dövlətçilik təcrübəsi və mənəvi irsi, həqiqətən, tükənməz bir xəzinədir. Bu xəzinəni yaşatmaq üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondu mühüm işlər görməkdədir. Fond tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin xalqımız üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır.

Bu baxımdan səmimiyyətlə deyə bilərik ki, Heydər Əliyev Fondunun qarşıya qoyduğu və reallaşdırmaq üçün fəaliyyət göstərdiyi məqsədlərin dairəsi kifayət qədər genişdir. Belə ki, Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin zəngin irsindən bəhrələnmək, bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına dəstək olmaq, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək fondun fəaliyyətinin qayəsidir.

Mehriban xanım Əliyeva ”Həyat dərsi” məqaləsində yazır: ”Onun həmyaşıdları Heydər Əliyev həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Ulu öndər Heydər Əliyevin hər bir dərsi insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə, xarakterin gücünə inama parlaq nümunədir, insanın məğlubedilməzliyinə inam dərsidir. XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bilər. Heydər Əliyev - tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider. Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən - Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı”.

Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın həyat və fəaliyyətinin başlıca istiqaməti xalqın rifahına yönəlmişdir. ”Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam”. Bu fikirlər bütün fəaliyyətini Azərbaycan dövlətinin inkişafı, xalqın rifahı istiqamətində quran Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya məxsusdur.

Azərbaycanın ən yeni tarixini yaradan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ömür-gün yoldaşı, ən yaxın silahdaşı olan Birinci xanım Mehriban Əliyeva bəşər tarixinin şanlı salnaməsinə öz dəst-xətti ilə daxil olan görkəmli şəxsiyyətdir. Mehriban xanım Əliyeva illər öncə Azərbaycan` Respublikası Milli Məclisinin deputatı seçilərkən: ”Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz”, - deyərək, yardımsevər fəaliyyəti ilə ona etimad edənlərin ümidlərini gerçəkləşdirdi.



Tarixi həqiqətdir ki, Vətənə, xalqa, dövlətə xidməti, xeyirxahlığı həyat amalına çevirən Mehriban xanım Əliyevanın mənəvi şəxsi keyfiyyətləri gələcək nəsillər üçün nümunəyə çevrilərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin lider portretini uğurla tamamlayır.

Mehriban xanım Əliyevanın üzərinə götürdüyü böyük missiyanın bir istiqaməti Azərbaycanda qadın hüquqlarının yüksək səviyyədə təmin edilməsidir. Böyük insanlıq yurda, yuvaya, suya həsrət bir ağaca, gözüyaşlı bir anaya diqqətdən, qayğıdan, sevgidən başlayır. ”Məsləkim tərcümeyi-halımdır”, - deyən böyük Abbas Səhhətin sözlərini eynilə Birinci vitse-prezident, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya aid etmək olar. Saflıq, gözəllik səltənəti qoynunda doğulan, ana təbiətin saflığını, əzəmətini xasiyyətində, xarakterində yaşadan bu məğrur qadın həyatda yüz minlərin idealına çevrilib. Mehriban xanım Əliyeva sadəliyi, səmimiliyi, mehribanlığı, alicənablığı, ürək genişliyi, xoş ovqatı, gözəl aurası ilə ətrafında sağlam bir mühit, atmosfer yaradır. Bu nəcib xanım çətinliyə düşən, ona üz tutan, ürək qızdıran hər kəsə köməyini əsirgəmir. Hər bir kəsin dərdini duyması və bu ağrını öz ağrısı kimi yaşaması Mehriban Əliyevanı xarakterizə edən ən gözəl cizgilərdir. Mehriban xanım ən ucqar kəndimizdə belə yaşayan valideynsiz, kimsəsiz uşağı, xəstə canı ilə çarpışan balalarımızı özünə yaxınlaşdırır, doğmalaşdırır, bağrına basıb Azərbaycan adlı məmləkətimizin mərhəmətli qol-qanadlarını onların üzünə açır. Şəhid ailələrinin, xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsil, səhiyyə problemlərinin həllinə yönəlmiş layihələr Heydər Fondunun daim diqqət mərkəzindədir. Mehriban xanım ən ucqar kəndimizdə belə yaşayan valideynsiz, kimsəsiz uşağı, xəstə canı ilə çarpışan balalarımızı özünə yaxınlaşdırır, doğmalaşdırır, bağrına basıb Azərbaycan adlı məmləkətimizin mərhəmətli qol-qanadlarını onların üzünə açır. Şəhid ailələrinin, xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsil, səhiyyə problemlərinin həllinə yönəlmiş layihələr Heydər Əliyev Fondunun daim diqqət mərkəzindədir.

Respublikamızın müxtəlif guşələrində yerləşən körpələr evini ziyarət edir, əziz bayramlarda ölkəmizin ən möhtəşəm saraylarında müxtəlif hədiyyələrlə balalarımızın qəlbinə sevinc, könlünə xoş ovqat bəxş edir.

2005-ci ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ”Talassemiyasız həyat naminə” proqramı həyata keçirilməyə başlanmışdır. Bu layihə çərçivəsində inkişaf etmiş Avropa dövlətlərinin talassemiya ilə mübarizə sahəsində təcrübəsi ətraflı öyrənilib.

Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Müzəffər Ali Baş Komandanın ən sadiq silahdaşı kimi yorulmaz fəaliyyət göstərib, xalqımızın ədalətli mübarizəsi barədə həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırıb, onun vətənpərvər çağırış və müraciətləri hər birimizi milli maraqlarımız naminə düşmənlə mümkün platformalarda, o cümlədən informasiya məkanında mübarizəyə səfərbər edib.

Mehriban Əliyevanın Telegram şəbəkəsində ”Bizim vahid arzumuz Qarabağ şikəstəsini Qarabağ torpağında birlikdə eşitməkdir!” deyə yazmışdır. Mehriban xanım Əliyevanın Azərbaycanın mədəni dəyərlərinin qorunması dair səyi nəticəsində Heydər Əliyev Fondu Şuşada da quruculuq və bərpa işlərini gerçəkləşdirərək şəhərin bərpasına öz sanballı töhfələrini verir. Fond Şuşada Saatlı, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərinin, Ağdam Cümə məscidinin, Zəngilan məscidinin, Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksinin, Mehmandarovların malikanə kompleksinin, məşhur tarzən Sadıqcanın evinin və Şirin su hamamının təmirbərpa işlərini həyata keçirərək, Qarabağın qədim Azərbaycan torpağı olduğunu dünyaya bəyan edir.

Həmçinin, 2019-cu il dekabrın 31-də Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Təhlükəsizliyi Xidmətinin ”N” saylı hərbi hissəsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə keçirilən tədbirdə iştirak edərkən, əsgər Heydər Əliyevin valideyni olaraq ona təşəkkür məktubu təqdim olunmuşdur.

Bu illər ərzində Azərbaycan Respublikası hərbi sferada daha da güclənməsi ilə tarixə düşdü. Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 20 Yanvar faciəsinin 32-ci ildönümü, Xocalı soyqırımı, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü, sentyabrın 13-də şəhid olmuş hərbi qulluqçularımızla bağlı, sentyabrın 27-si Anım günü, oktyabrın 17-də Ermənistanın xalqımıza qarşı törətdiyi terror aktları, Ulu Öndərin Anım günü ilə bağlı,Milli Qurtuluş Günü, Silahlı Qüvvələr Günü, Müstəqilliyin Bərpası Günü, Zəfər Günü, Dövlət Bayrağı Günü, Konstitusiya Günü, Şuşada keçirilən II Vaqif Poeziya Günləri münasibətilə paylaşımlar edir.

Mehriban xanım Əliyevanın Birinci vitse-prezident, Prezident İlham Əliyevin ən yaxın silahdaşı kimi fəaliyyətə başladığı ilk gündən hərbiçilərin, zabitlərin, şəhid analarının, övladlarının, aztəminatlı ailələrin, gözü yolda qalan anaların yanında olmaqla, hərbçilərlə görüşdən sonra göz yaşlarına hakim ola bilməməsi onun qəlbinin saflığından xəbər verir. Mehriban xanım Əliyeva Azərbaycan ordusuna həm ruhən, həmdə mənən xidmət etmişdir . Ermənistanın insanlıq əleyhinə hərbi cinayətləri ilə bağlı dəfələrlə beynəlxalq ictimaiyyətə müraciətlər etdi.

**Prezident İlham Əliyevin və birinci xanım Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü, Mehriban Əliyevanın Qubadlının Xanlıq kəndində hərbçilərlə görüşü, Zəngilana səfəri zamanı mənfur düşmənin dağıtdığı məscidin birinci xanımın şəxsən özü tərəfindən lentə alınması Azərbaycan tarixinə düşən şanlı salnamədir. Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu tərəfindən ağır yaralanan qazilərimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilib, müharibədə sağlamlıqlarını itirmiş zabitlər protezlərlə təmin edilib. Mehriban xanım Əliyeva söyləmişdir: ”Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!, ”Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!” Azərbaycan qadınının daxili dünyasının zənginliyini, elmi təfəkkürünün aliliyini özündə ehtiva edən Mehriban xanım Əliyevanın Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti görülən bütün işləri, atılan addımları yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına xidmət edir.**

**Günel Məlikli,**
**Milli Müdafiə Universitetinin professoru**



Aydın Canıyev

# Yuxu kimi bitən müharibə

## və yaxud Aqil Abbasın bitən povesti haqqında

**Ədəbiyyat, teatr-incəsənət, memarlıq-arxitektura... aristokratların menyüsü üçündür... kübar cəmiyyətlərdə. Sovet hökuməti kütləviləşdirməni prioritet saysa da, pətənəyinin götürümü imkan vermədi, çərçənəyi dağıldı getdi və elə ondan başladı... ”klassik”, ”ekstraklas” və s ”klas, klas” oyunu: biri Göydən yazdım, çəkdim dedi, biri təsəvvüfdən danışdı, buddizm-krişnaizm-daoizm-maoizm, Zen fəlsəfəsi ta lgbt-əyəcən marginallaşmağa, modernləşməyə! Pre- və post- modern cərəyanlar, sürreal-irreal tonlar-çalarlar artıq ARİSTOKRATİYAnın yem(əy)i yox, ucuz qəhvəaltı-kafe-pub müştərilərinin də desert-delikatesi sayılmağa başladı!**

Demokratiya bu qədər zibil şeydir, yəni.

Müharibə isə hamısına qarşı qəddardır - onu qədim Romada cəngavərlər edəndə aristokratcasına edirdilər, sonra müharibənin faşist və sovet, imperialist növləri yarandı, döyüşə cəngavərlər yox, ancaq kasıb balaları gedəsi oldu!

Əlqərəz, ARİSTOKRATİYA yerini... kiməsə verməsə də, yerini itirdi! Missiyası başa çatıbmı, çatmayıbmı, hələ bilmək olmur, olmaz, ancaq... müharibələr davam edir!

Biz o müharibələrin içində olduq - əvvəl işğalçı ölkəni yad saysaq da, vətən deyib qoruduq, sonra doğma vətən üçün vuruşduq!

Bu müharibə diplomatik masalarda hələ də davam etsə də, demarkasiya, delimitasiya cəbhələrində hələ ki, qan tökülməsə də, həqiqətdə - meydanda bitib: artıq yuxu kimi görülüb bitmiş!

Biz hər zaman özümüzü ögey bilmişik, özümüzə çöçün gəlib başqaları ilə müqayisədə statusumuz... bütün sahələr üzrə!

Biz dekabrist arvadlarına - cəmi-cümlətanı 21 qadın! - bayılmışıq, bizim qəhrəman saydığımız ağpantalon Janna d*Ark olub, amma xəcalətini çəkmişik Nigarın, Həcərin bəzi nənəsindən bixəbərlərə görə, bizim qədrini bilmədiyimiz Cəfərin Sonası, Cavidin Müşkünazı, Əhmədin Şükriyyəsi, amma Ayna Sultanovaya, Nadejda Krupskayaya şeir qoşmuşuq.

Somerset Moemin ”Ostrie britvı” povestindən sonra... Aqil Abbasın ”Tut arağı, donuz kababı və Aşotun məktubu” povesti məni xeyli mütəəssir etdi!

...”Girdi Var-Yoxdan olmuş Dünyanın Ən Varlı Şəhərinə”.

Təkcə bu ilk cümlənin altında 200 min insanın ağrıacısı yatır! Xatirələr 100 misli qədər!

Rəhmətlik Zakir Sadatlı ilə söhbətlərimdən birində qayıtdı ki, Aydın, o gün bir uşaq ölmüşdü, apardıq dəfn elədik gəldik, heç bir ağlaşma-zad olmadı, elə böyük acı da yaşamadıq! Bilirsən, niyə? O uşağın xatirəsi yox idi heç kimdə!

Anlada bildimmi bu ilk cümlənin ağırlığını: ...”Girdi Var-Yoxdan olmuş Dünyanın Ən Varlı Şəhərinə”. İllah da ki bu xatirə bu şəhərin sakinləri ilə birgə bu şəhəri işğal edənlərin nümayəndəsində elə o qədərdirsə!

Somerset Moemdə var bu: almanla fransız təmas qurur müharibə gedə-gedə!

Aqil Abbas daha bir addım irəli gedib: bütün psixoloji baryerləri darmadağın edərək, yalançı, siyasi ”xalq diplomatiyası” etiketindən yararlanmayaraq: reallıqlar bədii ifadə ilə o qədər dolğun təsvir edilib ki!

Cılız ”qaqa, hərəmizin İspanakertdə bir axçisi vardı” goppalogiyasından uzaq... səmimi bir ”Faxı-Ayrika” macərası - ”Əsli və Kərəm” mistikasından uzaq, erməni-türk sevgisinin mübhəmliyi qədər doğma!

Kişilərin kişi yerişi, kişilərin kişi qaydaları, eyş-işrətin hədd-əndazə lotuluğu kifayət qədər səmimi və ibrətamiz!

Yazının girişində yazdığım heç bir punkt bundan sonra nə Azərbaycan xalqlarına, nə də erməniyə lazım olacaq: ən böyük ARİSTOKRATlıq bu olacaq ki, hər iki tərəf üçün, başa düşülsün: onsuz da Türkə yeniləcək, onsuz da bütün keçmişin xatirələri ”Var-Yoxdan olmuş Dünyanın Ən Varlı Şəhəri”nin ”Dünyada Ən Gözəl Şəhər” məftunluğuna təslim olacaq!

Mənim xoşum gəlir ”tabutdaşıyanlar” sitat gətirdikləri ”ölülər”dən gətirdikləri sitata özü əməl edəndə!

SÖZARASI: mən ”tabutdaşıyan” o şair-yazıçılara deyirəm ki, onlar özləri şair-yazıçı ola-ola mənə, oxuculara Kafkadan, Xuan Rulfodan, Homerdən sitat gətirirlər və özləri... o sitatlara əməl etmirlər!

Aqil Abbasla müsahibədə demişdi: Folkner deyirdi ki, mənim kəndimdə 4 min adam var, mən dördündən 4 roman yazmışam, 3996 roman qalıb yazılmağa!

Bəli!

Mənə Pedro Paramo, yaxud da Anna Karenina cazibədar deyil, oxuya bilərəm, təfsir, təftiş, tərif edə bilərəm, amma təbliğə gələndə, mənim kəndimin... ”Muzşkola”nın müdiri, polisin Alikosu, Kino Fazili, Fred Asifi, Nurlanı, Müəlliməsi əzizdir, doğmadır, ürəyimin içinin içidir!

Mən varam, xalqım var, ölkəm var, əzablarım, zülmlərim, möhnətlərim, qələbələrim, ümidlərim var!

Mənim şərəfli keçmişimin qətlindən sonra DİRİLMƏM var - gələcəyimin ümidi olan hər bir əsər İNSANLIQ ADINA İMZAMDIR: ”... Nə vaxt Kinonun qabağında uşaxlar qız üstə dalaşajax, nə vaxt bir-birinə bıçax çəkəjəy, bax, onda”, - qədərincə düşünə bilməkdir SABAHI - YAXŞININ NƏ OLDUĞUNU bilənlər üçün düşünə bilməkdir!

Hamının əvəzindən!

Mesajlar qutusuna... bir neçə məqamı atmışam bu povestdən: Cənubdan gələn azərbaycanlılar soydaşlarının işğal olunmuş evlərini 300-500 dollara alıb yağmalayıblar! Rus erməninin əliylə türkün evini türkə satıb Farsın dəstəyi ilə!

İKİNCİ MESAJ: Gündəyməzdən murdarı yoxdur, hələ də kəsib atan olmayıb. Biz erməni kəsib atası deyilik! Bu erməni ilə biz qonşu olacağıq! Əvvəl ”İspanakert”ə gedirdiksə, indi İrəvana gedəcəyik: Türkün seksual ehtiyaclarını ödəməyə öz evindəki bəs eləmir, gərək də və mütləqdir ki, farsın, erməninin də yanıq qalan qancığlarını doyursun. Süleyman Dəmirəlin sözü olmasın, ha indi bağlayaq bu karxanaları, bizimi s...?

30 ildir ermənilərə əlimiz çatmır, efirlərimiz dolub döşlü-dallılarla!

Arada bədii əsər vasitəsiylə də olsa, anlatmalıyıq - ermənilər, imkan olsa, farslar bizim üçün hansı ”status”dadır!

Maraqlı daha bir bədii məziyyəti odur ki, povestin, Müəllif həm Özü obrazdır, həm ithaf etdiyi şəxs Obrazdır, həm də düşmən Obrazdır - hər üçünün performansı, dialoqu-düşüncəsi-varlığı GÖZƏL KOMPOZİSİYA ilə verilib!

Bayağılıq yox, vulqar ifadələri məhz ona görə bəyənirəm ki, milli kolorit və dialekt bədii həllini tapıb, yorğunluq gətirmir, ikrah yaratmır, süni humanizm təqdimatı qətiyyən yaxın buraxılmır: istər Faxının Müəllimə anası danışanda olsun, istər Aşotun belini ovmayan kişi qalmayan Anası!

Azərbaycanlı şəhid Anasını əziz tutan Müəllif, erməninin də oğlu qətl edilən Anasını sayğı ilə həzm edir!

Epizodik təqdimatlar - kitablara və məscidlərə münasibət, yeyib-içmək məclislərində zarafat səmimilikləri milli-məhəlli-regional standartlara adekvatdır!

Povestdə xoşuma gələn bir məqam da o oldu ki, müharibəyə qədərki, müharibə dövrü və müharibədən sonrakı mərhələ qısa, konkret, lakonik, qəzəbsiz, kinsiz, ali idrakla - yazıçı qələmi ilə nəqqaşlıq etməklə çatdırılıb! Pafossuz, populizmə yuvarlanmadan, aqressiya, nifrət, kin püskürmədən!

Əsl Qalib Ədası-Ərki-Əzmi ilə!

Anladığınız... Qaliblər burcutmur, Sözü bir dəfə deyir və Qaliblərə maraqlı deyil... altda qalanın canı necə çıxır!

Aqil Abbasın AĞAYANA Nasir ədası mənə ləzzət edən sonuncu amil deyildir, əlbətə ki!

Ağsaçlı obrazın bütün povestboyu dialoqa, təhkiyəyə, şərhə müdaxiləsi ilk baxışdan hiss olunmur, ancaq o qədər bunu Ağsaqqal kimi edir ki, hiss edəndə də incimirsən ki, sənin burda nə işin var, görək Aşot nə deyir, Faxı nə deyir, Nurlan nə iş görür, Lyonik, Ararat, Ayrika nə qələt qarışdırır.

Buna müharibəni öz canında yaşamaq, müharibəni öz canında yaşayanlarla yaşamaq deyirlər!

Ən gözəl əsər o əsərdir ki, Müəllif qəhrəmanlarının səviyyəsinə yüksəlir, onlarla bir gülür, bir ağlayır... Balzak ”Qorio Ata”da, Qorki ”Ana”, ”Mənim Universitetlərim” əsərlərində olduğu kimi!

Əslində bu Birinci və İkinci Qarabağ Savaşı bizə elə də çox şair-yazıçı bəxş etmədi - bundan sonra kimsə nəsə yazıb Nobel də alsa, bu ƏQLƏN olacaq bir qələbə sayılar, amma əvvəlindən sonunadək... döyüşən-yazan imza Aqil Abbas oldu!

Başqalarının haqqına girmək istəmirəm, ancaq mən onun yazdıqlarını qəbul edə bildim: saxta deyildi, konyunktura üçün yazmırdı, volontir idi, volyuntarist-karyerist deyildi!

Əlbəttə, bir orası da var ki, ”ağlamalinski” əsərlər - esselər, poemalar, romanlar da gördük - müzakirələr açıldı, piarlar aparıldı, menecerliyi edildi.

Mən heç birində Aqil Abbas qarabağlı olduğu qədər azərbaycanlı, ağdamlı olduğu qədər qarabağlı görmədim!

Hər nə yazsa, bütün ədəbi-bədii, ictimai-siyasi tələblərin fövqündə duracaq!

Ağsaçlı obrazı artıq əsərdən əsərə adlamaq haqqını qazanıb... Qılınc Qurban kimi!

O ki qaldı Müəllifin povesti dostuna ithaf etməsinə, sadə bir izahı var: bu müharibə həm də ona görə uduldu ki, dostlar bizi atmadı - müharibəni yuxuya çevirdilər!

ƏN GÖZƏL YUXU oldu bu yuxu: gözümüzü açanda özümüzü qalib gördük!

Müharibə dövrünün Müharibə Ədəbiyyatının Qalib İmzasını - Ağsaçlını təbrik edirəm! Həm də... bizim Ağsaçlı ilə ARİSTOKRAT CƏMİYYƏTDƏ görüşümüzə ümid oyatdığına görə.

Aristokrat cəmiyyət Qaliblərin Cəmiyyətidir!

**Yazının əvvəlini təkrar oxuya bilərsiniz - həzz dəqiqələriniz davam etsin deyə!**

Səxavət Məmməd



# Cəmiyyəti kim yaradır, formalaşdırır?

*Cəmiyyət, cəmiyyət deyirik. Bu cəmiyyət durduğu yerdə belə olmayıb. Cəmiyyəti kim yaradır, formalaşdırır? Yüzlərlə şey saya bilərik, ancaq ən son gedib dayanacağı yer dövlətdir. Dövlətlər yönün hara tutursa, cəmiyyət də yönün ora tutur. Serblə albanın arasında durmuşdum. Söhbət edirdik. Birdən alban dedi ki, illər öncə bizim aramızda sən yox, polis dura bilərdi. Sual verdim, nə dəyişdi? Dedi, heç nə, dövlətlər yaxınlaşdı. Yəni, dövlətin münasibəti həlledicidir.*

*Məmur da cəmiyyətdən gileylənsin, mən də, sən də. Məmur qəbul etdiyi vətəndaşı təhqir edəndə, alçaldanda, dövlətin gücün arxasına alıb Allahlıq edəndə, sabah o vətəndaş da özündən zəifi əzir, alçaldır, aşağılayır.*

*Baş redaktor da cəmiyyətdən gileylənir, sən də, mən də. Həyatı boyu yaltaqlan, yalan sat, informasiyaya "partlatma" dərəcəsinə görə qiymət ver sonra cəmiyyəti danla. Bir ölkənin mediasının gündəmə və sosial şəbəkələrə təsir gücü yoxdur, ancaq ortada dönən pul milyonladır. O gün prezidentin andiçməsində manşet Əhmət, dünən Türkiyə səfəri bu günki manşet yumurta.*

*Nəşriyyat rəhbərləri də cəmiyyətdən gileylənsin, sən də,mən də. O lotu-potu kitablarını kim çap edir? Hansı normal yazıçıya qonorar verib normal kitab çap etdirdiniz və insanlar oxumadı? Mədəniyyət nazirliyi hansı film çəkdi, yaxud şərait yaratdı, insanlar Türkiyənin birbaşa ailə institutunu dağıdacaq seriallarına baxmadı? Hansı mutfilm çəkdiniz, uşaqlar gic-gic şeylərə baxmadı. Dostum tanışının dediklərini nəql edir: Uşaq hansısa multikə baxıb. Multikdə hansısa qəhrəman qapıya kəllə vurub o üzə keçib. Ona baxan uşaq da qapıya kəllə vurub, başı partlayıb. Nə vermisiniz bu cəmiyyətə, qarşılığını da fərqli istəyirsiniz?*

*Qaziyə, əlilə, pensiyanerə pul verməyən də cəmiyyətdən gileylənsin, sən də, mən də. Yaxınlarda bir məclisdə idim. Xaricdən gələn bir pensiyaner pensiyaya çıxandan sonra gəzdikləri ölkələri və orada yaşadıqlarını danışırdı, bizim pensiyaner qəfil durub ayağa az qaldı onu vursun, sonra xahiş etdi ki, mövzunu dəyişsin. Nə gözləyirsiniz?*

*Azərbaycan telekanallarında meymunluğun əsasını qoyan adamlar da telekanalları tənqid etsin, sən də mən də. Azərbaycan mediasında reketçiliyin kitabını yazmış adamlar da reketçiliyi tənqid etsin, sən də, mən də.*

*Müharibə vaxtı cəbhəyə ən yaxın getdiyi ərazi mənim arxaya gəldiyim yer olub, ona Müdafiə nazirliyi mükafat versin, sən otur mal-mal bax. Müharibədən o da üərklə danışsın, sən də, mən də.*

*Yaxınlarda Xocalı soyqırımının ildönümü gəlir. Xocalının yerini xəritədə tapsa it olub ulayaram, bildikləri də ibtidai sinif dərsliklərində yazılanlardan o yana keçməyənlər də xaricdə bu hadisədən danışıb, erməniləri təcavüzkar adlandırsın, sən də, mən də.*

*15 ildir eyni şəxs gənclər günündə mükafat alsın, sonra çıxıb gənclikdən ağız dolusu danışsınlar. O mükafatı verən biri də demir ki, başqa gənc yetişmədi bu ölkədə? Gənclikdən o da gileylənsin, sən də, mən də.*

*Səsi olan müğənni, yaza bilən jurnalist, danışa bilən politoloq, ədaləti olan hakim, siyasətlə məşğul olan deputat, partiya sədri. Onlar da yaşayır, sən də, mən də...*

# "Deməsəm ölləm..."

**Bir vaxtlar ona böyük hücumlar var idi. Onu gözdən salmaq, ictimai qınağa tuş gətirməkdən ötrü, sosial şəbəkələrdə minbir üsuldan istifadə edirdilər. Nəticədə, haqsız suçlamaya düçar oldu və nahaq sıxıntılarla tuş gəldi...**

**Bu günlərdə təsadüfən onu günahlandıran, hörmətdən salmağa səy göstərən adamla söhbət etməli oldum. Çəkinmədən deyərəm ki, söhbət etdiyim adamın bu qədər cılız, məkrli, qorxaq olduğunu təsəvvür etmirdim. Deyir ki, qardaşımı öldürüblər. Allah rəhmət eləsin, tanış deyildik. Belə başa düşdüm ki, yazıq mərhum qardaşı elə onun öz güdazına gedib...**



**Bəli, həmin videoların fitnəsinə uyan adamlardan biri də mən olmuşam. Və nə yaxşı ki, gec də olsa başa düşmüşəm ki, Gülər Mikayılqızı sözün əsl mənasında kişi qeyrətli xanımdır. Mənəviyyatı saf adamdır. Yüzlərlə adama əl tutub, sıxıntıdan qurtarıb. Allahla öz arasında o qədər xeyirxahlıq edib ki, əksəriyyətini çoxdan unudub, yalnız YARADANIN nəzərindədir...**

**Hörmətli Gülər xanım, Allah bilir ki, mən bu sözləri tam səmimiyyətimlə, qəlbimin, idrakımın səsini dinləyib deyirəm, sizdən də heç bir umacağım yoxdur.**

**Bəlkə də bayağı səslənəcək, amma icazə verin, qənaətimi özüm bildiyim kimi ifadə edim: Qadın olmağınıza baxmayaraq, siz doğrudan da KİŞİ ADAMSINIZ.**

**Çox yaşayın, KİŞİ ADAM!**

**Eldarın oğlu Elman**

# ""Nizami Gəncəvi farsdır" deməklə, onu fars "etmək" olmaz, faktlar var axı..."

*Son bir neçə ildir İran İslam Respublikasının Azərbaycana qarşı siyasi təzyiq və məkrli təhdidlərinin şahidi oluruq . Əslində isə bu münasibətə təəccüblənmirik, çünki tarix boyu bu münasibəti nəinki tək siyasi arenada eləcə də mədəniyyət, ədəbiyyat, kulinariya və digər sahələrdə də görürük.*

*Məsələn, göz-görəti Azərbaycanın dahi şairi, mütəfəkkiri Nizami Gəncəvini mənimsəməsi ədəbiyyatımıza qarşı fars işğalı kimi dəyərləndirilir. Xatırlayırsınızsa 2008-ci ildə İranın "Əmir Kəbir" nəşriyyatı Nizami Gəncəvinin (Gəncei) "Xosrov və Şirin", "Leyli və Məcnun", "İqbalnamə" və "Şərəfnamə" əsərlərini Behruz Sərvətiyanın düzəlişi ilə yenidən çap etdi. Nəşriyyat Azərbaycan şairi Nizami Gəncəvini fars şairi kimi təqdim etdi. Və hələ də bu qıpqırmızı yalanı sürdürməkdədir. Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevlə mövzu ilə bağlı söhbətimizi sizə də təqdim edirik:*

**-Zaur müəllim, artıq farsların həyasızlığı o həddə çatıb ki, neə deyərlər, "qanuni fars şairi" kimi sığortalıyıblar...Bunlar niyə bu qədər əminliklə Nizamini fars hesab edirlər?**

- Dünya elminə və poeziyasına əvəzolunmaz töhfələr verən Nizami Gəncəvinin anadan harada olması barədə bir çox müzakirələr həmişə olub. Nizami Gəncəvinin guya Qaxın Qum, iran alimlərinin iddiasına görə isə İranın Qum şəhərində anadan olması barədə fikirlər səslənir. Bunu iddia edənlər də Hacı Lütf Əli bəy "Ataşkadah" bioqrafik əsərinə istinad edirlər. Nizami Gəncəvinin Qum şəhərində anadan olmasını iddia edən Hacı Lütf Əli bəy "İsgəndərnamə" əsərinin ikinci hissəsi olan "İqbalnamədə" şairin

***Gəncə dənizində olsam da pünhan,***
***Yerim Qum şəhridir, yurdum Qohestan.***
***Təfrişdə Ta adlı bir kənd dayanıb,***
***Nizami ad-sanı ordan qazanıb!***

- misrasını əlində əsas tutaraq dahi şairin Gəncədə anadan olmamasını yazır. Bundan sonra da bu informasiyadan çıxış edərək XVIII əsrdən başlayaraq dünya şərqşünaslığı ilə yaxşı tanış olan insanlar İranı Nizaminin vətəni hesab etməyə başladılar.

**- Yəni, dünya alimləri də anlamırlar ki, kiçik bir detal həqiqəti inkar etməyə yetməz?**

- Heç kim bu misranın orjinalını araşdırmadı və yalan da buradan ayaq tutub yeridi. Məhz elə buna görə, Nizami Gəncəvinin əsərində belə bir sitatın olmasının ardınca düşmədən onu fars və İran şairi hesab etməyə başladılar. Birinci coğrafiyaya nəzər salsaq görərik ki, İran ərazisində Qohestan deyilən bir yer yoxdur və ikinci də Qum Nizami Gəncəvinin şəhər adlandırdığı kriteriyalara uyğun gəlmir. O zaman Qum balaca bir kənd idi və onun böyük şəhər olması mümkün deyildi. İkinci də Qaxın Qum kəndi də o illərdə elə böyük bir yer deyildi və şəhər kimi onun barəsində heç bir məlumat yoxdur.

**- Bəs digər tarixçi alimlər bu nüansın üstünü açmadılar?**

-Bunun üçün alim olmaq lazım deyil, eləcə coğrafi yerlər haqqında google.az da axtarış vermək kifayət edər ki, məlumat əldə edə biləsiniz. Uzun illər Nizami Gəncəvinin İran şairi olması bir çox şərqşünas alimlərin əsərində qeyd edilməyə başladı. Bu alimlər ən etibarlı mənbə olan Nizaminin orta əsr bioqraflarının hamısı, xüsusilə Aufi Sədidəddin (XIII əsr), Dövlətşah Səmərqəndi (XV əsr) və s.) şairin doğulduğu şəhər kimi, onun "bütün ömrü boyu yaşadığı və vəfat etdiyi Gəncə şəhərində anadan olub" fikirlərini görməzdən gəldilər.

**- Yəni dürüst bir şərqşünas ortaya çıxmadı ki, bu gerçəyi ortaya qoysun?**

-Bu anlaşımazlıq uzun zaman çəkəcəkdi. Amma XX əsrin birinci yarısında məşhur rus şərqşünası akademik Y.E.Bertels bu mövzunu araşdırmaq qərarına gəldi. Məhz o, Nizami Gəncəvinin bütün əsərlərini, xüsusilə "İsgəndərnamə" əsərini ciddi-ciddi tədqiq edib sübut elədi ki, Hacı Lütf Əli bəyin iddia etdiyi kimi yuxarıda qeyd etdiyim "Qum şəhərindəm adlı" sətirlər Nizaminin həmin əsərinin digər əlyazmalarda, o cümlədən erkən köçürülən versiyalarında yoxdur, yəni, bu sətirlər şairin "İskəndərnamə" əsərinə ideoloji motivlərdən irəli gələrək təəssübkeş İran mirzələri tərəfindən əlavə olunub və açıq-aşkar saxtalaşdırmadır. Akademik öz tədqiqat əsərində yazır: "Nizaminin ən qədim əlyazmalarında, 763-cü (1360-cı il) il tarixli hicriyə aid Parisdəki Milli Kitabxanda olan əlyazmalarında bu sətir də yoxdur ".

**- Bəs, niyə fars alimləri hələ də öz dediklərini deyirlər?**

-İndi ona da aydınlıq gətirək: Bertelsin ardınca akademik Y.Kraçkovski, akademik A.E.Krımski, Azərbaycan alimləri H.Arazlı, C.Heyət, R.Əliyev və başqaları "İsgəndərnamə" əsərlərinin orjinallarını tədqiq edərək dahi şairin Azərbaycanın Gəncə şəhərində anadan olmasını sübut etdilər. Lakin o illər sovet elmi dünya miqyasına tam çıxmamışdı və II dünya müharibəsinin başlaması, Qərb alimlərinin akademik Y.E.Bertelsin əsərlərinin çıxışı olmaması bu sübutun onlara çatmamasına səbəb yaratdığı üçün onlar Nizamini İran şairi kimi qələmə verməkdə davam etdilər. Lakin elmdə vicdanlı alimlər də var, İranda Nizami Gəncəvinin üzünü köçürən zaman qəsdən saxtakarlıq edən və onu İranda anadan olmasını "soxuşduran" şəxslərdən fərqli olaraq əsl elmi tədqiqat aparan Iran ədəbiyyatşünasları içərisində V.Dəstgerdi haqlı olaraq Nizami Qumda anadan olmayıb, "İsgəndərnamə" əsərinin üzünün köçürülməsi zamanı Qumda anadan olması barədə fikirlərin sonradan mirzələr tərəfindən salınmasını iddia edir. Nizaminin ilk tədqiqatçısı V.Dəstgerdi göstərir ki, şairin əvvəlki nüsxələrində Qumla əlaqəli beyt olmamışdır.





**- Bəs, bizim alimlərimiz farsları fikrindən döndərmək üçün hansı işi gördülər?**

- Nizaminin yubileyi ərəfəsində görkəmli şərqşünaslar R.Əliyev və A.Sarovlu Azərbaycan hökuməti tərəfindən Qax rayonu Qum kəndinə məsələyə aydınlıq gətirmək üçün ezam olunurlar. Qayıdıb gəldikdə onlardan hesabat tələb edəndə cavab bu olub ki, Qum kəndi kiçik bir kənddir və guya Nizaminin "Qum şəhərində" anadan olması barədə "böyük şəhər Qum" bura ola bilməz.

**-Necə ola bilər ki, Nizaminin əsərlərində qondarma Qum şəhəri olsun, Gəncə olmasın...**

-Var, niyə yoxdu...Nizami Gəncəvi özü "Sirlər xəzinəsi" dastanının 179-cu səhifəsində konkret anadan olduğu yeri qeyd edir:

"Qum şəhəri Qəhrestanı" məhəlləsinə gəldikdə isə, bu onun əsərlərinin surətini köçürən şəxslərin artırmalarıdır. Çünki, Nizami əsərlərinin ojrinal nüsxələrndə belə bir şey yoxdur. Konkret olaraq qeyd edək ki, Nizami əsərlərinin XVI əsrdə və sonralar köçürülmüş nüsxələrində "İsgəndərnamə"nin "İqbalnamə" hissəsinin bir yerində şair Gəncədən danışan zaman fikir yarımçıq kəsilərək Qumla bağlı dörd misra qəsdən artırılmışdır.

**-Tərs kimi də, bütün əsərlərini fars dilində yazıb...**

-Elə farsların əlinə "fakt" verən məqam da odur! Dahi şairin yaşadığı Gəncə şəhəri. Nizami Gəncədə yaşaya-yaşaya necə fars şairi ola bilərdi. İran adlanan dövlət ona necə iddia edə bilər? Gəncə şəhərinin XII əsrdə İran şəhəri olması haqqında fikir də yanlışdır. Gəncə necə İran şəhəri ola bilərdi ki, Nizaminin dövründə İranın özü Səlcuq imperiyasının bir hissəsi idi? Həm də Gəncə türk oğlu türk olan Azərbaycan Atabəylərinin paytaxtı idi. 651-ci ildə dövlətçiliyini itirən İran (irandilli xalqların dövlətçiliyi nəzərdə tutulur) bir də onu 1300 ildən sonra Pəhləvi sülaləsi ingilislərin köməyi ilə hakimiyyət başına gələndə bərpa etmişdi.

**- Deyilənə görə, Sovet hökümətinin liderlərindən olan Stalinin də Nizami Gəncəvi haqqında fikirləri olub...**

- 3 aprel 1939-cu ildə Ukrayna şairi Nikolay Bajanın "Pravda" qəzetində məqaləsi çıxır. Məqalədə o, Stalinlə görüşündən danışırdı: "Yoldaş Stalin mənə azərbaycanlı şair Nizami ilə bağlı danışdı, onun əsərlərindən sitat gətirdi, o, bu sözlərlə onu əsaslandırmağa çalışırdı ki, Nizamini İran ədəbiyyatına vermək lazım deyil. Ona görə yox ki, farsca şeirlər yazıb, ona görə ki, o öz poemalarında farsca şeir yazmağa məcbur olduğunu və öz xalqıyla doğma dilində kontakta icazə verilmədiyini göstərir".

1947-ci il 22 sentyabrda SSRİ Yazıçılar İttifaqının sədri Nikolay Tixonovun "Pravda" qəzetində belə bir məqaləsi dərc olunmuşdu: "Aydındır ki, Nizami farsca yazıb, Azərbaycan xalqının düşmənləri olan burjua tarixçiləri, İran milliyətçiləri tərəfindən Nizaminin fars şairi kimi qələmə verilməsi və onu vətəni Azərbaycanla əlaqəsinin olmaması faktı ilk dəfə deyil, ancaq bu həyasız yalan heç kimi aldada bilmədi.

Yevgeni Bertels tərəfindən hazırlanan Böyük Sovet Ensiklopediyası 1939-cu ildə Nizamini Azərbaycan şairi kimi təqdim etdi və 1940-cı ildən sonra artıq Nizaminin azərbaycanlı olması bütün sovet alimləri tərəfindən qəbul olundu.

**- Görəsən niyə Gəncəli Nizaminin türk dilində heç bir əsəri də yoxdu?**

-Nizami Gəncəvi 1188-ci il sentyabr ayının 24-də bitirdiyi "Leyli və Məcnun" əsərini türk dilində yazmaq istəmişdir. "Leyli və Məcnun"u türk dilində deyil, fars dilində yazmasını əmr verən Axistanın hərəkətləri onu çox qəzəbləndirmiş, amma oğlu Məhəmmədin xahişi ilə onu farsca yazmağa razılıq vermişdir. Amma öz etirazını əsərdə belə şərh etmişdir: "Nə cürətim vardır əmrdən qaçam, nə də könlün vardır xəzinə açam " Qərb ədəbiyyatı isə onu əsasən fars və iranlı kimi təqdim edir.

Burada fars dilində yazmış olduğunu əsas kimi götürürlər. Halbuki, fars dilində yazmaq o dövrün ənənəsi idi.

Nizami Gəncəvi "Xosrov və Şirin" əsərində yazır:

***Turkluyum bu həbəşdə hec getmir.***
***Dadlı dovğaya xalq meyl etmir.***

Burdada Farslığım və ya Kürdlüyüm deyil Türklüyüm deyir.

**- Təəssüf ki, bu faktlar farslara təsir etmir:"Nizami farsdır "deyib durublar.**

- Hələ XV əsrdə Dövlətşah Səmərqəndi "Təzkirətül-şüəra" kitabında Nizaminin türkcə divanı barədə məlumat verib". Şah İsmayıl Xətai də Nizamini çox sevirdi. Onun fərmanıyla "Xəmsə"nin üzü dəfələrlə köçürülmüşdü. Nizami (Gəncəvi) də öz övladını türkzadə (türk oğlu) adlandırır "Xosrov və Şirin" əsərinin sonunda yazır:

***Əgər şod torkəm əz xərgəh nəhani,***
***Xodayə, torkzadəmva to dani.***

**(Əgər türküm çadırdan gizlinə çəkildisə də, Xudaya, türk balasını sən özün qoru.)**

Məlumdur ki, bu misralarda şair çox sevdiyi Afaqın dünyadan köçməsindən bəhs açır, ona "türküm" deyir, Afaqdan olan oğlu Məhəmmədi isə "türk balası" adlandırır. Qərb tədqiqatçılarından Hammer, Baxer, Rutter, Erdman, Atkinson, Duda, Vilson, Blend kimi şərqşünaslar onu türk adlandırıblar.

**-Beləliklə, fars dünyası və Nizami Gəncəvini fars şairi kimi tanıtmağa çalışan farspərəstlərə də aydın olur ki, Nizami bir türk oğlu olaraq Azərbaycanın qədim paytaxtlarından biri Gəncədə doğulub, yaşayıb və orada vəfat edib. Farslar istəsə də, istəməsə də, həqiqəti nə qədər gizlətməyə boğmağa çalışsanda bir gün mütləq özünü aşikar edəcək! Dahi Nizaminin xələfi olan Səməd Vurğun dediyi kimi, Günəşi örtsə də qara buludlar, Yenə günəş adlı bir qüdrəti var. Eynən həqiqət kimi.**

**Zaur müəllim ətraflı söhbətə, maraqlı məlumatlara görə sizə təşəkkür edirəm!**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

---

***Eminquey***

# "Xaos dövrü"



***30 yaşım var.***

***Mənə görə insan nə ucsuz-bucaqsız azadlığa qərq olmamalıdır, nə də tam boyuna ölçülmüş məhbusluğa.***

***Səhvlərim var, təbii, amma bu səhvlərə görə peşmanlıq hissi yaşayıram.***

***Əvvəlcə dünyasını dəyişmiş atamı düşünürəm, sonra anamı, sonra sevdiyim qadını, sonra Allahı, sonra isə özümü.***

***Mənə bu canı verən Allahdır, məni dünyaya gətirən, böyüdən atamla anamdır, mənimlə həyatını bölüşən sevdiyi qadındır və mən "MƏN"əm.***

***Səhvlərim Allahı da, atamı da, anamı da, sevdiyim qadını da və MƏNi də təəssüfləndirəcək, ağrıdacaq, incidəcək.***

***İnsan ucsuz-bucaqsız azadlığa qərq olanda dəyər sistemi darmadağın olur, doğmaları onun üçün yox olur, Allah yox olur, heyvan kimi yaşayır.***

***İnsan şüurdan, ruhdan ibarətdir, ən əsası bir bədənin içində qəfəsdədir. Hansı azadlıqdan söhbət gedə bilər? "Ölüm"ə məhkum varlıqlarıq, azadlıqdan danışırıq?***

***Bugün də, dünən də hər növ vicdansızlığa imza atan, xirtdəyəcən günaha batan, cinayətkar olan insanlar üçün heç bir dəyər, heç bir doğma, heç bir inanc yoxdur.***

***Kimin içindən hansısa məqamda adam öldürmək keçməyib? Kimin içindən kimisə möhkəm döymək keçməyib? O qədər Amma nələrəsə görə dayanmışıq. Birimiz atamızı, birimiz anamızı, birimiz o dünyanı, birimiz bu dünyanı, birimiz sevgilimizi, birimiz həyat yoldaşımızı, birimiz övladımızı düşünüb dayanmışıq. Dəyərlərimiz var deyə!***

***Yeni dövr bütün dəyərləri, bütün institutları, bütün inancları sındırmaqla məşğuldur. Xaos dövrüdür yeni dövr. Olmaz! Olursa, nəticəsi budur. Təkcə bizdə yox, dünya miqyasında!***

---

# *Elman Cəfərli: "Uşaq o tərbiyəni ailədən gətirir"*



**Məktəblilərin qeyri-etik davranışı sözün əsl mənasında cəmiyyətə həyəcan siqnalı ötürüb.**

Jurnalist Elman Cəfərli də gündəmi zəbt edən məsələ ilə bağlı Adalet.az-a danışıb.

O bildirib ki,mətkəbdə qısnama bütün dövrlərdə olub:

"Məktəbdə qısnama (bullinq) Makedonla Namiqin dövründən var. Bunun sosial şəbəkələrlə əlaqəsi yoxdur. Biri israrla direşib ki, tik-toku bağlamaq lazımdır. Bu cür videolar tik-tok olmayacaq, vatsap qruplarında paylaşılacaq. Problemin kökü tərbiyədədir, tik-tokda deyil. Sosial şəbəkələr məhsulunu, xidmətini reklam edən xırda və orta iş adamları üçün əlverişli platformadır. İşıq gələn yerə papaq tıxamaq olmaz.

Mətbəx bıçağı soğan, çörək doğramaq üçündür. Amma ondan xuliqan, cinayətkar da pis məqsədlər üçün istifadə edir.

Bu hadisədən sui-istifadə edən 5 manatlıq saytlar yenə məktəbi, müəllimi hədəfə çıxaracaqlar. Heç kimin də yadına düşməyəcək ki, hazırkı tədris sistemində müəllim tamamilə hüquqsuzdur.

Uşaq o tərbiyəni ailədən gətirir. Hərə bir hozu əkib-doğub (nümunəvi ailələlərə aid deyil) ötürür məktəbə. Vatsap qrupunda bir-birinə söz soxan bəzi mətbəx təfəkkürlü valideynlər hikkə ilə "maaş alırlar da, tərbiyə eləsinlər" deyirlər. Amma müəllim uşağın qulağını çəkəndə sifət çönür: "mənnən uşax böyütmüsən, niyə o qədər uşağın içində tənbeh edirsən?" Belə olmaz, əzizlərim. Bu yanaşmaya görə, tanıdığım neçə ləyaqətli, peşəkar pedaqoq müəllimliyin daşını atıb.

Uşaqlarınızın nümunəvi olmasını istəyirsinizsə, öncə özünüz ona tərbiyə verin. Təhsil başbilənləri, kişi müəllimləri məktəbə qaytarın. Müəllimə əvvəlki hüquqlarını verin. Sinifdə baş vermiş təsadüfi hadisələrə görə, müəllimi divana, silistə çəkməyin.

Babalarımız övladını məktəbə etibar edəndə müəllimə nə deyirdilər? "Əti sənin, sümüyü mənim". Yəni materialı mənimdi, amma yonulmayıb. İxtiyar sahibisən, yon-düzəlt, tənbeh elə, tərbiyə elə, adam elə, qaytar mənə".

**Əntiqə Kərimzadə**

# "Ermənilər meydanda əvvəl "Qarabağ" yox, başqa tələb səsləndirdilər, çünki..."

## "Qorbaçovun sifarişi, Bağırovun əmri ilə katib seçilən Poqosyan terrora başladı"

*36 il əvvəl taleyimizi, həyatımızı kökündən dəyişən , xalqımıza dağ üstən, dağ vuran, dərd gətirən, övladlarını məhv edən, evlərini-yurdlarını işğal edən, talayan, qız-gəlininə qarşı ən rəzil hərəkətlər edən, qocaları, uşaqları, xəstələri diri-diri yandıran, doğrayıb itlərə atan, dərisini üzən , bir sözlə, insanlığa yad işgəncələr verən ermənilərin o tarixi bəyanatı - DQMV Ermənistana birləşdirilməsi qərarını baş verdiyi günlərdəyik...*

*Qeyd etdiyim kimi 36 illik bir aradan sonra...O müdhiş, qorxunc günlərin acısını ilk öncə o əsilsiz, işğalçı qərarın verildiyi məkandakılar daddı. Sonra Qarabağlılar və daha sonra bütün Azərbaycan zərrə-zərrə o acıları yaşadı.*

*Bu gün həmsöhbətim, Xankəndidə doğulub, böyümüş, 1988-ci ilin bütün olaylarına şahid olmuş tanınmış publisist- yazar İlham Cəmiloğlu ilə söhbətləşirik.*

**- İlham müəllim, ilk dəfə Xankəndidə ermənilərin separatizm , işğalçılıq ifadə edən mitinqi xatırlayaq... Necə oldu ki, 70 il "qandan qorxan" qorxaq erməni qəflətən qan salmaq eşqinə düşdü . Meydanlara yığıldı qərar qəbul elədi?**

- Düzü heç ağlımıza da gəlmirdi ki, cəsarət və cürət anlayışından bixəbər olan ermənilər günlərin bir günü əsassız torpaq iddiaları ilə bizə meydan oxuyacaqlar. Məlumdur ki, bu qərara hələ 1923-cü ildən hazırlaşılırdı. Amma sovet hökumətinin kəsəkəs dövründə belə bir iddia ilə ortaya düşmək imkanı əldə edə bilməzdilər. Erməni millətçiləri, milyonçuları, Moskvada yüksək postlar tutanları, təbliğatçıları, Qorbaçovun aşkarlıq siyasətindən və şəxsən özündən qədərindən də artıq yararlanaraq Dağlıq Qarabağın Ermənistana verilməsi ilə bağlı planlarının həyata keçirilməsi üçün bütün vasitələrə əl atacaqlar.

**- Həmin nümayiş baş verənə qədər ermənilər qapılarımızda işləyirdi, fəhləlik edirdilər, elə yazıq, məzlum görünüşləri vardı ki, adam az qalırdı əlindəki son tikəni də bunların ağzına soxsun. Bəli, heç ağlımıza da gəlmirdi ki, bunlar qoyun dərisinə girmiş çaqqaldırlar. Sadəcə fürsət axtarırlar, parçalamağa , qan tökməyə....Belə bir mitinq necə oldu ki, başladı?**

- Əvvəlcədən nəzərdə tutulduğu kimi nümayiş Xankəndinin mərkəzi meydanında keçirilməli idi. O vaxt bu meydan Leninin adını daşıyırdı. Meydana əsas giriş bir neçə istiqamətdən, Kirov prospektindən, vilayət partiya komitəsinin inzibati binasının arxa hissəsindən keçən Atarbekov küçəsindən, Qarabağ mehmanxanası tərəfdən isə Tumanyan küçəsindən idi. Səhər saat 9-10 radələrində sadaladığım küçələrdə qrup-qrup insanlar toplaşmışdılar. Hadisələrin canlı şahidi kimi ilk müşahidələrimdən ermənilərin həyəcan, təlaş və xislətlərinə uyğun qorxu içində olduqları açıq hiss olunurdu.

Erməni dilini az-çox bildiyimdən aralarında etdikləri söhbətlərdə də bunu sezmək çətin deyildi. Hətta onlar qırmızı parça və adi ağ vatman kağızda hazırladıqları şüarları da bükülü vəziyyətdə saxlamışdılar. Toplaşan insanlar bir neçə müddət meydana daxil olmadılar. Nəhayət, Xankəndi tikinti materialları kombinatının baş direktoru, nümayişin əsas təşkilatçısı olan "Krunk" cəmiyyətinin sədri Manuçarov və ətrafındakı bir neçə erməni fəali meydanda görünəndə nümayişə cəlb olunanlar da meydana daxil oldular.

**- Burda oxuculara aydınlaşdırım: deməli, Manuçarov Xankəndidə doğulub. Ermənistanda Qarabağ hərəkatının rəhbərlərindən olub, Xankəndi tikinti materialları kombinatının direktoru və 1988-ci ildə Xankəndi şəhərində yaradılmış Krunk -Durna? adlı ictimai-siyasi-terror təşkilatın rəhbəri olub.Manuçarov Dağlıq Qarabağ münaqişəsinin başladığı 1988-ci ildən etibarən Azərbaycana qarşı açıq terror siyasəti aparıb və azərbaycanlıların Dağlıq Qarabağdan və ətraf 7 rayondan qovulmasında xüsusi xidmətlər göstərib. Bildiyiniz, qanımızı içməyə hazır bir imkanlı, varlı, sözü hətta Azərbaycan Mərkəzi Komitəsində keçən erməni. İlham müəllim, mitinqdə ermənilər açıqca Qarabağı tələb edirdilər?**

- Bütün çıxışlar və şüarlar Dağlıq Qarabağın Ermənistanın tərkibinə verilməsi ilə bağlı idi. Əsas isə vilayətin sosial-iqtisadi vaziyyəti göstərilirdi.

muxtariyyat adı altında ermənilərə daha çox sərbəstlik verilib və onlar da bu güzəştlərindən sui - istifadə ediblər. Nümayiş iştirakçıları arasında Xankəndi Pedaqoji institutunun erməni tələbələri xüsusi fəallıq göstərirdilər.

**-İlham müəllim, ermənilərin Azərbaycan Respublikasından böyük bir ərazini tələb etməsi, üstəlik bu ərazinin də Ermənistana birləşdirilməsi ilə bağlı ultimatumunu cəsarətləndirən yalnız erməni lobbisi, ermənilərin arasında da uzun illərdi aparılan təbliğat da deyildi.Sizcə, burda daha nələr vardı?**

- Əslində ən böyük səbəb başqaydı. Azərbaycan rəhbərliyinin səriştəsizliyi, qorxaqlığı, siyasi iradə nümayiş etdirməməsi, problemə daha da qızışdırırlar. Movsesyanın Kremllə telefon danışığından 20-30 dəqiqə sonra Vasili Konovalov şəhərin birinci katibinin kabinetində telefona çağırılıb. Ona Məhəmməd Əsədovla birlikdə şəhəri tərk etmək barədə göstəriş veriblər.

Zəng Bakıdan, Mərkəzi Komitədən gəlib. Vasili Konovalov öz xatirələrində bu haqda yazıdı ki,biz fevralın 11-də Xankəndi şəhərinə ezam olunmuşduq və mən həmin iclasda bildim ki, bu münaqişə dərin köklərə gedəcək:" Təsəvvür edin ki, İrəvandan heç bir səlahiyyətə malik olmayan bir şəxs Azərbaycan KP MK-nın ikinci katibinə zəng vurur və ona göstəriş verir..."

**- O vaxt Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov** yəndə heyəti K.Bağırov və Azərbaycan KP MK-nın bir neçə büro üzvünün iştirakı ilə DQMV Partiya Komitəsinin büro və plenum iclaslarını keçirirlər. Gevorkov birinci katib vəzifəsindən azad edilir, guya bu da cəza olur. Onun yerinə Dağlıq Qarabağda baş verən bütün hadisələrin əsas təşkilatçısı, ən qatı cinayətkar Henrix Poqosyan seçilir. Beləliklə həbsə alınmalı bir şəxs DQMV-nin baş kürsüsünə sahib olur. Və elə fevralın 25-də partiya komitəsinin fəalları ilə keçirdiyi ilk içlasda vilayətin erməni sakinlərinin kütləvi şəkildə ayağa qalxmasını təmin etməyi tələb edir.Bununla da həm Xankəndi şəhərində, həm də vilayətin digər yaşayış məntəqələrində nümayişlərin, mitinqlərin, tətillərin yeni dalğası başlanır.

**- Bayaq qeyd etdiniz ki, ermənilər meydanlara qorxa-qorxa gəlirdilər, necə oldu ki, birdən birə o qədər kütlə meydana yığışa bildir...O vaxt bütün sovet məkanındakı tv-lər həmin mitinqdən olan kadrları yayırdı.**

- Günortaya qədər ehtiyatla hərəkət etdilər. Amma günortadan sonra artıq heç bir təhlükənin və cəzanın olmadığını gördülər, arxayınlaşdılar, sayları təxminən 500 nəfəri keçdi. Məhz cəzasız qaldıqlarını anlayan kimi Dağlıq Qarbağın Ermənistana verilməsinin əsas səbəbini artıq başqa cür də əsaslandırırdılar. Guya Qarabağın əzəli erməni torpaqları olduğunu, ermənilərə məxsusluğunu həyasızcasına dilə gətirirdilər. Meydan gecələr də boş qalmırdı. Azərbaycanın hesabına zənginləşən ermənilər nümayiş iştirakçılarını isti geyimlərdən tutmuş, ərzaq məhsullarına, siqaretə, spirtli içkilərə qədər təmin edirdilər. Manuçarovun, Xankəndi ipək kombinatının partiya təşkilatının katibi, Ermənistanın sabiq prezidenti Koçaryanın, Xankəndi aqrar sənaye kombinatının direktoru Poqosyanın, uşaq şairi Qurgen Qabrelyanın, Ermənistanda fəaliyyət göstərən "Qarabağ" təşkilatının fəallarının qızışdırıcı çıxışları nümayiş iştirakçılarına xüsusi "ilham" verirdi.

**- Mənim bir müsahibim vardı, həmin illərdə Xankəndi institutunun tələbəsi olmuşdu. Deyirdi ki, Xankəndinin heç bir obyektində, nə zavodda, nə fabrikdə, nə xəstəxanalarda institutdakı qədər millətçilik, düşmənçilik abu-havası yox idi..**

- İnstitut yaranan gündən daşnak yuvasına çevrilmişdi. Erməni millətçilərinin azərbaycanlılara qarşı təbliğat maşını bu təhsil ocağında gecə-gündüz öz işini görüb. Təsəvvür edin, rektor erməni(S.Xalatryan), prorektor azərbaycanlı (Nəcəf Quliyev) idi.

Düzdür, bu institutda ermənilərlə müqayisədə sayca az olan azərbaycanlı müəllimlər və tələbələr zaman-zaman onların cavabını verib, Nəcəf Quliyev, Xasay Cabbarov, Kamil Quliyev, Zabil Bayramlı, Mirələm Vəliyev, Inqilab Quliyev, Abbas Abbasov, Nəsib Şəfiyev, Yusif Ağayev, Raquf Məmmədov, Eldar Quliyev və adlarını çəkmədiyim digər vətənpərvər ziyalılarımız dayaz düşüncəli, xain xislətli erməni həmkarlarını susdura biliblər, azərbaycanlı tələbələr heç nədən qorxmadan erməni millətçilərinə qarşı mübarizədən çəkinməyiblər. Amm çox təəssüflər olsun ki, Xankəndində və ümumiyyətlə bütövlükdə vilayətdə qarşı adekvat tədbirlər görməməsi və bütün hallarda Moskvadan buyruq gözləməsi idi. Azərbaycan bir sovet respublikası olaraq öz mövqeyini nə Xankəndində, nə də Moskvada, Kremldə sərgiləyə bilmədi. Bəlkə də buna cəhd olundu, amma göründüyü kimi nəticə olmadı.

**- Cəhd olunduğunu nədən bilirsiniz?**

-Bir faktı qeyd edim ki, əslində mitinqə başlamamışdan çox əvvəl






Krunk təşkilatının DQMV-də ermənilərin sıx yaşadığı yaşayış məntəqələrində separatçı, qızışdırıcı yığıncaq və iclasları keçirilirdi.Ermənilər etiraza, mitinqə hazırlanırdı. 1987-ci ilin sonlarında Xankəndidə fəaliyyət göstərən müəssisələrin direktorlar şurası (gizli yaradılıbmış) tərəfindən idarə olunub. Bu şuraya Xankəndi tikinti materialları kombinatının direktoru Arkadi Manuçarov, aqrar-sənaye kombinatının direktoru Henrix Poqosyan, Xankəndi ipək kombinatının partiya təşkilatının sədri Robert Koçaryan, "avtokolon" müəssisəsinin rəisi Maksim Mirzoyan və s. daxil olublar.

Həmin yığıncaqlardan birində (11 fevral) Azərbaycan KP MK-nın ikinci katibi Vasili Konovalov və Azərbaycan KP MK-nın inzibati orqanlar şöbəsinin müdiri Məhəmməd Əsədov da iştirak edib. Məcrasından çıxan yığıncağı Dağlıq Qarabağ Muxtar Vilayətinin birinci katibi Boris Gevorkov də sakitləşdirə bilməyib. Erməni fəalların çıxışlarına isə Xankəndi şəhər partiya komitəsinin birinci katibi Zaven Movsesyan lazımi şərait yaradıb. İclasda Məhəmməd Əsədovun erməni millətçilərinə sərt təpkisi yığıncaq iştirakçılarını daha da qıcıqlandırıb. İclasın gedişi zamanı Zaven Movsesyan akt zalını tərk edərək kabinetindən Kremllə əlaqə saxlayıb.

O, Mixail Qorbaçovun köməkçisi ilə danışaraq bildirib ki, Xankəndi şəhərinə ezam olunan Azərbaycanın rəhbər işçiləri, Konovalov və Əsədov vilayətdə milli münaqişələri

**idi. Yəqin o da Konovalov kimi anladı ki,münaqişənin kökləri elə dərindədir ki, onu tapmaq mümkün deyil, və bu hadisələrdə 4 ay sonra istefa etdi. Daha doğrusu onu vəzifəsində götürüb yerinə Əbdürrəhman Vəzirovu gətirdilər.**

- Kimin gətirilməsindən asılı olmayaraq, vəziyyət dəyişməyəcəkdi.Çünki, rəhbərlik Kremlin tapşırıq verirdi Azərbaycan bunu yerinə yetirirdi, bu tapşırıqdan çıxmaq isə fəlakət hesab olunurdu. Bir nüansı xatırladım: Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin məlumatına əsasən nümayişin əsas təşkilatçıları, insanları milli münaqişəyə cəlb edənləri, başda Poqosyan olmaqla 11 nəfərin həbs olunması qərara alınır. Bu haqda Qorbaçova məlumat verilir. Qorbaçov qəti etiraz edir və həbsin qarşısı da bununla alınır. Məsələnin bu cür ermənilərin xeyrinə həll olunmasında Georgi Şahnazarovun böyük rolu olur.

**-Oxucularıma bildirim ki, Şahnazarov ifrat ermənipərəst mövqeli Mixail Qorbaçovun köməkçisi işləyib. Maraqlıdır ki, ermənilərin Azərbaycana qarşı ərazi iddialarına skeptik (hər şeydən şübhələnən adam, hər şeyə şübhə ilə baxan adam;) yanaşan G.Şahnazarovla müqayisədə M.Qorbaçov ən qəddar erməni daşnaklarından daha çox erməni olduğunu sübut etməyə çalışırdı.**

- Ötən günkü müsahibədə boş yerə demədim ki, Xankəndi ilan yuvasına, daşnak məkanına çevrilmişdi. Buna etiraz edən azərbaycanlıların Ağdamda 1988-ci ilin 22fevralında baş tutan mitinqi ilə cavab verdilər. Amma təəssüf ki, həmin gün də xalqımız tək idi, nə dövləti, nə də mərkəzi komitənin umrunda idilər. Əsgəranda ermənilərin 2 azərbaycanlını qətlə yetirməsi də ermənilərin ən güclü dairələrdə dəstəklənməsini göstərirdi. Deməli, 1988-ci il fevralın 23-də Q.Razumovski başda olmaqla Moskvadan gələn nümayəndə...

**-Belə düşünmək olar ki, hətta Azərbaycan dövləti öz ərazisində bir rayona başçı qoymaq hüququna da malik olmayıb. Olsaydı, cinayətkar Poqosyan DQMV başçı seçilməzdi.**

- Sovet dövründə vilayət və diyar partiya komitələrinə birinci katib təyin ediləndə, (plenumda seçiləndə) təyinatın əvvəlcədən Mərkəzi Komitə ilə razılaşdırılması mütləq şərt sayılıb. Namizədlər Kremldə ciddi araşdırılıb. Amma nədənsə Henrix Poqosyanla bağlı heç bir araşdırma aparılmayıb, hətta onun "qaranlıq keçmişi"nə Kreml məmurları, şəxsən Mixail Qorbaçov göz yumub.Poqosyan katib seçiləndən sonra onun hədəfi DQMV-nin , xüsusəndə, Xankəndinin azərbaycanlı əhalisi olub.

**- Nə deyib incidirdi azərbaycanlıları?**

-Poqosyan azərbaycanlıları şəhərdən səssiz- küysüz çıxartmaq üçün Ermənistandan "saqqallılar" deyilən terrorçuları gətirtdi. DQMV-in vəzifəli azərbaycanlılarını müxtəlif bəhanələrlə işindən kənarlaşdırdı. Bundan sonra rahatlıqla onların şəhərin mağazalarından və nəqliyyatından istifadənin qarşısını aldı. Direniş göstərən, haqqını tələb edənləri müxtəlif bəhanələrlə və saxta tələblərlə həbsə atdırdı.Poqosyanın qarşısını alacaq qüvvə isə yox idi. Fevraldan sonra isə sadə, adi işlərdə işləyən azərbaycanlıları da hədələyir, onların Qarabağdan getməsini tələb edirdilər. Əks halda öldürləcəklərini deyirdilər.

**- Bir dəfə Xankəndi mərkəzi xəstəxanasının tibb bacısı Tubu Həsənova ilə müsahibəm vardı, o qeyd elədi ki, işlədiyim xəstəxananın ginekologiya şöbəsinin baş həkimi, Zori Balayanın qaynanası mənim işdən çıxmasam başıma oyun açacağı ilə hədələdi və mən uşaqlarıma bir şey olacağından qorxub Xocalıya köçdüm.**

-Bəli, 1988-ci ilin fevral ayında DQMV-də daha dəqiq Xankəndidə baş verən hadisələrin qarşısı alınmadığı üçün silahlı ermənilərlə bağlı tədbir görülmədiyi üçün əhali artıq ilin sonunda direniş göstərməkdən yoruldu.

Bələki, məsələn sentyabrın 18-dən 21-ə qədər Xankəndi şəhərində 63 azərbaycanlı evi yandırılıb, 270-dən artıq ev qarət olunub, yüzlərlə azərbaycanlı fiziki təzyiqə məruz qalıb, minlərlə azərbaycanlı öz doğma yurdunu tərk etmək məcburiyyəti ilə üzləşib.

**Əntiqə Rəşid**

# BİR ÖMRÜN SƏLNAMƏSİ

**Tarixən, həyatda fəal mövqe tutan hər bir şəxs dünyasını dəyişəndən sonra da qohumlarının, dostlarının qəlbində ölməzlik mücəssəməsi kimi yaşayır, şirin xatirədək hər zaman anılır, yad edilir. Belə ölməz, unudulmaz şəxslərdən biri də Hacı Seyid Mirələm İbrahimovdur. O,Respublikamızın tanınmış Əməkdar, baş müəllimi, Ağcabədi Pedaqoji Kollecinin direktoru olmaqla çox şərəfli bir həyat yolu keçmişdir. Onunla ötən illəri, unudulmaz və yaddışıma əbədi həkk olunmuş günləri belə xatırlayıram:**

## *Xankəndinə (Stepanakertə) ilk səfərimiz*

1970-ci ilin avqust ayı idi. Həmin vaxt Mirələm müəllimlə Bakıda qəbul imtahanı verib ali məktəbə qəbul olduq. Təhsilimizi isə Xankəndi Pedaqoji İnstitutunda davam etdirməli idik. Buna görə də avqustun 28-də kirayə ev axtarmaq üçün Xankəndinə gəldik. Bu bizim Xankəndinə ilk səfərimiz idi. Şəhər bizə çox gözəl görünürdü. Eyni zamanda havası, suyu da bizə xoş təsir bağışladı. Şəhər həyatına heç birimiz bələd deyildik. Kirayə ev axtara-axtara gəlib kalxoz bazarına çıxdıq. Milliyətçə erməni olan 2 məktəbli oğlan uşağı bizim ev axtardığımızı bilib bizə bələdçilik edərək institutdan xeyli uzaqda olan kirayə saxlayan adamın evinə gətirdilər. Bu uşaqlar Azərbaycan dilini çox yaxşı bilirdilər. Onlar Gərgicahan kəndinə yaxın olan Pionerakan küçəsində bir-birindən təxminənə 15-20 m aralıda 2 ev tapdılar. Mirələm evin birinə, mən isə o birinə baxdım. Mirələm bir evə baxandan sonra 2-ci evə baxmaq üçün mənim yanıma gəldi. O, 2-ci evə də baxdı. Ədalət, bu ev o biri evdən çox yaxşıdır-dedi. Bu evin qapısı, həyəti geniş, olduqca səliqəlidir. Mən onunla razılaşdım. Bu evdə qalmalı olduğumuzu ev sahibinə bildirdik. Eyni zamanda ona beh verib evə tez qayıtmaq üçün avtovağzala gəldik. Bizim bilet aldığımız avtobus Xankəndindən Ağdama gedən axırıncı reys idi. Beləliklə, heç bir çətinlik çəkmədən evimizə gəlib çıxdıq. Avqustun 31-də oxumaq üçün yenidən Xankəndinə gəldik. Kirayə qaldığımız evi tapdıq. Ev sahibi bizi mehribanlıqla qarşıladı.Gətirdiyimiz ayın-oyunları yerbəyer etdik. Sonra ev sahibi bizi evinə dəvət edib çay verdi. Düzü, ev sahibi erməni olmasına baxmayaraq, çox yaxşı adama oxşayırdı. Bizim orada bir problemimiz vardı. O da qalacağımız ev institutdan çox uzaqda olması idi. Şəhərarası avtobus olmadığı üçün gərək yaşadığımız Pionerakan küçəsindən instituta 1-2 saata qədər yol gedəsən. Fəqət buna baxmayaraq , ev sahibi mehriban adam olduğuna görə biz bu çətinliyi qəbul etdik. Yolumuz uzaq olsa da, dərsə vaxtında gəlib çatırdıq. Orada oxuyurkən, əsasən, bizim daha bir çətinliyimiz də vardı: qışda odun yarıb peçi yandırmaq, kirəqaz üstündə yemək bişirmək, dərs vəsaitlərini tapa bilməmək.

Valideynlərimiz bizə evdə istifadə etmək üçün lazım olan şeyləri qoymuşdular.

Bir günləri ilk dəfə olaraq sentyabrın əvvəlində bazardan badımcan almışdıq. Onu kiraqazda bişirmək istədik. Ərinmiş yağı tavaya parçalayıb tökdük. Yağ heç tam əriməmiş badımcanı qalın doğrayıb qazana tökdük. Bir az keçəndən sonra qazanın qapağını götürəndə gördük ki, yağ heç əriyib qutarmamışdır. Gülüşdük. Möhkəm də acmışdıq. Qazanı elə dolu halda ev sahibinə verərək Qarabağ restoranına gedib orada xörək yeməli olduq. Sonra evə qayıdan zaman ev sahibi Ruzanna xanım bizə bildirdi ki, bu gündən yemək bişirəndə, çay qaynadanda bizim qazdan istifadə edərsiniz. Bu da bizim çox sevincimizə səbəb oldu, hərdən bir onların qazından istifadə etməli olduq. O zamanları yəni, 1970-ci ildə Xankəndində qaz xətti yox dərəcəsində idi. Şəhər sakinləri qaz balonlarından istifadə edirdilər.

## *İnstitutdan evə gələrkən*

Payız vaxtı idi. İnstitutdan çıxıb evə gəlirdik. Yolumuz bu dəfə bazar tərəfdən düşdü. Həzin-həzin yağış yağırdı. Bazarın girəcəyindən təxminən 20-25 m aralıda böyük gövdəli , qollu-budaqlı bir ağac vardı. Bu ağacın altında yağışdan qorunmaq üçün alçaqboylu bir kişi durmuşdu. Onun Azərbaycanlı olduğunu bilib ona yaxınlaşdıq.

Hiss etdik ki, o yol adamıdır. O nə isə bir çətinliyə düşən adama oxşayırdı. Mirələm ondan soruşdu:

***- A kişi, burada niyə durmusan? Adınız nədir?***

***- Adım Köçəridir. Maşın gözləyirəm. Xocalıya gedəcəyəm.***

***- Xocalıya gedən avtobus çoxdan gedib. İndən belə ora çətin maşın düşər.***

***Onda gedək bizdə qal, sabahları gedərsən. Özü də mənə tanış gəlirsən. Səni bazarda çox görmüşəm. Yəqin orada kənd təsərrüfatı məhsullarını satırsan. Elə deyilmi?***

***-Düz deyirsiniz, mən bazarda alver edirəm.***

***-Köçəri, nədir fikrin, indi bizimlə gedirsən, ya yox?***

***-Ay başınıza dönüm, gedirəm, axı niyə getməyim ki ?***

Köçəri elə bir himə bənd olmuş kimi bizimlə birlikdə evə gəldik. Ona evdə yaxşı xörək hazırladıq, hətta onun rahat yatması üçün çarpayımızın birini ona verdik. Mirələmin çarpayısında ikimiz bir yerdə yatdıq. Səhərisi günü onu yaxşı yedizdirib yola saldıq. Onun mənim yatdığım yerdəki yorğan döşəkdən üfunət iyi gəlirdi. Hamısının üzünü dərhal dəyişdirdim. Aradan heç bir ay keçməmiş kalxoz bazarına gəldik. Bazardan içəri girən kimi bir gecə qonaq saxladığımız Köçərini gördük. Ona tərəf gəldik. Özümüzü elə apardıq ki, guya onu tanımırıq. Mirələm Köçərinin adını çəkmədən ona müraciətlə dedi: kartofun qiyməti neçəyədir?

***- 0.80 qəpiyədir.***

***- 0.70 qəpikdən 5 kq çəkərsən.***

***- Yox, o qiymətə çəkə bilmərəm.***

***- Yaxşı, onda 5 kq çək.***

Biz ilk baxışda elə bildik ki, Köçəri bizi tanımadı. Hansı ki, o bizi tanıya-tanıya çəkdiyi kartofun içərisində xeyli sayda çürük kartof olduğunu görüb onu qaytardıq. Sonra ona dedik ki, ay Köçəri kişi, deyəsən bizi tanımadınız? Elə deyilmi?

***- Axı, niyə elə deyirsiniz ? Tanıdım. Məni evinizdə bir gecə qonaq saxlayan tələbələrsiniz.***

***- Bəs sən onu bilə-bilə niyə çürük kartofları yığıb bizə verirsən-deyə ondan aralanıb o biri tərəfdəki alverçidən 0.80 qəpikdən 5 kq kartof aldıq. Köçəri bunu gördü, özü də çox pərt oldu...***

Köçəri əslən Xocalıdan idi. Orada yaşayırdı. Bizim qrupda oxuyan iki nəfər tələbə - Həqiqət və Rahilə də Xocalıdan idilər. Mirələm onlara Köçəri haqqında lazımi məlumat vermişdi. Tez-tez qızlara zarafatla ”Ay Köçəri kişinin həmkəndliləri, sizin baxışlarınız, gözləriniz necə də ona oxşayır”- deyirdi...

## *Qartopu oynaya-oynaya*

Mirələm son dərəcə yüksək bəşəri keyfiyyətlərə yiyələnən bir ziyalı idi. O hələ tələbəlik dövründə bu adı qazanmışdır. Bundan əlavə, onda təşkilatçılıq qabiliyyəti çox erkən formalaşmışdı. Belə ki, tələbə yoldaşlarımız xəstələnəndə, onların yaxınlarının toy və yas mərasimlərində iştirak etmək üçün bir yerə yığışıb məsləhətləşər, onların yanına birlikdə gedərdik. Yaxşı yadımdadır.

1971-ci ilin fevralın əvvəlləri idi. Xankəndinə, eləcə də onun ətraf kəndlərinə qalın qar yağmışdır. Qrup yoldaşımız Rahilə xanımın nənəsi rəhmətə getmişdi. Yas mərasimi o zamanları Şuşa rayonunun (indiki Xocalı rayonunun) Malıbəyli kəndində keçirilirdi.

Mirələm mikroavtobus təşkil edərək qrup yoldaşlarımızı toplayıb dərsdən sonra yas yerinə getdik. Orada bizə böyük diqqət, qayğı göstərdilər. Biz tələbə yoldaşımıza hörmət və ehtiram əlaməti olaraq yas məclisində xeyli oturduq. Ona görə də Mirələm bizim yanımızdan ehmalca çıxıb gəldiyimiz maşının sürücüsünü yola saldı. Aradan bir xeyli vaxt keçəndən sonra yas məclisindən çıxıb evə getməyimizi Rahilə xanıma bildirdik.

O bizi maşınla yola salmaq istədikdə biz razı olmadıq. Ona bildirdik ki, hava çox yaxşıdır. Söhbət edə-edə gedəcəyik. Yas məclisindən bir neçə kilometr uzaqlaşandan sonra başladıq qartopu oynamağa. Mirələm qartopunu ən çox Köçərinin həmkəndliləri olan Həqiqət və Rahilə xanımlara vururdu. Özü də hər qartopunu vuranda deyirdi: bu 1, bu 2, bu 3. Alın payınızı. Bu da çürük kartofun əvəzi . Qızlar da gülə-gülə deyirdi: vay səni vurğun vursun Köçəri, gör bizi nə işə salmısan? Sən Mirələmə nə etmisən, dilindən düşmürsən...

Biz belə qartopu oynaya-oynaya gəlib mənzil başına çatdıq.

## *Bir məqaləyə münasibət*

Biz istər orta, istərsə də ali məktəblərdə oxuyarkən sosialist vətənpərvərliyi və beynəlmiləlçilik ruhunda tərbiyə almışdıq. Bu elə bil bizim qanımızdan iliyimizə keçmişdir. Bizim o zamanları təhsil aldığımız Xankəndi İnstitutunda üç- Azərbaycan, rus və erməni millətinin tələbələri təhsil alırdı. Belə bir vaxtda beynəlmiləlçilik, xalqlar dostluğunu təbliğ etmək aktual məsələ hesab edilirdi. Mən də bir tələbə kimi belə bir mövzuda məqalə yazıb Xankəndində çıxan ”Sovetakan Qarabağ” qəzetinə göndərmək istədim. Məqaləmə də belə bir ad qoydum: ”Əzəldən biz qardaşıq...” Məqaləmi yazıb qutardım. Onu (məqaləni) Mirələmə verdim ki, oxuyub öz münasibətini bildirsin. O, qeyri-adi istedada, təfəkkürə



malik bir tələbə idi. Çoxlu bədii əsərlər oxuyurdu. Hər bir oxuyacağı bədii əsərin çox vaxt həm adından,həm də həmin əsərlərin cəmisi 20-25 səhifəsini oxuyandan sonra onda əsərin mövzusu və s. haqqında lazımi təsəvvür yaranırdı. Elə bu istedadın bariz nəticəsidir ki, mənim məqaləmi hələ oxumamış onun adından nəticə çıxararaq nə demək istədiyimi o mənə açıqlayıb dedi: Ədalət, qardaşım, məqalən müasirlik baxımdan əhəmiyyətlidir. Tələbələrin, oxucuların beynəlmiləlçilik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edə bilər. Lakin sənin yazdığın bu məqalədən hələ çox-çox əvvəl bizim yazarlar xalqlar dostluğu, xüsusən azərbaycanlılarla erməni millətinin dostluğu barədə saysız-hesabsız əsərlər yazmışlar. Onlar (ermənilər) unutma ki, işləri düşəndə adamlarımıza şirin yanaşırlar. Hətta adamlara bəzən də ”kirvə”- deyə müraciət edirlər. Belə bir məşhur deyim var: ”İlanın ağına da, qarasına da lənət”. Onlar (ermənilər) olduqca xain, məkirli, hiyləgər olmaqla xalqımızın qəddar düşmənləridir.

Bu murdar millət hər zaman imkan tapan kimi öz düşmənçiliyini bildirirlər. Bu təkzibedilməz bir həqiqətdir. Bunu xalqımıza mənsub olan ”Əski pambıq bez olmaz, Qarı düşmən dost olmaz” müdrik atalar sözü sübut edir.

Onlar gec-tez yenə də heç 20-ci əsr başa çatmamış öz düşmənçiliklərini bildirəcəklər.

Yazdığım məqalə ”Sovetakan Qarabağ” qəzetində çıxdı. Qəzet 2 dildə-erməni, rus dilində çıxırdı. Mən də bu dillərin heç birini bilmirdim. Müəyyən bir vaxt keçəndən sonra erməni bölməsində oxuyan tələbə yoldaşımız Hamlet (onun atası azərbaycanlı, anası isə erməni idi) əlində bir qəzet gətirib mənə verdi ki, sənin bu qəzetdə məqalən çıxıb. Mən də bunu görüb çox sevindim. Qəzeti ondan alıb məqaləm olan yerə işarə qoydum ki, onu kiməsə tez göstərə bilim...

Ulu Tanrı Mirələmə böyük istetad, uzaqgörənlik bəxş etmişdir. Onun vaxtilə yazdığım məqalə haqqında söylədiyi fikir yuxarıda qeyd etdiyim kimi heç 20-ci əsr başa çatmamış öz təsdiqini tapdı.Belə ki, ermənilər vəhşicəsinə, qəddarcasına istər Azərbaycan, istərsə də Qərbi Azərbaycan ərazilərində soydaşlarımızı zorla ata-baba yurdlarından qovub çıxartdılar, onların yurdlarını yerlə yeksan etdilər. Həmvətənlərimiz uzun illər böyük çətinliklərlə yaşadılar. İndi şükürlər olsun ki, bu ağır, məşəqqətli günlərə son qoyuldu. Vətənimizin işğal olunmuş yerlərində 3 rəngli bayrağımız dalğalanır və orada həyat öz axarına düşməkdədir.

## *Üçüncü əmək semesteri*

1972-ci ildə yaz imtahan sessiyasını başa vurandan sonra, adətən, tələbələri əmək semesterinə cəlb edirdilər. Bu üçüncü əmək semesteri adlanırdı. O zamanları tələbələrin bəzilərini SSRİ-nin müxtəlif respublikalarına, bəzilərini isə Respublikamızda işləməyə göndərirdilər. Bizim fakültənin tələbələrini Ağdərə (Mardagerd) rayonuna göndərmişdilər. Bizi rayondan çox uzaqda olan bir yerə gətirdilər. Bu yer susuz, şoranlıq, quru bir yer idi. Burada çoxmərtəbəli binanın bünövrəsi qazılmış ,almaturdan karkaz bağlayaraq bünövrəyə qoyulmuşdur. Ondan təxminən 15-20 m aralıda dağı xatırladan qrabil tökülmüşdür. Zil maşınlarında gələn açıq sment yerə tökülən zaman onun, eləcə də toz-torpağın tozu hər tərəfi bürüyür, sanki bir anlığa tələbələr bir-birini tanıya bilmirdilər. Bizə tapşırılan iş smentlə qrabili qarışdıraraq xirəyə yığıb, quyunu doldurmaq idi. Tələbələrin yumuşaq əlləri, incə barmaqları bir neçə gün keçməmiş yumulub açılmadı. Bundan əlavə, özümüzə də çox natəmiz, üfunət qoxusu gələn bir binada yatmaq üçün yer verilmişdi. Bir tərəfdən yataq otağımızın bərbad vəziyyətdə olması, digər tərəfdən isə lazımi qida ilə təmin edilməməyimiz bizdə çox pis əhvali-ruhiyyə yaratmışdı. Bizə verilən tapşırıqlar da çox sərt idi. Belə ki, kimə verilən tapşırıq yerinə yetirilməsə,o, sözsüz institutdan xaric olunacaqdır. Bu ciddi tapşırıq məni qəti qorxutmadı.Düzü, bir balaca xəstələnmişdim. Bunu bəhanə gətirərək müəllimdən icazə alıb Ağdərə rayon xəstəxanasına gəlməyimi Mirələmə bildirdim. O da tələbə yoldaşımız Əhlimanı götürüb məni xəstəxanaya gətirdi. Həkim səhhətimdə heç bir ciddi problem olmadığını onlara bildirdi. Mirələm mənim adımı həkimə jurnalda yazmağını,onda lazımi qeydlər aparmağı xahiş etdi.

Onun ürəyinə elə bil dammışdı ki, mən bir də geri qayıtmayacağam. Ona görə həkimə adımı jurnalda qeyd etdirdi ki, gələcəkdə bir problem olsa, bu rəsmi sənədin mənə köməyi olsun. Artıq mən həkimin yanından çıxan kimi Mirələmə dedim ki, məni institutudan çıxartsalar da, mən bir də ora qayıtmayacağam. Mirələm gülə-gülə dedi ki, madam, indi sən belə deyirsən, onda orada müalicəni davam etdirərsən. İnstitututa gələndə yenə adəti üzrə gülə-gülə həkimdən aldığın sənədi də gətirib rəhbərliyə təqdim edərsən. Artıq mən evimizə gəlib çıxdım.

Əllərimi valideynlərimə göstərdim. Bu onlara çox pis təsir etdi. Mənim bu vəziyyətdə olduğumu böyük qardaşım Münsif müəllimə çatdırdılar. O, geoloq kimi Ağdərədə faydalı-qazıntı işi aparırdı. Böyük bir ekspedisiyanın rəisi idi. Onu Ağdərənin rəhbər işçiləri yaxşı tanıyırdılar. Onların vasitəsilə üzrlü səbəb kimi məni üçüncü əmək semestrindən azad etdilər. Mən iş yerimi tərk edərkən yataq otağından yorğan-döşəyimi, yastığımı və digər əşyalarımı oğurlamışdılar. Mövcud qaydalara görə oğurlanmış əşyaların pulları tələbə tərəfindən odənilməli idi. Buna görə də Mirələm mənim xəbərim olmadan oğurlanmış əşyaların pulunu özü ödəmişdir. Mən ona əvəzimə verdiyi pulu qaytarmaq istərkən buna qəti narazı oldu...

## *Peşəsinin vurğunu*

Mirələm müəllim rayonumuzda öz peşəsini ürəkdən sevən, ona qəlbən bağlı, vurğunu olan nadir pedaqoqlarımızdan biri idi. Elə bil Ulu Tanrı onu bütün sənətlərin tacı olan müəllimlik peşəsinin ustadı kimi elinə, obasına, rayonumuza bəxş etmişdir. Mən onunla uzun illər bir məktəbdə işləmişəm. O özünə, eləcə də şagird, valideyn və müəllimlərə qarşı son dərəcə tələbkarlığı, dərslərə yüksək səviyyədə hazırlaşması, açıq dərsləri müasir tələblər baxımından keçməsi, pedaqoji şura iclaslarında qoyulan məsələlərə real, obyektiv yanaşaraq faydalı təkliflərlə çıxış etməsi və s. xüsusiyyətləri ilə başqa müəllimlərdən fərqlənirdi. Mən bunu da yaxşı xatırlayıram, növbəti pedaqoji şura iclasların birində gündəlik məsələlərdən biri ”Azərbaycan dilinin tədris vəziyyəti” müzakirə olunurdu. Mirələm müəllim haqlı olaraq Azərbaycan dili müəllimlərini çox kəskin, tutarlı faktlarla tənqid etdi. O qeyd etdi ki, şagirdlərimizin orfoqrafiya, orfoepiya, habelə rabitəli nitqin (imla, ifadə, inşa) inkişafı ilə əlaqədar bilgiləri çox zəifdir. Dərs dediyimiz şagirdlər hansı ixtisası seçməsindən asılı olmayaraq qəbul imtahanlarında mütləq ”Azərbaycan dili və ədəbiyyat”fənlərindən imtahan verəcəklər. Ona görə də biz bu məsuliyyəti nə qədər gec deyil, indidən dərk etməliyik. Bunun üçün biz məsuliyyət və tələbkarlığı daim, ardıcıl, məqsədyönlü şəkildə artırmağa səy göstərməliyik. Onun hər bir çıxış və təklifləri həmişə pedaqoji kollektiv və valideynlər tərəfindən yüksək qiymətləndirilirdi. Mirələm müəllim məktəbdə tez-tez ədəbi-bədii gecələr, disputlar, oxucular konfransı, şair və yazıçıların yubileylərini, yeni çıxan bədii əsərlərin müzakirəsini keçirməklə məktəblilərin hərtərəfli inkişafına böyük təsir göstərirdi. O, daim yeniliyə can atırdı. Onun təhsilalanlara bədii kitablar oxumasına maraq və tələbkarlığın artırılması üçün belə bir iş üsulu vardır: jurnal üzrə şagirdlərin siyahısını qeyd dəftərinə yazırdı.

Həmin dəftərdə hər həftənin bir gününü şagirdlərin hansı bədii kitablar oxuduğuna, onu necə mənimsədiklərinə sərf edir və lazimi qeydlər aparırdı. Bu da şagirdlərin bədii ədəbiyyata olan marağını artırır, onların asudə vaxtlarının daha səmərəli keçməsinə səbəb olurdu.Bundan əlavə, o, dərslərini elə təşkil edirdi ki , şagirdlər tez düşünüb fikirləşməklə qarşıya qoyulan suallara daha dəqiq cavab verə bilsin. Bunun üçün o, müəllim dərslərində bir qayda olaraq problemli situasiya yaratmağa böyük üstünlük verirdi. Mirələm müəllim həmçinin o zamanları karteçka üsulundan , yəni şagirdlərə sual vərəqələrini paylamaq yolu ilə daha çox onların biliyini qiymətləndirirdi. İndi müasir dərslərə verilən tələb - interaktiv təlim metodunun prinsip və üsullarını o, dərs prosesində hələ 40 il bundan əvvəl öz dərslərində tətbiq etmişdir.Bu da onun nə qədər uzaqgörən bir pedaqoq olduğunu sübut edir. Eyni zamanda onun bu iş metodu böyük filosofların-Mütəhhərinin ” Mən o müəllimləri sevirəm ki, mənə fikirləri deyil , fikirləşməyi öyrətdi” və Disterverqin ” Pis müəllim həqiqəti çatdırır, yaxşı müəllim onu tapmağı öyrədir” müdrik kəlamları ilə üst-üstə düşdüyi aydan şəkildə hiss edilməkdədir.

Onun bu təcrübəsi indi də öz aktuallığını itirməmiş, hər bir müəllim üçün böyük örnək olaraq qalmaqdadır. Mirələm müəllim şagirdlərinə verdiyi bilik və bacarıqların möhkəmləndirilməsi istiqamətində müəyyən təcrübə qazanmışdır. O bu işi, əsasən, iki istiqamətdə aparırdı: sinifdaxili və siniflərarası bilik yarışları. Mirələm müəllim bu yoldan istifadə edərək təhsilalanlarda möhkəm bilik, bacarıq və s. vərdişləri formalaşdırırdı. Ona elə ictimaiyyət arasında belə şöhrət qazandıran da məhz öz ölməz peşəsinin vurğunu olması və onu dərindən sevməsi olmuşdur.

**Beləliklə, mən görkəmli, şöhrətli peqaqoqu həmişə belə xatırlayıram: Mirələm müəllim tarix yazmadı, tarix yaratdı. Onun yaratdığı tarixdə parlaq obrazı, siması hər zaman görünəcək və qəlbimizdə əbədi yaşayacaqdır.**

**Ədalət Hüseynov,**
**Qarabağ Regional Təhsil İdarəsinin Ağcabədi rayonu üzrə təhsil sektorunun metodisti, müəllim-metodist, Qabaqcıl Maarif xadimi, Qızıl qələm mükafatı laureatı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü**



*Zemfira Məhərrəmli*
*yazıçı-publisist*

# Axır ki qayıtdıq, gözlərin aydın...

## Faiq Balabəylinin Vətən şeirləri üzərinə

**Faiq Balabəyli çağdaş şeirimizdə dəyər verilən və sevilən isimlərdəndir. Onun zərif duyğular, kövrək ovqat, həzinlik yaradan şeirləri sənətdə həm də yanımcıllıq nümunəsidir. Şairin ciddi məramları ilə fərqlənən şeir yaradıcılığında insana məhəbbətlə yanaşı, Vətən, torpaq, yurd sevgisi də mühüm yer tutur. Bu isə ədəbiyyatımızın orta nəslinin nümayəndəsi, istedadlı qələm sahibi, ixtisasca dənizçi olan, "mən gəmi kapitaniyam" deyəndə fəxrfəxarət hissi keçirən Faiq Balabəylinin elin layiqli övladı olmasının göstəricisidir.**

O, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Müstəqil.az saytının yaradıcısı və baş redaktorudur. Müəllif "Eh, ayrılıq, nə yamansan", "Kəsilməyən həyəcan fiti", "Sənə yazılan şeirlər", "Burda darıxmaq olmaz", "Yaşıl yuxulu dəniz", "Bayıldan bayıra", "Yağışdan sonra" və digər kitabların müəllifidir. Xalq şairi Sabir Rüstəmxanlının fikrincə, "Faiq Balabəylinin poetik nəfəsində dənizin təmiz havasına bənzər bir təravət və saflıq, çırpınan dəniz narahatlığı var... Müəllifin şeirlərində günümüzü qaraldan, nəfəsimizi daraldan müharibə faciəsini, torpaq itkisinin ağrılarını göstərən və onun fəal şairvətəndaş mövqeyini müəyyənləşdirən nümunələr çoxdur." O, şeirlərində Vətəni necə sevdiyini belə izhar edir:

*Mən sənsiz belə darıxdım -*
*əllərimi otlarına sürtdüm,*
*gözümü meşələrinə dikdim...*
*sənə gələn ağıları, ağrıları*
*içimdən keçirdim...*
*Mən səni belə istədim -*
*Yarpaqlar küləksiz əsmədiyi kimi,*
*Yağışlar kəsmədiyi kimi...*
*Mən səni belə sevdim,*
*Mən səni belə oxşadım,*
*Vətən!*

Şair, torpaqlarımızın uzun illərdən bəri bədnam erməni quldurların işğalında qaldığı illərdə Vətən dərdindən yazırdı:

***Hər gün istədim ki,***
***Durum dolanam başına, -***
***Başını tapa bilmədim,***
***ayağına döşəndim...***
***Qısıldım ayaqlarına,***
***Bir hovur yata bilmədim.***

Yağıya uduzmağın, məğlubiyyət acısı yaşamağın doğurduğu xəcalət sindromuna bürünmüşdük o illərdə. O vaxtlar gənclik çağlarını yaşayan Faiq Balabəylini də yandırıb-yaxan, daim narahat edən bu hisslər idi. Utanc hissini gizlədə bilməyən şair "Vətənə ağı" şeirini bu fikirlərlə bitirmişdi:

*Elə istəyirəm ki,*
*Sənin üçün ölümə gedəm;*
*Buna görə yaşamaq istəyirəm,*
*Yaşamaq!..*
*Utanırsan elə bil -*
*Hər kəsdən yaşınmaq istəyirsən,*
*Vətən!*

El-oba, Vətən dərdini dilə gətirmək, yurdun sevincinə fərəhlənib, kədərini bölüşmək, lal-dinməz dünyanın uzun illər ərzində susqunluqla qarşıladığı həqiqətlərimizi çatdırmaq hər yazarın işi deyil:

***Bir el görsən***
***Qızıl kimi torpaqları***
***Yad əllərdə parçalanıb -***
***O el - bizim elimizdir!***
***O yurd - bizim yurdumuzdur!***

İtirdiyimiz yurd yerlərinə, kəndlə-



rimizin bir-bir boşalmasına şair ürəyi tab gətirmir. "İndi bu kəndlərin yiyəsi yoxdu!" şeirində müəllifin yaşadığı ruhi əzab, üzüntü bizə bəlli olan məşum dövrdə yurd yerlərimizin halətiylə həmahəngdir:

***Başında papağı olan kişilər,***
***Yadımda heykəltək qalan kişilər***
***Kəndin küçəsindən yoxa çıxıblar,***
***Elə bil bu kəndin yiyəsi yoxdu!***

Uzun illər göz-gözə qaldığımız bu dərd, həqiqətən, dözülməz idi, namərd qonşunun hiyləsi sinəmizə çalın-çarpaz dağ çəkilmişdi. Qüssəkədərimiz, intiqam yanğısı F.Balabəylidən də yan keçməmişdi. Başımız üstündəki ruh oxşayan mavi ənginlikdən əsər-əlamət yox idi. Rəngi çoxdan itmiş səmamızda nələr baş vermirdi o vədələr, o çağlar? Şairin Qarabağ şeirlərindəki sərt realizm, ötkəm yanaşma kələfi dolaşıq düşən olayları çevik, dinamik tərzdə nəql eləyirdi. "Vur, komandir, vur" şeirində olduğu kimi:

*Axı gəlir, nişana al,*
*dayanma vur, komandir, vur!*
*O uçağı daşa basım buradan.*
*gör necə də bizim göydə o uçur.*
*Vur, komandir, vur!*
*O səmada qanad açan quş bizim,*
*torpaq bizim, bulud bizim, daş bizim.*
*Nə vaxtadək səbrim üstə daş düzüm?!*
*Vur, komandir, vur!*

Həyəcanla oxunan, azğın düşmənlə mübarizəyə, həsrətlə yolumuzu gözləyən yurd yerlərimizi azad etməyə çağırış olan bu şeir poeziyamızda Qarabağ mövzusunda yazılmış gözəl nəzm nümunələrindəndir:

***Nə müddətdir sapsarıdır yaşılım,***
***tez əmr ver, düşmənimlə savaşım.***
***Qoy vurulum, torpağıma qarışım***
***Vur, komandir, vur!***

Şair düşmənin yarasa, xarabalıq sevən bayquş yuvasına bənzər səngərlərini nişan alan, tətik çəkən igidlərin barmaqlarını, polad biləklərini öpüb gözü üstünə qoymaq istəyir.

Müəllif cəsur oğulların varlığını doğma od-ocağımıza, müqəddəs səcdəgahlarımıza bərabər tutur:

***Tətik çəkən barmağını öpüm gəl***
***tuti bilim, gözlərimə təpim gəl***
***ocağım ol, səcdəgahım, pirim, gəl***
***Vur, komandir, vur!***

Bu nəzm parçasındakı komandir və sirasi əsgər obrazları işğal edilmiş torpaqlarımızın düşməndən tezliklə təmizlənəcəyinə müəllifin ümidinin və dərin inamının ifadəsidir. Həmin obrazlar rəşadəti, hünəriylə, yağını geri oturdan dəqiq həmlələriylə az sonra qazanacağımız parlaq Qələbənin əsasını qoyanlardır.

Şair deyir ki, "yağı tapdağında qalmış torpaqlarımızı al qanımızla geri qaytarmaq, əsir düşmüş yurd yerlərimizə sahib çıxmaq ən böyük arzumuz idi. Nə xoş bizə, rəşadətli ordumuz, müzəffər Sərkərdəmiz, igid əsgər və zabitlərimiz bu möhtəşəm Qələbəni bizə yaşatdılar".

Dönməz Ordumuzun 44 günlük Vətən müharibəsində bizə ərməğan etdiyi Zəfərin sevinc hissini yaşamaq bir söz adamı kimi, Faiq Balabəylinin də nəsibi oldu. O, çoxdan həsrətlə gözlədiyi Qələbəmizi vəsf edən şeirlər yazdı. Orijinal müəllif müdaxiləsi, bəzən sevinc, bəzən kədər dolu notlar üzərində köklənmiş "Şuşa" şeiri kimi. Şair elatın torpağa bağlılığını, bitib-tükənməyən sevgisini sözdən yaratdığı bədii lövhələr, yeni poetik deyimlərlə dilə gətirir:

***Mənim qoca şəhərim,***
***mənim uca şəhərim,***
***neçə ilin həsrətini çəkən,***
***yorğun şəhərim!***
***Özümüzdən çox uzaq,***
***könlümüzə çox yaxın,***
***gözümüzlə görünməyən tənha,***
***oğrun şəhərim!***
***Axır ki, qayıtdıq, gözlərin aydın!..***

***Nizama düşəcək qarışıq küçələrin,***
***verəcək özünə yaraşıq küçələrin...***
***Qaranlıqlar yox olacaq,***
***işıq küçələrin***
***üzünə xal kimi düşən şəhərim!..***
***Gözəldir hər tinin, guşən,***
***şəhərim,***
***axır ki, qayıtdıq, gözlərin aydın!***



*Akif İmanlı*

# Ay ana, gəl...

*(hekayə)*

Gecənin bir aləmində çənəmin altına qədər çəkdiyim yorğanın aşağı ucunda yekə, ağır bir əli hiss edəndə ürəyim qopdu. Ağlıma gələn bu oldu ki, evə oğru girib, özü də bu oğru peşəkarlardandır, oğruların lap yekəsindəndir, yəqin vor zakondur. Onun hərəkətlərindən açıq-aşkar təcrübəli oğru olduğu hiss olunurdu. Yorğanın üstüylə yekəpər əlini asta-asta sürüşdürüb boğazıma dirəyəcək, məni boğacaq və evi rahatca qarət edəcək. Bu fikir ağlıma gələndə məni dəhşətli titrətmə tutdu, bir dəqiqənin içində qan-tər oldum.

Rəhmətlik atam sakit, fağır bir kişiydi. O qədər yazıq adamıydı ki, qapazı başına vur, çörəyi əlindən al. Anam isə tamamilə əksinə, çox zirək, diribaş bir arvad idi. Ailəmizi anamız idarə edirdi. Məktəbdə bir problemimiz yarananda, qonşu uşaqlarla dalaşanda, döyəndə, döyüləndə anam özünü qabağa verər, hər işi sahmana salardı. Bu hesabla nə vaxt çətinliyə düşsəydik, anamızı köməyə çağırardıq. Odur ki, oğrubaşıyla ölüm-dirim mübarizəsində olduğum vəziyyətdə qeyri-şüuri "Ay ana, gəl, məni öldürüllər!" - deyib, var gücümlə qışqırdım və çənəmin altına qədər çəkdiyim yorğanı dartıb başımı onun altında gizlətdim. Mənim qəfil bağırtımdan çox güman ki, mürgüləməkdə olduğumu, yaxud yatdığımı zənn edən oğru diksindi və taktikasını dəyişmək üçün özünü çarpayıdan yerə atdı. Tappıltını bax bu, kar qulaqlarımla dəqiq eşitdim.

Bir azdan mətbəxdən qulaqlarıma qarmaqarışıq səslər gəldi. Vay səni, oğru deyəsən bir deyilmiş, şəriki də varmış. Səni görüm... Ağzımı açdım ki, arvada qarğış eləyəm, dilim gəlmədi; fikirləşdim ki, mənim qarğışım arvadı tutar, özüm pis günə qalaram. Nə qədər olsa evdə hənirtidir, azdan-çoxdan biş-düş edir, pal-paltarımı yuyur.

Mən keçən bazar bir qohum toyunda iştirak edəndə, orada verilən bildirçin ətindən çox xoşum gəlmişdi, doyunca yemişdim. Elə oradaca söz vermişdim ki, gərək bildirçinə bir şeir qoşam-düzəm. Bir həftədir əlləşib-vuruşuram, bir şey çıxmır, heç bildirçin sözünün özünə münasib qafiyə tapa bilmirəm.

İşimin bu cür şıdırğı bir vaxtında başı batmış, əşi cəhənnəm olsun, başı batmamış arvadım: "Mən getdim Sevərgilə (qızımızı deyir), qapını arxadan bağla".

Mənim də başım qarışıb qafiyə düzəltməyə, qapı-zad vecimə olmayıb. Oğruların işi rastına düşüb, qapını açıq görüb, daha qıfılı, filanı sındırmadan rahatca mənzilimizə daxil olublar. Vay səni, arvad! Qoy bu oğruların əlindən salamat qurtarım, əgər qurtara bilsəm, onda görərsən zərbi-dəstimi. Bu sahədə aciz olsam da, heç olmasa hap-gopla özümə təskinlik verim də.

Mətbəxdən gələn qarışıq-quruşuq səslər məni həm qorxudur, həm də təşviş hissimi artırırdı. "Vay dədə! - bu dəfə "dədə" nidası qəlbimi silkələdi: "Bu nə dəhşətli bağırtıdır?"

Mətbəxdə bolluqdur. Soyuducu ağzına qədər doludur. Mətbəx şkafında özümə bar kimi götürdüyüm gözdə araqdan, çaxırdan tutmuş viskiyə qədər hər cür içki növü var. Oğrular içib keflənsələr, vay mənim halıma. Kefli başda ağıl nə qayırır? Məni lap kef havasına qatlə də yetirə bilərlər. Bunu fikirləşdikcə lap dəhşətə gəldim. Bəs mən nə edim, İlahi? Elə bil beynimə aydınlıq gəldi. Yalnız ağız və burnumu açıq saxladığım yorğanın altından əlimi çıxarıb sağ böyrümdəki tumbanın üstündən telefonu tapdım. Əminəvəm, polis serjantı Bahadurun adını tapıb, düyməni basdım. İnsafən, Bahadur çox yubatmadı: - Alo, - deyən kimi mən pıçıltıyla:

- Bahadur, evə oğrular girib, ən azı iki nəfərdilər. Özünlə bir nəfər də götür, tez gəl bizə, qapı açıqdır. Həyatım təhlükədədir.

Şair demişkən, könlüm intizarda, gözüm qaldı yolda. Bir azdan yeriş taqqıltısının otağıma yaxınlaşdığını hiss etdim. Bu da sonum. Oğrulardan biri yəqin ki, kef havasına mənimlə məzələnməyə gəlir. Kefli başda ağıl olar ki, vurub məni öldürə də bilər. Oğrubaşı ola, özü də kefli. Oğrubaşının otağa daxil olması, işığı yandırması və mənim qorxudan huşumu itirib bayılmağım - bunların hamısı eyni anda baş verdi.

- Mən özümə gələndə başımın üstündə iki oğlum, iki gəlinim və bir də başı batmış, qoy olsun başı batmamış həyat yoldaşım, bir də polis serjantı dayanmışdı. Həyat yoldaşımın çöhrəsində ironiya qarışıq bir dodaqqaçdı sezilirdi. Ətrafdakılardan çəkinməsəydi hökmən belə deyərdi: "Ə, özünü artistliyə vurma, qalx ayağa".

Adımın sonuna artırdığı əlavəsiylə mənə Şiraslan müəllim deyə müraciət edən böyük gəlinim qaşlarını düyünləndib günahkar adamlar sayağı donuq nəzərlərini üzümdə cəmləşmişdi. Kiçik oğlumun ağzına uyğun mənə ata deyən kiçik gəlinim isə mənim bu halımı zarafat sayıb səmimi təbəssümlə gülümsəyirdi.

Mənim bayılmağım, görünür, beynimin dincəlməsinə səbəb olmuşdu. İndi tam aydınlığı ilə xatırlayıram ki, mən bildirçinə qafiyə tapmaq üçün baş sındıranda "Şiraslan müəllim, pişik sənə əmanət", "Ata, biz toydan qayıdana qədər pişik burada qalsın", - deyib gəlinlərim pişiklərini içəri ötürmüşdülər. Pişiklər də əks cinslərin nümayəndələri, özü də mart ayı. Mətbəxtdəki hənqaməni, sən demə, pişiklər törədirmiş...

## "Yaxşı ki, qadın olmamısınız"



**"Ədəbiyyat və incəsənət xadimləri, həmçinin də KİV-lər insanlara həmişə özlərindən üstün obrazları təqdim etməlidirlər ki, insanlar daha yaxşı olmağa can atsınlar".**

Adalet.az xəbər verir ki, bu fikirləri tanınmış şair Kamal Hüseynzadə dilə gətirib. "Daha pisi göstərmək pisə təsəlli vermək, bəzən isə dəlinin yadına daş salmaqdır. Mənfi obrazlar yalnız müsbət obrazların müsbət cəhətlərini daha da qabartmaq üçün lazımdır. Bu gün bizi dəhşətə gətirən hadisələri, obrazları hansısa bədii əsərdə görəndə "bəh-bəh" lə yayırıq, şəninə təriflər yağdırırıq. Dəlinin biri də baxır ona, deyir "sən öl, mən də belə edəcəyəm ". Çünki, bədii əsərdə hərə öz idealını tapır. Son dövrlər ölkəmizdə məşhurlaşan seriallarda, filmlərdə iki üç müsbət obraz var, qalanı hamısı əclaf, pozğun, manyakdır. Deyəndə deyirlər nə görürüksə onu da çəkirik. Göz bizdə də var da, qurban olum sizə. Yaradıcı insan öz təxəyyülündəki gözəllikləri əsərə köçürməlidir ki, əsərdən də həyata köçsün. Cəmiyyət nəyi görmək istəyirsə onu da göstəririk deyənlərə isə bir kəlmə sözüm var. Yaxşı ki, qadın olmamısız".

**Emin**



*Vaqif Yusifli*

# BADAM AĞACLARININ ŞAİRİ

**İbrahim Yusifoğlunu - Naxçıvan ədəbi mühitinin yetirməsi olan bu istedadlı, zəhmətkeş şairi 40 ilə yaxındı ki, tanıyıram. O, doğrudan istedadlıdır - istedad məhz zəhmətlə vəhdətdədir. Daim axtarış, poeziyaya sonsuz məhəbbət, şeirdə təzə söz demək, bir kimsəyə bənzəməmək mücadiləsi İbrahimi bir şair kimi səciyyələndirən əsas amillərdir. İndiyə qədər İbrahim Yusifoğlunun otuz üç kitabı nəşr edilşib. O, həm şairdir, həm də publisist. Hər ikisində çalışıb ki, uğurlu addımlar atsın. Amma mən bu yazıda onun ancaq şairliyindən söz açmaq istəyirəm. Deyə bilmərəm ki, İbrahim Yusifoğlunun bütün şeir kitablarını oxumuşam. Amma əsl şairi qiymətləndirmək üçün onun təkcə bir şeirlər kitabını (hətta mən deyərdim ki, lap bir neçə şeirini oxumaq kifayətdir) vərəqləmək bəs edər. Mənə bircə gilə göz yaşı bəsdi" - şeirlər kitabı mənim fikrimcə İbrahim Yusifoğlunun həm də ömür kitabıdır. İbrahim Yusifoğlunu bir şair kimi səciyyələndirərkən ilk növbədə onun vətənpərvərlik missiyasından söz açmaq istəyirəm. Hər bir şair vətənini sevir, yaxşı şeirlər yazıb onu nəql etmək arzusu ilə yaşayır. Amma necə? Vətən haqqında yazılan şeirlərdə gərək elə söz deyəsən ki, minlərlə vətənə həsr olunun şeirlərdən seçilsin, fərqlənsin. İbrahim Yusifoğlu Naxçıvanın Şəruru böyük Azərbaycanı özü qədər sevir və əslində böyük Azərbaycan onun üçün Naxçıvandan, Şərurdan başlayır.**

Baxın:

*Ürəkdə qan coşar, ilham çağlayar,*
*Bu qədim qalanı seyrə gəlincə .*
*Hər kəsi özünə qəlbən bağlayar,*
*Qürur mənbəyimiz məğrur Əlincə.*
*O adi dağ deyil, nəqşicahanın,*
*Bütövlük, mətinlik güc simvoludur.*
*Namərdlər önündə dik tutub başın,*
*Əyilməzlik rəmzi, haqqın yoludur.*

Təfərrüata baxmadan Əlincə haqqında yazılan bu şeirin sırasına "Günnütüm" "Oğuz torpağıdır özü Kərkinin", "Arpaçaya gedən yol", "Şərurun", "Bütün istəyinə çatıb Naxçıvan" "Naxçıvanam" şeirlərini də qata bilərəm və bu şeirlərdə konkret poetik detallar, uğurlu bənzətmələr diqqətdən yayınmır.

*Təpələrin, dağların,*
*Bellərində kəmərdi*
*İllərin gur selinə,*
*Dözərək sinə gərdi.*
*İlin bütün çağında*
*Gülü, bol, çiçəyi bol,*
*Qəlbləri ovsunlayar*
*Arpaya çaya gedən yol.*

İbrahim Yusifoğlu həm də təbiəti gözəl duyan və necə deyim, təbiətin gözəlliklərini öz içində, duyğularında yaşayan şairdir. Akademik İsa Həbibbəyli çox doğru olaraq yazır ki: "Adama elə gəlir ki, İbrahim Yusifoğlu Şərurun qonur, çılpaq dağlarını və Arpaçay vadisini alaseyrək çiçəkli badam ağacı sifətində görür. İbrahim Yusifoğlunun təbiət şeirləri sanki badam ağacında bənövşə çiçəyidir". Həmin şeirdən bu hissəyə baxın:

*Yamyaşıl dünyadı yalı-yamacı,*
*Tanrı da nurunu gur eləmişdi.*
*Dağın döşündəki badam ağacı,*
*Bənövşə çiçəyi çiçəkləmişdi.*
*Badam ağacının füsunkar halı*
*Bəlkə də baharın ləli-zəriydi.*
*Ancaq görürdüm ki, qəlbi havalı*
*Bir şair oğlanın şeirləriydi.*

*Bəlkə, müəllim ömrü yaşadığından ,*
*Badam bənövşəyi al çiçəkləyib.*
*Yəqin, şagirdlərin barmaqlarından*
*Şehli çiçəklərə mürəkkəb dəyib.*

Gözəl şeirdir!

İbrahim Yusifoğlunun kitabında birinci silsilə "Zəfər nəğməsi" adlanı. Və bu silsilədə müstəqil Azərbaycanın zəfərləri, uğurları tərənnüm edilir, həm də ötən illərin ağrılı hadisələrindən söz açırlar. "Yaşa müstəqillik çağının, Vətən deyən şeir ötən illərdəki faciələri də ürək ağrısı ilə qələmə alıb, Şuşasız, Xosalısız illəri yad edib.

*Qoynundakı yadlar qavulacaqdır,*
*Şişmiş burunları ovulacaqdır,*
*Bu dərd içimizdə qovrulacaqdır,*
*Sinəmə çəkilən sağalmaz dağım -*
*Xocalım hey... Xocalım!*

32 il bundan əvvəl yazılan "Xocalım hey... Xocalım" şeirindəki şair inamı gələbə çaldı. Şuşamız, Xankəndimiz, Xocalımız yağı düşməndən təmzləndi.

Onun "O günəş ömrüdü, sönməyəcəkdir" poeması ilə mən deyərdim, müstəqillik epoxamızın öndəri Heydər Əliyevə həsr edilib. Poema təkcə ulu öndərə böyük məhəbbətin təcəssümü deyil, həm də onun parlaq obrazını yaratmaq mənasında ən maraqlı, oxunaqlı bir əsərdir.

*Bir insan ömründən söz açıram mən,*
*O, Günəş ömrüdü, sönməyəcəkdir.*
*Səadət verdiyi milyonlar qəlbən,*
*Onun haqq yolundan dönməyəcəkdir.*

İbrahim Yusifoğlunun "Sən demə bu dünya mənlilik deyilmiş" silsiləsində öz şair taleindən söz açır. Bu şeirlərin sırasında kədərliləri də var, günümüzün reallıqları da əks olunur. Xüsusilə "Ağlama" və "Kövrəkliyi" şeirlərini bu mənada çox bəyəndim. Üzü dağlara-dağlara şeirində deyir:

*Qəm-qüssənin xeyri nədi,*
*Bu fələyin xeyrinədi.*
*Sinəmizsə daş sinədi,*
*Dözər dağlara-dağlara*

Şair İbrahim Yusifoğlunun məhəbbət ruhlu şeirləri də qəlb oxşayandır. "Mənə bircə gilə göz yaşı bəsdi", "Mən zalım adamam", "Mənə bir məhəbbət şeir oxu", "Çətin olacaqdır bu payız sənə", "Sən niyə bu qədər gözəlsən axı", "Sənin gözlərindən məhəbbət yağır", "Çıxart ürəyindən, çıxart at məni" kimi şeirlərində saf və təmiz məhəbbət ilhamla tərənnüm olunmuşdur.

*Göylərin üzünü aldı buludlar,*
*Hələ qəlb üşüdən külək də əsdi,*
*Mənim səndə xeyli əmanətim var,*
*Qaytarsan bir gilə göz yaşı bəsdi.*

Mən İbrahim Yusifoğlunun "Elmizə bahar gəlir" poemasını da onun bu janrda yazdığı ən gözəl əsər hesab edərəm. Mən deyərdim ki, İbrahim Yusifoğlunun bütün poetik detalları bu poemada daha bariz nəzərə çarpır. Şairin poetik reallığına məxsus olan bənzətmələr, təsvir manerası bu poemanın canına, ruhuna çöküb. Arada nəsr dili ilə ifadə olunan səhifələr də həmçinin o şeirlərə poetik gözəllik qatır.

Mən İbrahim Yusifoğlunu 70 yaşı münasibəti ilə ürəkdən təbrik edirəm, ona uzun ömür, könül xoşluğu, sağlamlıq və yaradıcılıq uğurları arzulayıram. Sözümü onun "Badam ağacı" şeiriylə bitirirəm: O, Badam ağaclarının yeganə şairidir deyirəm, -

*Bahardır, qəlblərdə arzular coşur,*
*Boylanır bənövşə -baharın tacı,*
*Bülbül qızıl gülə mahnılar qoşur,*
*Çiçəklə, çiçəklə, Badam ağacı.*

*Çəmənlər, təpələr xoş ətir saçır,*
*Dağ çayı daşları yarıb yol açır,*
*Uşaqlar kəpənək ardınca qaçır,*
*Çiçəklə, çiçəklə Badam ağacı.*

*Qartallar boylanır dağlarımızdan,*
*Şən nəğmə səslənir bağlarımızdan,*
*Ellər söhbət açır bol varımızdan -*
*Çiçəklə, çiçəklə Badam ağacı.*

*Səmadan nur yağır yenə hər yana,*
*Tarla da, bağlar da gəlibdir cana.*
*Sən bolluq rəmzisən Azərbaycana,*
*Çiçəkli, çiçəkli Badam ağacı!*

# YAŞI QOŞALAŞAN, TƏKADAMLIQ YAZIÇI!

**Esse**

***Yazıçı, publisist, Birinci Qarabağ müharibəsi veteranı, atam Vaqif İsaqoğlunun 65 yaşına!***

Bəxt insan həyatının ən vacib elementidir. Bu element bəzən özü səni tapır, bəzən də sən onu tapırsan. Ancaq itirdiyin bəxti bir də heç vaxt tapmaq olmur...

Elə insanlar var ki, bəxti özündən əvvəl doğulur, elə də adamlar var ki, bəxti ölümündən sonra açılır... Adətən istedadı olan adamların bəxti olmur. Çünki bəxti olsaydı, o istedadlı olmazdı. Bəxt ilə istedad tərs mütənasibdir...

İstədiyi kimi bəxti olmayan, ancaq öz bəxtindən də küsməyən istedadlı imzalardan biri də bu yaxınlarda 65 yaşını tamamlayacaq, yazıçı, publisist Vaqif İsaqoğludur. Atam olduğuna görə demirəm, tənqidi qəbul edən adamdır. Bəzən yaradıcılığı ilə bağlı öz qeydlərimi bildirəndə bunu çox rahat qarşılayır, əslində bu məni təəccübləndirir. Çünki Moskva Dövlət Universitetinin məzunu olan, uzun illər Azərbaycan mətbuatında çalışan, ancaq bir dəfə də olsun, giley-güzar etməyən bir adam həm də etiraz etməlidir axı... Ancaq onun etirazı içindəki hekayə qəhrəmanlarınadı, povest sujetlərinədir...



Hərdən ədəbi mübahisələrimiz olur. Bu ədəbi mübahisələrdə mən onu çox həssas olduğu üçün qınayıram. O da mənim qınağımı qəbul edir, ancaq yenə də öz bildiyini edir. Qəribə yazı metodu var: öncə yazılarını əlyazma ilə işləyir, sonra həmin əlyazmanı kompüterə köçürür. Bu onun yazı stilidir. İki otaqlı evimizin bir otağı onun yazı məbədidir. Ora icazəsiz girmək olmaz, məbəd ancaq yazı prosesi bitəndə üzümüzə açıq olur. Bu mənada bəzən xırda narazılıqlar olmur desəm, yalan olar...

Müasir elektron resurslarını qəbul etməyən adamlardan biri kimi qəzeti də, kitabı da vərəqləyib oxuduqca sanki sehrli bir aləmə düşür. Bu sehrli aləmdə onun əllidən çox kitab müəllifliyi, onlarla publisistikası, poetik nümunələri canlanır. Müəllifi olduğu kitabları övladı kimi sevir, hər birini rəngindən, formasından, baxışından tanıyır...

Bu yaxınlarda dəyərli ziyalımız Fəxri Uğurlu ilə rastlaşdım. Görüşüb, hal-əhval olduq. Maraqla atamı soruşdu, dedi ki, "Cavanlıqda atanla yaxın dost olmuşuq, salam söylə atana"...

Təkadamlıq olduğu üçün atam indi özünə çəkilib. Özünə çəkilib ki, hamını yaxşı görə bilsin. Bəzən yaxından hamını görə bilmirsən, uzaqlaşdıqca hamı aydın görünür...

65 yaş geriyə baxanda uzaq görünsə də, önə baxanda elə də uzaq deyil. Bunu anlamaq üçün mən hələ otuz il də yaşamalıyam. Ki, atamın yaşının həqiqətini və mahiyyətini dərk edə bilim. Yazıçı üçün yaş faktorundan çox, ruh faktoru önəmlidir. Yazıçı kimi öz formanda qalmaq üçün gərək hər gün yazasan. Bunu vərdiş halına gətirməklə əldə etmək olmaz. Yazıçı Vaqif İsaqoğlu yazını vərdişə çevirməyən, bu işi mənəvi dincliyi üçün görən imzadır. Bu mənəvi dinclikdə cəmiyyətimizin inkişafı da var, gələcəyi də var, düynəni də var, bu günü də var...

Bu gün isə yaşmaq lazımdır. Yaşamaq lazımdır ki, yaza biləsən. Yazmaq və yaşamaq eşqinin daima var olması arzusu ilə...

**Tural Cəfərli**

# AĞDAM ÇÖRƏK MUZEYİNDƏ

**Torpaqlarımızın işğaldan azad olunmasından sonrakı ilk yaz idi. Otuz ilə yaxın isti nəfəsə həsrət qalan Qarabağım indi öz azadlığına qovuşmuşdu. Zəfər bayramından sonra dərs dediyim məktəbə, şagirdlərimlə görüşə qürur hissi ilə gedirdim. Hər azərbaycanlı kimi torpağımızın hər qarışının tarixini öyrənmək və şagirdlərimlə tanış etməyi özümə borc bilirdim. Uşaqlarla Qarabağın tarixi abidələrindən və muzeylərindən danışdıq. Dərsin sonunda uşaqların diqqətini çəkən bir muzey oldu. Üzün illərdən sonra mənim də ilk getmək arzusunda olduğum məkan Ağdam çörək muzeyi idi. Biz bu barədə rayon təhsil şöbəsinə, Təhsil Nazirliyinə məktəbimiz adından icazə almaq üçün məktub göndərdik.**

Nəhayət, yazın son günlərində may ayında məktubumuza cavab gəlmişdi. Həmin vaxtlarda işğaldan azad olunan rayonlara səfərlər təşkil olunmağa başladı. İlk səfərlər şəhid ailələri ilə yanaşı Ağdam əhalisinə də icazə verilmişdi. Beləliklə növbəti həftə Ağdama səfərimiz təyin olundu. Ağdam rayonu, 1 saylı orta məktəbdə sevincli anlar yaşanırdı. Sinfimiz Ağdama yola düşürdü. Bu şagirdlərin valideynləri bəlkə də doğulmamışdı, bəziləri isə elə bu uşaqlar yaşında idi, Ağdam işğal olunanda. Beləliklə yolumuz Ağdam Çörək Muzeyinədir...

Şəhərin mərkəzi ilə uzanan yolun hər tərəfindən işğalçıların əməlləri insafsızcasına törətdikləri vəhşiliklər uşaqların ürəyini ağrıdırdı. Yolboyu uşaqların sualları bitmirdi... Keçdiyimiz dərslərdən bu şəhər haqqında öyrəndikləri həqiqətlər və düşmənin törətdiyi cinayətlər idi mövzumuz.

Səyahətimizi Memarı Kərbəlayi Səfixan Qarabaği olan 1868-1870-ci illərdə tikilmiş Ağdam Cümə Məscidindən başladıq. Şagirdlərə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Ağdam şəhərində yerləşən Ağdam məscidini ziyarətindən bəhs etdik. Onu da qeyd edim ki, Prezidentimiz İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışlayıb. Bu isə bütün ağdamlılar üçün böyük sevinc və diqqət idi. Artıq Ağdam Çörək Muzeyinə çatırdıq. Uşaqlar səbirsizliklə bu qeyri adi muzeylə tanış olmağı arzulayırdı. Bu muzey yolun kənarında iki mərtəbəli binada yerləşməsinə baxmayaraq ətrafını da özünə cəlb edərək birləşdirmişdi. Binanın üzəri milli musiqimizi və rəqsimizi ifadə edən ornamentlərlə bəzədilmişdi. Qəribədir ki, işğalçı düşmən qüvvələrinin hücumu zamanı muzey iki dəfə mərmi zərbəsinə tuş gəlmişdir (1992-ci il avqustun 12-də və saat 16:40-da). Bu mərmilərin düşməsi nəticədə muzeyin mövcudluğuna son qoysa da, binanın üzərindəki şəkilləri olan divarı uçub, dağılmamışdı. Biz üç tərəfi dağılmış, bir binanın qarşısında uçulmuş otaqlarını xəyalımızda canlandırmağa çalışırdıq. Şagirdlər üçün maraqlı məqamlardan biri də bu muzeydə saxlanılan eksponantlar idi. Bu muzey dünyada ikinci Çörək Muzeyi sayılır. İlk dəfə bu adda muzey Almaniya şəhərində açılmışdı və indiyə qədər fəaliyyətini davam etdirir. Adından aydın olduğu kimi bu muzeydə çörəyin müxtəlif növləri nümunə kimi saxlanılır. Həmçinin qədim avadanlıqlardan - dəyirmanlar, II əsrə aid əl dəyirmanı "kirkirə", "çarçar" adlandırılan taxıldöyən xış, taxıldöyən lövhə, bıçaq, oraq, sərgilənib. Buradakı müxtəlif buğda növləri, taxıldan hazırlanan eksponatlar, müharibə illərində uşaqlara verilən çörək kartoçkaları, habelə buğda toxumlarından hazırlanmış Azərbaycanın xəritəsi, gələn qonaqlar tərəfindən maraqla qarşılanırdı. Muzeyin ilk qonaqları 1983-cü il noyabrın 25-də təşrif buyurmuşdu. Bu gün biz Ağdam şəhərində Azərbaycan bayrağı dalğalandıqdan sonra bu muzeyin ilk ziyarətçiləriyik. Gün günortanı keçirdi, havada Şahbulağın sərinliyi hiss olunurdu. Uşaqlar geri qayıtmaq üçün avtobusa minirdi. Bu muzeylə tanışlığımın maraqlı tarixi vardır.

Ağdam işğal olunanda mənim altı yaşım vardı. Həmin payızda mən məktəbə gedəcəkdim. Məktəbimiz təxminən bu küçələrin birində olmalı idi. Atam mənə məktəbi uzaqdan göstərmişdi. O zaman bu yollarda füsünkar bir qoxu gəzirdi. Çörəklərin ətri birbirinə qarışmışdı. Utandım atama deyim acımışam, soruşdum ki, bu yaxınlıqda nə satılır? Atam məni qucağına götürərək yolun o biri üzündən əli ilə işarə edərək, muzeyi göstərdi. Burada dünyanın ən gözəl, dadlı çörəkləri bişir - dedi. Məni maşında əyləşdirib, qaçaraq yolu keçdi. Gələndə əlində isti təndir çörəkləri vardı...

İndi mən, atamın maşınının dayandığı həmin küçədə avtobusda şagirdlərimlə oturmuşdum. Avtobus irəlilədikcə, həmin çörəklərin qoxusu ilə sanki qucağımda atamın bu muzeydən aldığı təndir çörəklərini bərk-bərk qucaqlamış və səbirsizliklə anamın süfrəsinə çatdıracağım anı gözləyirdim. Uşaqlar isə elə hey təsüratlarını bölüşürdü.

**Bu muzeyin hələ çox qonağı olacaq. Gələcəyin memarları muzeyin təmirdən sonrakı vəziyyətindən, biznesmenləri digər ölkələrdən gətirəcəkləri nüunələrdən, siyasətçiləri oradakı xarici qonaqlardan, şairləri isə indidən qafiyə axtarırdı...**

**Könül Aslanova**
**Ağdam şəhəri, 1 saylı tam orta məktəbin müəllimi**

# SÖZƏ SÖYKƏNƏN ADAM

**Şairlərin həyatda ən böyük güvənc yeri, ən çox tapındığı, müqəddəs sandığı Sözdür. Söz şairlər üçün canlıdır, ruh verəndir, yaşadandır. Şair həyata və Allaha olan eşqini sözlə ifadə edir. Şair Allahla öz arasında eşq yolunu Sözlə çəkir. Şairin gücü sözündədir. Çünki o öz dünyasını Sözlə yaradar, Sözlə Allaha yaxınlaşır. Sözlə ünsiyyət qurur. Sözlə kamilləşir. Sözə olan inam, inanclı sözə tapınmaq şairlərin iman yoludur.**

Bu iman yolunda şair Əbülfət Mədətoğlu da İlahi sözə tapınır, inanclı Sözə söykənir.

*Eşq sonsuz, dünya gidi,*
*İnanc sözə söykəndim.*
*Ürək mənə "döz" dedi-*
*Susub, dözə söykəndim.*

*...Varlığın mənə həbdi,*
*Gözlərimə nur təpdi.*
*Qələm verən Söz səpdi -*
*Mən o sözə söykəndim.*

Allah tək deyil, Allah böyüklüyündə təkdir. Şairlər də tənha olmurlar, tənhalıqlarında tək olurlar. Şair dünyasının tənhalığı onun yaşadığı dünyanın dərdlərini, ağrı-acılarını Sözlə Allaha çatdırmaq məqamıdır. Qələmi şairə Allah verir, qəlbinin tarlasına Söz səpir. Və şair tənha gecələrdə sözə söykənənərək bəşəriyyətin dərdlərini Allaha danışır. Yerlə Göy arasında ünsiyyət yaradır. Sözün ruhu Göyə gedir, əlimizdə isə qələmin yazdığı qalır. Dərdimizi, sevincimizi, ağrı-acılarımızı, sevgimizi, məhəbbətimizi maddiləşdirən söz kitabdan-kitaba, tarixdən-tarixə, zamandan-zamana ötürülür.

Şair unudulmaq təhlükəsini yaxın buraxmır. Gördüyünü, bildiyini yazır ki, yaddan çıxmasın. İllərin tozunu silib unudulanı yenidən xatırladır.

*Əbülfət gördüyün, bildiyin yazır,*
*İllərin yadından sildiyin yazır.*
*Haradan haraya gəldiyin yazır,*
*Hərə də seçdiyi tuşa dırmaşır.*

Şairin seçdiyi tuş isə ilahi yüksəkliyə qalxmaq istəyidir. İnsanların kamilliyi, bütövlüyü, insanlığı elə bu istəyin özündədir.

Bu istəyə çatmaq, bu kamilliyə qovuşmaq isə kədərlə sevinci, dərdlə eşqi birgə qəbul etməklə mümkündür. Çünki dünya bir rəngdə deyil, ağlı-qaralı, gecəli-gündüzlüdür. Bu ikili dünyanın təzadlarını dərk etmək, olduğu kimi qəbul etmək insanı bütöləşdirir, kamilləşdirir. Bu bütövlüyü qəbul etməyən insan cəhalətdən çıxa bilmir.

Şair Əbülfət Mədətoğlu dərdi sevməyi, oxşamağı bacarır. Şehli- şehli dərdiyi Dərdlə sirdaşlıq edir, onunla bir divar, bir daş olur.

*Tumurcuğu çırtlamış -*
*Təzə dərdim- tər dərdim.*
*Mən səni şehli-şehli*
*Təzə dərdim, tər dərdim.*

*Sarıldın sən də mənə,*
*Eşq vardı səndə mənə.*
*Titrəmə, səndələmə -*
*Sən də məni dər, dərdim.*

*Qarışaq, sirdaş olaq,*
*Bir divar, bir daş olaq...*
*Dərdlərə bir qaş olaq-*
*Sən üstündə zər dərdim.!*

"Sarıldın sən də mənə, Eşq vardı səndə mənə" misraları böyük Məhəmməd Füzulinin "Mən istərəm bəlanı, çün istər bəla məni" misrası ilə necə də doğma səslənir. Çünki bu eşq dərdi, bu eşq bəlası poeziyanın gücü və fikrin ifadə gözəlliyi ilə fərdi çərçivələri aşaraq ictimailəşir, dinləyicinin, oxucunun qəlbində özünə yer tapır. Şair bu kiçik şeirdə cinaslardan, anafora, epifora və təkrirlərdən məharətlə istifadə edərək, poetik ustalıqla oxucu qəlbinə yol çəkir, oxucunu öz dərdinə şərik etməyi bacarır.

Sözünü dağlara ünvanlayan, dərdini dağlara danışan şairlər çoxdur ədəbiyyatımızda. Çünki şairlərin dərdini Dədə Ələsgərin oxşadığı "dərdli, nalalı" dağlar anlayar ancaq.

Elə 33 illik yurd həsrərini, ağrı-acılarını Əbülfət Mədətoğlunun da üzünü dağlara tutub danışması, sözünü dağlara deməsi təsadüfi deyil. Şair sözünü təkcə "göylərə baş vuran" uca dağlara yox, eyni zamanda illərlə didərgin qəlblərdə qubar bağlamış həsrət dağlarına deyir. Şairin şeirin rədifində iki dəfə "dağlara, dağlara" deməsi bu anlamı, bu assosasiyanı yaradır.

*Yenə könlüm qan ağladı,*
*Baxdım dağlara, dağlara.*
*Dolub qaralmış buludtək*
*Yağdım dağlara, dağlara.*

*Qayaları xəncər oldu,*
*Uçrumları səngər oldu.*
*Bir az duman əngəl oldu-*
*Qalxdım dağlara, dağlara.*

Dərdini başına alıb dağlara, daşlara çaxan şair şeirin son bəndində özünü bir bayraqtək dağların zirvəsinə, dərd dağlarının zirvəsinə taxır. Dağlarla əbədi dərddaşlıq edir.

*Havalanmış ruhum şimşək,*
*Bəsdi, mənə sən az şum çək.*
*Əbülfəti bir bayraqtək*
*Taxdım dağlara, dağlara.*

Bu gün Əbülfət Mədətoğlunun poeziyası 33 il həsrətini çəkdiyi doğma dağlarda qələbə, Zəfər bayrağı kimi dalğalanır. Şair üçün söz həm də işıqdır. O, sözün işığında oxucusu ilə baş-başa dayanıb söhbət edir. Sözlə oxucusunu qəlbinə işıq salır. Bilir ki, insanın qəlbini nurlandıran, yaxşısını, yamanını üzə çıxardan sözdür.



Şair, həmçinin, insanların qəlbində işıq axtarır. Onların qəlbindəki öləziyən inam işığını sönməyə qoymur. Bilir ki, sabaha,gələcəyə olan inamdır insanı qələbəyə aparan.

Şairin çoxşaxəli baxış bucağında, eyni zamanda, işığın içində insan axtarışı da var. İşığın içərisindəki insanı isə yalnız İlahi sözün və İlahi eşqin qüdrəti ilə bəsirət gözü ilə görmək mümkündür.

Şairin eşqi də bu bəsirətdən keçir. Sevdiyi adamı işıq içində axtarır. Müqəddəs Birin bəxş etdiyi sevgini özünə Qiblə, Pir bilir.

*Tanıdım, vuruldum, bildim sirr səni,*
*Seçdim Qiblə səni, seçdim Pir səni.*
*Yuxuma gətirir hərdən Bir səni -*
*Bu xətrə qoy qurban olum gecəyə.*

Şair işığın eşqinə gecəyə, qaranlığa da qurban olmağı bacarır. Zülmətin bağrında işıq gizləndiyi kimi sevgilisinin gecələr yuxuya girməsini qaranlıqdan işığın doğmasına bənzədir.

Şair gecələr çəkdiyi ağrısını da əzizləyir, ağrıya da gözəlim deyib onu oxşayır. Səsini boğub dizlərini yumruqlamaqla yatmayıb səhəri dirigözlü açır.

*Dizlərimi yumruqlayir öz əlim,*
*Səsin boğub küsdürürəm özümdən.*
*Hiss edirəm ağrı adlı gözəlim*
*Gətirəcək bu gecəni gözümdən. -*

Ağrının gecəni gözündən gətirməsi ifadəsi yuxusuz keçən gecəyə ən gözəl, orijinal poetik tapıntıdır desək, yəqin ki, razılaşarsınız.

Əbülfət Mədətoğlu məqalələrinin birində yazır: " Həyatda mənim üçün əl ilə toxunulmayan, göz ilə görünməyən, ruhdan və ürəkdən süzülən, eyni zamanda, ruhu və ürəyi ifadə edən və nəhayət, canımın canı olanlara münasibətimi sergiləyən - Sözdür!"

Bəli, şair bütün doğmalarına, oxucularına, həyata münasibətini, fikrini sözlə sərgiləyir. Adi sözlə yox, poetik naxışlarla cilalanan obrazlı sözlə!

**Yaradıcılıq aləmində, sənət zirvəsinə gedən yolda şairin ən etibarlı güvənci, ən həzin xatirəsi, ən anlaşıqlı sirdaşı, ən kamil həmsöhbəti Sözdür. Qanadlı sözlərlə sirdaşlıq edib zirvələrə doğru yol gedən şairə uğurlar arzulayırıq!**

**Ağamir CAVAD**



Adilə Səfərova,
Azərbaycanın Əməkdar mədəniyyət işçisi

# Bulud olmaq istəyirəm

(Mənsur şeir)

**...Bulud olmaq istəyirəm, bir az tutqun, bir az susqun, ürəyimdə diləyim var. Kövrəklikdə dağ çiçəyi, zəriflikdə gül ləçəyi rayihəli muradım var. Lal könlümün sükutuna haray salan, mürgüləyən duyğuları diksindirib oyandıran, dağ seli tək coşubdaşan bir arzum var: bulud olmaq istəyirəm!**

**Bulud olmaq istəyirəm. Dünyamızın məşəlini pünhan edən, yerlə göyün arasında rübənd olan, maviliyə topa-topa naxış salan pəmbə bulud. Al günəşin şəfəqləri işıq salsın, nur çiləsin camalıma. Minçalarlı əlvan dona, zər libasa bürünüm qoy. Bu işvədən, bu qəmzədən sevdalansın qoy asiman. Sevgisinin atəşindən qoy sinəmdə şimşək çaxsın, naxışlanan qövsi-qüzeh kəmərimi taxım belə. Bu coşqudan mehirlənən rüzgarların təmasından sığallanım, tumarlanım, xumarlanım; kövrəlib qoy, axım elə, axım belə. Yer üzünün sevgi dolu baxışından suya həsrət torpaqların cadar-cadar "naxış"ından bitab olum. Tab etməyim suya təşnə olanların hicran saçan o həsrətli baxışına. Qəhərlənim, qüssələnim, kədərimdən coşub daşım, dönüm leysan yağışına...**

**Bulud olmaq istəyirəm; dünyamızın həyat rəmzi yaşılına can bəxş edən, bərəkətə simvol olan gur damlalı, nur damlalı yağmurlara dönən bulud. Qoy ələnim yer üzündə bağrı yanıq çəmənlərə, düzənlərə, təşnə olan ormanlara, quraqlıqdan rəngi solan dağ döşündə yamaclara... Ülfətimdən otun, kolun bitsin qəmi, boynu bükük gül-çiçəyin solğun-solğun qönçələri pardaqlanıb ətir saçsın... Qoy çilənim bağçabağın gülsün üzü, bərəkəti könül açsın... Aşıb daşsın tarlaların bəhər-barı, zəmilərin artsın varı.**

**İstəyirəm bulud olub sel gətirən, çay daşıran leysan kimi yağa biləm. Ağ işıqlı dünyamızın siyah rəngli yönlərini-viran olan yurdlardakı külə dönən ocaqların, can yaxılan, qanlar axan torpaqların, kirpasını yuyub silim.**

**Elə yağam od ələyən, alov saçan, canlar yaxan müharibə ocaqları sönər olsun. Qərib olub yurd-yuvasız səfil olan ellər geri dönər olsun; ocaq çatsın... Mərmilərin, güllələrin kül etdiyi torpaqlarda çiçək açsın.**

**Bulud olmaq istəyirəm. Ürəklərdə rişə atan ədavəti, qəzəb-kini, ömürlərə xallar salan qara günü, könüllərdə köynək olan ahı, ünü yuya bilmək istəyirəm. Yer üzünün paklığını, saflığını, xoş günlərin ağlığını duya bilmək istəyirəm**

**Bulud olmaq istəyirəm. Bu arzumun gerçəyinə umud olmaq istəyirəm!!!**

Fidan Abdurəhmanova
Filologiya üzrə fəlsəfə doktoru, dosent



# BİR OVUC SAÇ

**Sonuncu gecəni şirin-şirin söhbət edərək yuxuya getmişdilər. Anası hər gecə olduğu kimi qoruyucu mələk kimi qucaqlamışdı. Onlar ayılanda artıq binaları çökmüş, işıqları sönmüşdü. Dağılmış binanın uçmuş divarları arasında isti ana qucağında yatmışdı Zöhrə. Anasının qucağına hansı şəkildə sığınmışdırsa elə də çökmüşdü.**

**Anasının ağırlaşmış vücudu soyuyur, köksündə döyünən ürəyinin ahəngi getdikcə zəifləyirdi. Zəlzələdən 36 saat keçmişdi. Saatlar keçdikcə insanların ümidi azalırdı. Bu 36 saatın içində yüzlərlə yaralı insan soyuqdan donaraq bu dünyanın qaranlıq divarları altında rəhmətə getmişdi.**

**Bayırdakı qarın şaxtası içəri vurmuşdu, soyuqdan donan bənizi ilə anasının arzularını xatırlayırdı. Anasının ən böyük arzusu rəsmlərimdən ibarət sərgisinin keçirilməsi idi.**

**Bütün bunları düşündükcə beyni işıqlanır, qəlbi isinirdi.**

**Rəsmlərini tamam unutmuşdu. Tələşla otağa göz gəzdirərək sonuncu tablosunun yerinə baxmaq istədi. Anasının donmuş vucuduna çökmüş beton parçası ona mane oldu.**

**Yenidən anasını qucaqladı qonşu divarla aralarında olan saatı xatırladı. Bir dəfə evlərinə qonşudan su axmışdı. Zöhrə tez qonşuya qaçıb suyu bağlamaq üçün xəbərə getmişdi. Qonşu qadın divardakı saatı göstərib soruşmuşdu:**

**- Sizin evinizdə divarın o biri üzündə nə var?**

**- Saat... deyə cavab vermişdi.**

**- Anamdan yadigar qalmış bu saat siz bu evə köçəndən iki il sonra işləməyə başladı. Bu möcüzəli hadisənin səbəbini bilmədik, dedi qonşu.**

**Zöhrə düşündü ki, bəlkə anasını bərk qucaqlasa onu öz qəlbi ilə isidərək yenidən həyata qaytara bilər. Saat kimi... Beləcə şirin xəyallarla özünü ovutmağa çalışdı.**

**O, otağına dağılmış personajları ilə başbaşa qalmışdı. Həyətdən xilasedicilər tərəfindən salınan işıqlar ara-sıra rəsmlərin də yerini müəyyənləşdirirdi. Çəkmiş olduğu bu rəsmlər onun gördüyü sonuncu mənzərə idi. Ən darıxdığı anlarda həyatın əsl siması ilə başbaşa olanda özü kimi məsum ağ vərəqləri ilə üz-üzə qalırdı. Bu vərəqlərdə uşaqlığının onlarla xatirələri canlanmışdı. Bütün personajları ona doğma və maraqlı idi.**

**Zəlzələ yalnız torpağı, yer üzünü deyil, insan həyatını da alt-üst etdi. İnsan təbitən ən böyük varlığı, ruhudur demişdi müəllimlərimiz.**

**Nə qədər böyük olsa da, təbiətin qarşısında gücsüz və acizdir. Təbiətin havasından udan, suyundan içən insan təəssüf ki, bunun fərqinə çox vaxt bir rəsmdə qarşılaşarkən varır. Uşaqlar dərsi hərflərdən əvvəl şəkillərlə öyrənirlər. Bəlkə də bu səbəbdən onları aldatmaq çətin olur. Bitməz-tükənməz sualları isə insanların davranışlarını beyinlərindəki mənzərələrlə uzlaşmamasıdır.**

**Hər iki qonşunun saat asdığı beton divarı yavaş-yavaş qaldırırdılar. Saatların əqrəbləri zəlzələnin vaxtını göstərirdi. Yəqin ki,bu evdə son təqvimin son saatı idi. Üzərindəki dağıntıları təmizlədikcə göyün üzü ilə təması yaxınlaşırdı. Ay heç vaxt bu qədər gözəl və yaxından görünməmişdir. Sanki aydan bir əl uzanacaq dağıntılar altında qalan bütün uşaqları xilas edəcəkdir.**

**Zöhrə nə anasından nə də yelləncək kimi göyün üzündən asılan aydan gözünü çəkə bilmirdi. Anasının zərif barmaqlarını və soyuq vücudunu qızından ayırmağa çalışdılar. Əlində anasından xatirə yalnız bir ovuc saç qalmışdı. Zöhrə ovuclarında anasının saçlarını sıxaraq qışqırdı: Rəsmlərim! Şəkillərim!**

**İndi o bu rəsmlərdəki qəhrəmanları xilas etməyə can atırdı. Bir gün anasının ruhuna ərməğan edəcəyi sərgi təşkil etmək üçün.**

# Azərbaycançılıq ideyasının təbliği

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 7 (2381) 23 fevral 2024-cü il



# Azərbaycanlılar bağışlamağı bacarırlar...

**Heç bir millətdə və heç bir xalqda olmayan mərdlik, dəyanət, qürur bizim millətdədir. Yəni, bizim millət balaca xalq olmasına baxmayaraq, çox böyük ürəyə, çox böyük dəyərlərə və çox böyük adət-ənənələrə malikdir. Biz tarixən belə olmuşuq və bu gün də adını çəkdiyimiz dəyərlərimizi yaşatmağı bacarırıq. Sadəcə olaraq, bizim çörəyimizin duzu yoxdur, daha doğrusu, duzu var ey, amma bizim çörək verdiyimiz, yaxşılıq elədiyimiz bəzi millətlərin özlərinin duzları yoxdur.**



Azərbaycan xalqı bayaq dediyimiz kimi, tarixən zəngin keçmişə və mədəniyyətə malik olan bir millətdir. Öz mədəni dəyərlərinə, tarixi abidələrinə və zəngin keçmişinə nə qədər hörmətlə yanaşırsa, başqa xalqların da ənənələrinə, mədəniyyətinə, dininə və dilinə həmin diqqətlə yanaşır. Bizim millət həm də düşmənini bağışlamağı bacaran xalqdır.

"Dədə Qorqud" filmindən bir epizodu yada salmaq bəs edər. Yəqin sizin də yadınızdadır: Qazan xan düşməni, Aruzu toppuzla vurub, atdan yerə yıxır. Oğlu Turala deyir ki, bunun başını kəs! Oğlu Turalın da Aruza yazığı gəlir, onun başını kəsmir və oradan bir qədər uzaqlaşan kimi Aruz oxla onun kürəyindən vurur. Bax, biz bağışlayırıq, düşmənlərimiz də həmişə bizim ürəyi yumşaqlığımızdan, sadəliyimizdən istifadə edərək, arxadan kürəyimizə zərbə endirir.

Çox uzağa getməyək, elə qonşu erməniləri yada salaq. Birinci və İkinci Qarabağ savaşında biz onlara nə qədər mərhəmət göstərdik. Amma onlar neylədilər? Ermənilər isə Xocalıda, Qaradağlıda, Kəlbəcərdə və digər işğal olunmuş yerlərimizdə dinc sakinlərimizi - qocaları, qadınları, uşaqları və hətta xəstə adamları belə güllə-baran etdilər. Heç kəsə mərhəmət göstərmədilər, əksinə onlardan mərhəmət istəyənləri amansızcasına qətlə yetirdilər. Qan su yerinə axdı. Ermənilər sanki azərbaycanlıların qanına susamışdılar və o qanı içməkdən doymurdular. Bununla yanaşı, işğal etdikləri şəhərləri, kəndləri və qəsəbələri od vurub yandırdılar. Evlərin, binaların daşını daş üstə qoymadılar. Bax, bu yağı düşmənin əsil sifəti idi.

Biz azərbaycanlılar isə İkinci Qarabağ Savaşında istəsəydik Hadrut azad olunanda nə qədər erməni uşaqlarını, qadınları və qocaları öldürə bilərdik. Ancaq Azərbaycan əsgəri onların birinə də güllə atmadı. Mülki əhalinin birini belə əsir götürmədi, incitmədi. Onlara şərait yaratdı ki, hamısı sağ-salamat Hadrutdan çıxıb getsin. Bir mülki ermənin burnu belə qanamadı, hamısı da çox sakit halda çıxıb getdilər. Hətta mülki ermənilərdən biri öz mətbuatlarına verdiyi müsahibədə yazırdı ki, azərbaycanlılar istəsəydi bizim hamımızı güllələyə bilərdi, amma biz onlardan güllə atdıqlarını görmədik, əksinə minlərlə ermənini Hadrutu rahat tərk eləməyinə şərait yaratdıqlarını gördük. Bu adi bir erəmninin gördüyü hadisədir. Bu hadisəni də o, özü erməni mətbuatına danışır.

Yenə "Dolu" filmində bir səhnə yadımıza düşür. Orada da bir erməni qadınını Azərbacyan əsgərləri əsir götürür və ona gözün üstündə qaşın var demir. Onu aparırlar bizim komandirin yanına, komandir də deyir ki, buraxın getsin, mən arvad davas eləmirəm, torpaq davası edirəm. Bax, budur türklərin, azərbaycanlıların əsil siması. Yəni, Azərbaycan əsgəri, türk əsgəri heç vaxt dinc əhaliyə, qadına, uşağa əl qaldırmaz, güllə atmaz və işğaldan azad etdikləri bir erməni evi yandırılmadı. Bunu kim yaxşı bilməsə də erəmnilər də yaxşı bilir və hər halda dünya da yaxşı bilməmiş deyil.

Çünki dünya gördü ki, İkinci Qarabağ savaşında və eləcə də 2023-cü ilin sentyabrın 19 və 20-də anti-terror əməliyyatı zamanı işğaldan azad olunan yerlərdə yenə mülki əhaliyə Azərbaycan əsgəri toxunmadı, hətta əməliyyat zamanı mülki əhalinin yaşadığı yerə Azərbaycan əsgəri bir mərmi, bir raket, bir top belə atmadı. Sadəcə olaraq, bütün hədəf hərbi obyektlər oldu və döyüş də elə bu istiqamətlərdə aparıldı.

Bizim millətin mərdliyini, dəyanətini göstərən əsas əlamətlərdən biri də işğaldan azad olunan yerlərdə erməni abidələrinə, eləcə də xristian məbədəlrinə və onların müqəddəds yerlərinə, hətta qəbiristanlıqlarına belə hörmətlə yanaşmamız oldu. Bir kimsə deyə bilməz ki, onların Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda kimlərsə torpaq azad olunandan sonra məzarlıqlarına gedib, baş daşını aşırıb, yaxud aparıb. Bütün bunlar bayaq dedimiz kimi, Azərbacyan xalqını dünyaya tanıtdıran və sevdirən cəhətlərdir. O cəhətlər ki, biz erməni kimi qədar düşmənə qarşı çox rəhimli və mərhəmətliyik. Bayaq dediyimiz kimi, biz bunu sözddə deyil, əməldə edirik. Bizim iki əsrimizə görə biz ermənilərin 32 əsirini qaytardıq. Biz əsirlər vətənə gələndən sonra necə işgəncələrə məruz qaldıqlarınıı danışanda adamın tükləri biz-biz olur, düşünürsən ki, adam da silahsız, əsir düşmüş insana bu qədər işgəncə verərmi?

Ermənilərdən nə desən gözləmək olar. Ancaq bizim geri qaytardğımız o 32 erməni əsiri Azərbaycanda olduğu müddətdə heç bir işgəncəyə, təzyiqə, əzab-əziyyətə məruz qalmayıb, əksinə onlar Azərbaycanda yağ-bal içində saxlanılmışdır.

Sanki əsirlikdən deyil, hansısa sanatoriyadan, istirahət mərkəzindən geri dönürdülər. Bütün bunlar tarixdir və tarixin də şahidi zamanır. Zaman isə bu gün bizim xeyrimizə işləyir. Çünki azərbaycançılıq ideyası, türkçülük ideologiyası artq dünyaya yayılır. Bir çox Avropa dövlətəlri bizi dünyaya mədəniyyətsiz, vəhşi millət kimi təqdim etmişdilər. Amma tarix və zaman göstəri ki, vəhşi biz deyilik, bizi dünyaya belə təqdim edən ermənilər və onların havadarlarıdır. Artıq dünyanı da bir o qədər allatmaq mümkün deyil. Çünki bizim ölkəni dünyanın əksər dövlətləri zəngin tarixi, mədəniyyəti və keçmişi olan bir xalq kimi tanıyır. Elə ona görə də onlar artıq bizimlə çox böyük siyasi, iqtisadi, mədəni əlaqələr qururlar və qurublar.

**Əlbəttə, Azərbaycanın dünyadan görünməsi və azərbaycançılıq ideyalarının dünyanın mədəniyyət aləminə daxil olması xalqımızın qüdrətini, zənginliyini, mərhəmətini və böyüklüyünü göstərir. O böyüklük ki, biz həmişə başqa xalqların ən ağır, ən çətin, ən pis vəziyyətində köməyinə çatmışıq. Biz Ukraynanın, Fələstinin, müharibədən əziyyət çəkən dinc əhalisinə maddi və mənəvi dəstək olmuşuq. Baxmayaraq ki, özümüzün bir milyondan çox məcburi köçkünümüz və qaçqınımız olub, amma yenə digər ölkələrin zəlzələdən əziyyət çəkənlərinə, müharibədə sıxıntılar içərisində qalanlarına əl tutmuşuq. Bu əli isə həm Allah görür, həm də dünya ölkələri!**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "Çox adam bir-birinin üzünə baxmadan, danışmadan getdilər"

## *"Apatiya" filminin koordinatoru danışdı*

*Son günlərin film gündəminə bomba kimi düşən "Apatiya" filminin kordinatoru, yazar Miri Rəsulzadə ilə həm qala gecəsi, həm də film barəsində qısa söhbət etdik.*

*Adalet.az həmin söhbəti oxuculara təqdim edir.*



**- Elə oldumu ki dəvət etdiyiniz qonaqlardan gəlməyən, imtina edən olsun?**

Açığı siyahını tərtib edəndə ucdantutma hamıya dəvət göndərməmişik. Çağırdığımız qonaqların 98 %-i gəlmişdi. Qalan 2 % də üzürlü səbəbə görə iştirak edə bilmədi. Birinin xəstəsi oldu, biri ölkədə olmadı və s. Yazıb bildirdilər. Kinonun mözusu, mahiyyəti bir kənara (bu barədə xeyli yazılar yazıldı) mənim ən böyük uğur saydığım məsələ kino, televiziya adamları ilə ədəbiyyat (qələm) adamlarının bir araya gəlməsi oldu. Bu ilk sayılır. Həmişə kino, teatr cameəsi ayrı, qələm adamları özləri üçün ayrı düşərgə salıblar. Əslində əl-ələ verib gözəl işlər görməlidirlər. Biz çox azıq. Yaradıcı adamların, iş görə bilən adamları, şairi, yazıçını, aktyoru, rejissoru saysan 1500-2000 adam ola ya olmaz. Təbii ki, filmdə ağır səhnələr olduğu üçün (söyüş, ağır qətl və s) birmənalı qarşılanmadı. Film bitən kimi hamı tələsik çıxdı. Əslində qalada filmdən sonra insanlar bir-biri ilə söhbət edir, şəkil çəkdirir.

Başqa cür təsəvvür edirdilər. Gülüşlə, deyib-gülməklə başlayan qala sükutla sona çatdı. Gözlənilən idi.

**- Bəs "Məni nahaqq çağırdın" deyən oldumu?**

- Mənə deməsələr də özlərinə yəqin deyiblər - "mən niyə gəldim?". Bizə zatən bəy tərifi gözləmirdik. Kifayət qədər tənqid edənlər, təhqir edənlər oldu. Təqdir edənlər də həmçinin.

**- Səncə ədəbiyyat-kino cameəsinin bir araya gəlməsi üçün başqa nə etmək lazımdır? Məsələn, "Apatiya" qala gecəsində qonaq dəvət etməklə addım atdı.**

-Bir-birlərinin qapısını açmalıdılar. Şükür, ədəbiyyatdan çıxan ssenaristlər artıq televiziya proyektlərinə, kinolara ayaq açıblar. Məsələm Elvin Paşa, Rəşad Nağı, Pərviz Arif. Həm veriliş, həm teleserial, həm də filmlərə və s layihələrə ssenari yazırlar. Rejissorlarla işləmək lazımdı. Qeybətin, tənbəlliyin daşını atmaq lazımdı, saxta qürur kürkünü çıxarmaq lazımdı. Qələm adamları kinodan yazanda, dəstək olanda, rejissor da ssenari yazanda onlarla məaləhət edəcək. Setə dilçi çağıracaq. Yenə deyirəm, kökündə sevgi olmalıdır.

**Söhbətləşdi: Eminquey**

# UNESCO-nun Türkiyə İrsi

**Türkiyə, sivilizasiya tarixinin yazıldığı və formalaşdığı dünyanın ən vacib coğrafiyalarından birində yerləşən açıq səma altında qədim sərvətlər muzeyidir.**

Adalet.az xəbər verir ki, ölkənin 21-i UNESCO-nun Ümumdünya İrs Siyahısında və 79-u İlkin Siyahıda yer alan zəngin tarixi abidələri var və təəccüblü deyil ki, hər il yüz minlərlə tarixsever bu irsi ziyarət edir. Beləliklə, antik dövrün ən qüdrətli padşahlarının yaşadığı bu münbit torpaqlar haqqında nə qədər məlumatınız var? Gəlin Türkiyənin daha az tanınan arxeoloji xəzinələrindən bəziləri haqqında danışaq.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan Aizanoi, Egey bölgəsinin Kütahya şəhərində yerləşən diqqətələyiq tarixi mirasdır. Qədim Frigiyada yaşayan Ayzanitlərin əsas məskunlaşma mərkəzi olan Aizanoi, Roma dövründə taxılçılıq, şərab və yun istehsalı sayəsində zəngin və görkəmli bir şəhərə çevrilib. Aizanoi dünyanın ilk ticarət mübadilə binası olan Macellum və Anadolunun ən yaxşı qorunub saxlanılan Zevs Məbədinin evidir.

Frigiya Vadisinin bir hissəsi olan Kütahyada ana ilahə Kibeləyə həsr olunmuş açıq səma altında bir çox məbədlər və qurbangahlar, həmçinin qayaüstü türbələr var. Səyahətiniz zamanı bölgənin bu fantastik strukturlarını ziyarət etməyi də unutmayın. Qədim dünyanın əhəmiyyətli liman şəhəri olan Kaunos, qaya məzarları ilə Türkiyənin ən maraqlı xarabalıqları arasındadır. UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan Kaunos zamanla dənizi lil ilə doldurduğu üçün limanını itirdi. Stratonikiya kimi Kaunos də Muğla vilayətində yerləşir və Dalyandan qayıqla 10 dəqiqəlik məsafədədir.



Dalyandan da görünən Kaunos qaya məzarları eramızdan əvvəl IV əsrə aiddir və Roma dövründə istifadə edilmişdir. Ziyarətiniz zamanı tur qayıqları sizi Caretta caretta dəniz tısbağalarını müşahidə edə biləcəyiniz əsl təbiət möcüzəsi olan İztuzu çimərliyinə apara bilər. Belə ki, Caretta carettaların inkubasiya və kürü tökmə dövrlərində ziyarətçilərinin çimərliyə girişi qadağandır, çünki bu kritik dövrdə çimərliklər yalnız dəniz tısbağaları üçün ayrılmışdır.

Qədim sivilizasiyaların məskəni olan Burdurda yerləşən Kibyra, Saqalassos ilə birlikdə bölgənin ən əhəmiyyətli qədim şəhərləri arasındadır. 2016-cı ildən bəri UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan Kibyradakı strukturlar mənzərə təqdim etmək üçün simmetrik şəkildə planlaşdırılıb.

Bundan əlavə, hərtərəfli bərpadan sonra Kibyranın 2000 illik gözəl monumental fəvvarəsindən yenidən içməli su axır. Şəhərin zirvəsi Roma dövrünə təsadüf edir. Onun digər diqqətəlayiq strukturları arasında qladiator döyüşlərinin baş verdiyi, təxminən 10 min nəfər tutuma sahib stadion və unikal Meduza mozaikasına malik Odeon var.

Həmçinin, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan, Burdurun digər heyrətamiz qədim şəhəri Saqalassos mütləq görmək istəyəcəyiniz bölgələr arasındadır. 5000 illik tarixə sahib Antonin Fəvvarəsi və ağ qumlu çimərliyi ilə təbii möcüzə olan Salda gölü də ziyarət etməyə dəyər.

E.ə. 2000-ci ilə aid qədim Priene şəhəri Aydının Güllübahçe qəsəbəsi yaxınlığında yerləşir.

UNESCO-nun Ümumdünya İrsi İlkin Siyahısına daxil edilmiş, Miletli memar Hippodamus Priene tərəfindən hazırlanmış şəbəkə planı ilə tikilmiş bu şəhər qədim şəhərsalmanın ən gözəl nümunələrindən hesab olunur.

Ellinistik dövrdə Selevkilər və Perqam kimi krallıqlar tərəfindən idarə olunan Priene, Perqam kralı II Attalusun ölümündən sonra Roma tərkibinə daxil edilmişdi.

Şəhər Şərqi Roma dövründə yepiskop kimi xidmət etmiş və dövrün sonunda tamamilə tərk edilmişdir.

**Prienedən sonra Kuşadasını da ziyarət edə və ilin çox hissəsi üzgüçülük üçün kifayət qədər isti olan ərazidə mavi kruizdən həzz ala bilərsiniz.**

# Azər Axşam: "...bəs mən kiməm"



**Aktyor Azər Axşam bəzi həmkarlarına meydan oxuyub.**

Adalet.az xəbər verir ki, o, bəzi həmkarlarını qeyri-peşəkar adlandırıb: "Fərda dostumuzdur. Yaxşı insandır, amma o, profesional aktyor deyil. Belə rol ifaçılarına türklər gözəl bir söz deyir- oyunçu. Fərda, Elməddin v.s bunlar oyunçudular.

Əgər Fərda aktyordusa, bəs mən kiməm?

Axı mən bu peşənin təhsilin almışam, uzun müddət bu sənətlə teatr səhnəsində çıxış etmişəm.

Oyunçu ilə aktyoru qarışdırmaq olmaz".

**Əntiqə**

## *DEYƏSƏN, "ZİRƏ"Nİ CADULAYIBLAR*



**Çempionata uğurla başlayan, möhtəşəm oyun göstərən "Zirə" birdən-birə süstləşdi. Nəinki 1-ci yeri, 2-ci, 3-cü yerləri əldən verib. Komandanın oyununa söz ola bilməz. Amma artıq son 9 oyunda qələbə qazana bilməyiblər.**

Mənə elə gəlir ki, "Zirə"ni cadulayıblar. Və bu caduda hakimlərimizin xüsusi rolu var. Bunu futbol cameəsi hamısı görür. Amma hakimlər komitəsi nədənsə bunu görməzdən gəlir. AFFA da hakimlər komitəsinə bir söz deyə bilmir. Qorxur ki, bir söz deyərlər Şimşək ildırıma çevrilə bilər.

Dostum Rəşad Sadıqov, nə özün, nə də futbolçuların ruhdan düşməsin. Siz bu cadunu dağıdacaqsınız.

## *"Mən də erməniləri ifşa etmişəm və hayların hədəsinə tuş olmuşam"*



**Tanınmış fitnes məşqçisi Kamil Zeynallı Rusiyada polis əməkdaşları tərəfindən saxlanılıb. K. Zeynallının dediyinə görə, o, "Domodedovo" hava limanında saxlanılıb. Yerli polis bölməsi əməkdaşları onun Ermənistan tərəfindən beynəlxalq axtarışa verildiyini, bu səbəbdən saxlanıldığını deyiblər.**

Adalet.az xəbər verir ki, yazıçı Firuz Mustafa bu məsələ ilə bağlı reaksiya verib.

"İdmançı Kamil Zeynallı ermənilərin şikayəti əsasında Moskva təyyarə limanında saxlanılıb. İdmançının özünün dediyinə görə, onu Yerevana təhvil vermək istəyirlər. Belə çıxır ki, Moskva ermənilərin yanında "yaxşı kişi" rolunu oynamaq istəyir. Ona qalmış yüzlərlə yazımda mən də erməniləri ifşa etmişəm və hayların hədəsinə tuş olmuşam. Onda ölkədən kənara çıxmayım və ya qonşu ölkəyə getməyim? Məsələ tədricən aydınlaşır. Zənnimcə Moskva bu cür hərəkətlə Bakıda saxlanılan bir çox cinayətkar ermənilərin dəyişdüyüş yolu ilə azad edilməsinə nail olmaq və "cızığından çıxan" erməniləri ram etmək istəyir.

**Emin**

## *Vəfa Şərifova: "Onlara kinim çoxdur"*



**Müğənni Vəfa Şərifova həmkarı Zeynəb Həsənidən danışıb. Adalet.az xəbər verir ki, o, həmkarından incimədiyini bildirib:**

"Mən efirdə bir söz demişdim. Ancaq bu sözün qətiyyən Zeynəbə aidiyyəti yox idi. Amma o, incidi məndən. Mənə dedi ki, sənə efirdə sözümü deyəcəm. Mən də dedim ki nə desən də sənə cavab verməyəcəm. Elə də etdim. Heç bir sözünə cavab vermədim. Onu başa düşürəm, Zeynəbin xəstəlik keçirdiyi dönəmlər idi. O xəstəlik də hər kəsə bir cür təsir edir. Kimisi aqressivləşir, kimisi də mülayimləşir.

Zeynəb də hədsiz aqressiv olmuşdu. Allah köməyi olsun. Ona kinim yoxdur. Amma digər adlarını çəkdiklərinizi görmək istəmirəm. Hətta mahnılarını eşidəndə belə təzyiqim, qızdırmam qalxır".

**Əntiqə**

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi **Faiq Qismətoğluna** əzizi, şəhid atası

**Tehran Nəsib oğlu Süleymanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səməndər Məmmədov və Faiq Qismətoğlu ailə üzvləri ilə birlikdə Bakının 282 saylı tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi **Mətanət xanıma** həyat yoldaşı

**Əli Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS

**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

**Tiraj: 1500**
**Sifariş: 168**
Çapa imzalanmışdır: 22.02.2024